**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU**

**NƏRGİZ QULİYEVA**

# AZƏRBAYCANDA UŞAQ ETNOQRAFİYASI

**Bakı – 2021**

AMEA Arxeologiya və etnoqrafiya institutunun Elmi Şurasının 11.XII.2020-ci il tarixli qərarına əsasən nəşr olunmuşdur.

**Müəllif:** **Quliyeva Nərgiz**, t.ü.e.d.professor

**Elmi redaktor:** **Əhmədov Teymur** f.ü.e.d, professor

**Rəyçilər:** **Kərimov Emil**, t.ü.f.d.
**Şəfərov Rafiq**, t.ü.f.d.

**Quliyeva N.M. Azərbaycanda uşaq etnoqrafiyası.**
Bakı, *"AVROPA"* nəşriyyatı-2021, 216 səh.

*Əsərdə uşaq artımı ilə əlaqədar xalq arasında sonsuzluğa münasibətlə bağlı adət və ənənələr, doğuşa təsir edən amillər, yeni doğulmuş körpə ilə əlaqədar 40 gün ərzində xalq inaclarına əsasən icra olunan adətlər, ad qoyma mərasimi, uşaqların həyatlarının ilk illəri ilə bağlı adətlər, uşaq xəstəlikləri, uşaq geyimləri, uşaq oyunları, uşaqların tərbiyəsi, uşaqların təhsili və uşaq ədəbiyyatına dair məsələlər şərh olunmuşdur.*

*Əsər çöl-etnoqrafik, nəzəri, statistik materiallar, informatorların məlumatları əsasında yazılmışdır.*

*Zəngin mənbələr əsasında ensiklopedik səpgidə hazırlanmış kitabı uşaq problemi ilə maraqlanan mütəxəssis həkimlər, etnoqraflar və oxucuların stolüstü kitabı ola bilər.*

4702060104-30
8032-2021

©*"AVROPA"* nəşriyyatı-2021

## Mündəricat


**Ön söz ........................................................................ 8**
**I fəsil. Azərbaycanda uşaq artımına dair ........................... 16**
1.1. Xalq arasında sonsuzluğa münasibətlə bağlı adət və inanclar ........................................................................ 16
1.2. Azərbaycanda doğuma təsir edən amillər ....................... 23
1.3. Yeni doğulmuş körpə ilə əlaqədar 40 gün ərzində xalq inanclarına əsasən icra olunan adətlər ................................... 35
1.4. Ad qoydu mərasimi ........................................................ 49
**II fəsil. Uşaqların həyat tərzi ................................................ 68**
2.1. Uşaqların həyatlarının ilk illəri ilə bağlı adətlər ............. 68
2.2. Uşaq xəstəlikləri və müalicəsinə dair .............................. 78
2.3. Uşaq yeməkləri ................................................................ 83
2.4. Uşaq geyimləri ................................................................. 87
2.5. Uşaq oyunları .................................................................. 94
2.6. Uşaqların tərbiyəsi ........................................................ 105
**III fəsil. Azərbaycanda uşaqların təhsili və uşaq ədəbiyyatına dair ........................................................................ 125**
3.1. Uşaqların təhsili ............................................................ 125
3.2. Uşaq ədəbiyyatı ............................................................. 151
**Nəticə ...................................................................................... 175**
**İstifadə olunmuş ədəbiyyatların siyahısı ............................ 177**
**İnformatorların siyahısı ........................................................ 193**
***İllüstrasiyalar* ......................................................................... 201**

## KEÇMİŞLƏ GƏLƏCƏYİ BİRLƏŞDİRƏN KİTAB

Elmin, texnikanın inkişaf etdiyi, dünyanın kiçilərək internet vasitəsilə evimizin içinə qədər girdiyi bir vaxtda milli dəyərlərin qorunması çətinləşsə də, biz məhz milli-mənəvi dəyərlərimizlə bir xalq olaraq özümüzü digərlərindən fərqləndirə bilirik, yəni hər bir xalq dünyəvi olmaqla yanaşı həm də milli olmalıdır. Bu milliliyin yaşadılması isə gələcəyimiz olan uşaqlarımızı böyüdən, tərbiyə edən biz böyüklərdən asılıdır. Uşaqlar keçmişlə gələcəyi özündə birləşdirir. Bu keçmiş, bu gələcək sadəcə bir insanın, bir ailənin dünəni, sabahı deyil, bütöv bir ölkənin, xalqın keçmişi və gələcəyidir.

Hər bir uşaq böyüdüyü ailədə, mühitdə öyrəndikləri adət-ənənələri, ana südü, ana laylası, nənə-baba nağılları, dastanları ilə qanına, canına hopan dəyərləri, gördüyü, iştirakçısı olduğu ayin və mərasimləri yaddaşında hifz edir, qoruyur, gələcəyə aparır və, beləliklə, bizdən sonra onları yaşadır, öz övladlarına ötürür...

Elə buna görə də Azərbaycanda bütün dövrlərdə həm ənənəyə, həm də ölkənin qanunvericiliyinə uyğun olaraq uşaqlara böyük diqqət və sevgi göstərilmişdir. Dövlət uşaq siyasətinin əsası isə ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ölkəmizdə körpələrin sağlamlığı, onların yaxşı təhsil və təlim-tərbiyə görmələri, Vətən və xalq üçün layiqli vətəndaş kimi yetişmələri Ulu Öndərin məqsədyönlü siyasətinin tərkib hissəsi olmuşdur.

Bu gün uşaq hüquqlarının qorunması, uşaqlara qayğı Azərbaycan Prezidenti İlham Əliyevin və Heydər Əliyev

Fondunun prezidenti Azərbaycanın birinci xanımı, Azərbaycan Respublikası birinci vitse-prezidenti, Azərbaycan Mədəniyyət Fondunun prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti, UNESCO-nun və ISESCO-nun Xoşməramlı səfiri Mehriban Əliyevanın daim diqqət mərkəzindədir.

Hər il ölkəmizdə 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü yüksək səviyyədə qeyd olunur, dövlət qurumlarının bu sahədə fəaliyyətləri ildən-ilə genişlənir. Azərbaycan Respublikası 1999-cu ildə Uşaq Hüquqları Haqqında Konvensiyanın müddəalarına əsaslanaraq "Azərbaycan Respublikasının uşaq hüquqları haqqında" Qanununu qəbul etmişdir. Müstəqillik illərində respublikamızda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması da qarşıya qoyulan məqsədlərin uğurla həyata keçirilməsinə öz töhfəsini verir. 2009-cu ilin Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə ölkəmizdə "Uşaq ili" elan olunması da dövlətin gələcəyimiz olan uşaqlara qayğı və diqqətinin yüksək səviyyədə təzahürüdür...

Bütün bunlar uşaqlarımızın hərtərəfli inkişafı, onların müasir beynəlxalq standartlara cavab verən təhsil, səhiyyə xidmətləri ilə təmin olunması üçün edilir. Fond tərəfindən bu istiqamətdə həyata keçirilən müxtəlif səpkili layihələr Azərbaycanın genofondu olan uşaqların qorunmasına, inkişafına, ailədaxili münasibətlərin böyüməkdə olan nəslin təlim-tərbiyəsinə müsbət yöndən təsirinə xidmət edir.

Təsadüfi deyil ki, Azərbaycan etnoqrafiya elminin mühüm problemlərindən biri də ailə və ailə məişətinin tədqiqidir.

Sosioloji mənada ailə nikaha, qohumluğa, uşaqların tərbiyəsinə, qarşılıqlı birgə həyat mənafeyinə əsaslanan birlikdir.

Uzun illər Azərbaycan ailəsi ilə bağlı araşdırmalar aparan, müxtəlif kitab və məqalələrin müəllifi olan etnoqraf Nərgiz Quliyevanın ölkəmizin elmi ictimaiyyətinə təqdim etdiyi "Azərbaycanda uşaq etnoqrafiyası" adlı monoqrafiyası da uşaq siyasəti ilə bağlı görülən işlərin məntiqi davamıdır. Monoqrafiyada müəllif zəngin çöl-etnoqrafik materiallarından da istifadə etmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan elmində uşaq folkloru, uşaq oyunları, uşaq ədəbiyyatı araşdırılsa da, ayrıca olaraq uşaq etnoqrafiyası monoqrafiya mövzusu olmamışdır. N.Quliyevanın giriş, üç fəsil, nəticə, ədəbiyyat və informatorların siyahısından ibarət olan "Azərbaycanda uşaq etnoqrafiyası" adlı monoqrafiyası bu sahəyə həsr olunmuş ilk ümumiləşdirilmiş əsərdir. Əsərdə Azərbaycan ailələrində uşağa münasibət, adət və inamlar, mərasim və ayinlər, uşağın dünyaya gəlməsi, tərbiyəsi, yoluxduğu xəstəliklər, onların müalicəsi, yeməklər, uşaq oyunları, geyimlər, ənənələrlə tanışlıq, ailədə yeri və s. bağlı məsələlər öz əksini tapmışdır.

Uşaqların nitqinin, zehninin, yaddaşının inkişafı ilə bağlı keçmişdən bu günümüzə qədər gələn yanıltmaclar, sanamalar, zəka oyunları, fiziki gücün, çevikliyin artırılmasına yönəlmiş oyunlar, uşaq ədəbiyyatına dair bir sıra məsələlər də müəllifin diqqətindən kənarda qalmamışdır.

N.Quliyeva uşaqların tərbiyəsi ilə bağlı məsələləri şərh edərkən qeyd edir ki, insan xarakterinin, əməyə, mənəvi aləmə, ideya və mədəni sərvətlərə münasibətinin əsasları, şəx-

siyyətinin inkişafı məhz ailədə formalaşır. Təbii ki, burada ailənin mövcud olduğu mühitin rolunu da danmaq mümkün deyil...

Müəllif Azərbaycanda təhsilin insanın, cəmiyyətin, dövlətin inkişafına xidmət etdiyini, milli zəminə, bəşəri dəyərlərə əsaslandığını, dünyəvi xarakter daşıdığını qeyd edir. O, gənc nəslin milli mənlik şüurunun, vətənpərvərlik ruhunun yüksəldilməsində təhsilin xüsusi rol oynadığını, sosial inkişafın mərkəzi prinsipi, aparıcı faktoru olduğunu bildirir. N.Quliyeva bu məsələlərin açılmasında xalq deyimlərinə, gündən-günə artan məktəblərə, müxtəlif sahələr üzrə inkişaf dinamikasına, rəqəmlərə müraciət edir, eyni zamanda təhsilin hərtərəfli inkişafına dövlət qayğısını vurğulayır.

Tarixin keşməkeşli dövrlərindən üzü ağ çıxan adət-ənənələrimizin saf-çürük edilərək gələcək nəslə ötürülməsi, uşaqların tərbiyəsi, təhsili, sağlamlığı, həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı böyüklərin üzərinə düşən vəzifələrin yerinə yetirilməsi, kompüter və telefonlara maraq göstərən uşaqların diqqətinin müxtəlif yaş qruplarına uyğun milli oyunlarımıza yönəldilməsi günümüzün akyual məsələlərindən biri kimi N.M.Quliyevanın "Azərbaycanda uşaq etnoqrafiyası" adlı monoqrafiyasında öz əksini tapmışdır. Bu da əsərin elmi dəyərini, ictimai faydalılığını daha da artırır.

**Güllü Yoloğlu (Məmmədli)**
**filologiya üzrə fəlsəfə doktoru,**
**tarix üzrə elmlər doktoru**

# GİRİŞ

Azərbaycanda yaşayan bütün uşaqlar Azərbaycan dövlətinin himayəsindədir. Onlar iqtisadi, sosial, mədəni və siyasi hüquqlara malikdirlər Yaş xüsusiyyətlərinə, bioloji və psixoloji inkişafın səviyyəsinə əsaslanaraq uşaqlıq dövrü uşaqların kifayət qədər mürəkkəb təbiətini əks etdirir. Birləşmiş Millətlər Təşkilatının (BMT) “Uşaq hüquqları üzrə konvensiyası”nda 18 yaşa qədər olan hər bir şəxs uşaq sayılır. 54 maddədən ibarət konvensiyada uşaq haqları 4 kateqoriyaya – inkişaf, müdafiə, iştirak və yaşamaq haqlarına bölünür.

1998-ci ildə qəbul edilmiş Uşaq hüquqları haqqında Azərbaycan Respublikası Qanununa əsasən ölkəmizdə də uşaqlıq dövrü 18 yaşa qədər olan müddəti əhatə edir.

Uşaq siyasəti Azərbaycan Respublikasının dövlət siyasətinin tərkib hissəsidir. Uşaqların hüquq və azadlıqlarının qorunması, uşaqların keyfiyyətli təhsil və yüksək tibbi xidmətlərlə təmin edilməsi, onların qayğı ilə əhatə olunması dəyərli mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, hərtərəfli şəxsiyyət və layiqli vətəndaş kimi formalaşmasını Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin düzgün istiqamətləri təşkil edir.

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 dekabr tarixli 103 nömrəli sərəncamı ilə 2009-cu il Azərbaycan Respublikasında “Uşaq ili” elan edilmişdir. Uşaqların sağlam mühitdə tərbiyə edilməsi üçün lazımi şəraitin yaradılması, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara dövlət qayğısının artırılması, uşaq

baxımsızlığının, alverinin, uşaq əməyinin istismarının, uşaqlara qarşı zorakılığın qarşısının alınması və bu kimi digər məsələlər uşaq problemləri sahəsində dövlət siyasətinin əsas istiqamətlərini təşkil edir.

1 iyun 1996-cı ildə uşaqların Beynəlxalq Müdafiə günü münasibətilə Ulu Öndər Heydər Əliyev "Uşaqlara qayğı müqəddəs borcumuzdir" mövzusunda çıxışında demişdir: Müstəqil Azərbaycan Respublikasında biz bu günü, bu bayramı xüsusi qeyd edirik. Çünki Azərbaycan xalqının milli ənənələrindən biri də ondan ibarətdir ki, uşağa diqqət, qayğı həmişə bir ailənin, hər bir insanın əsas vəzifəsi, mənəviyyatımızın əsas hissəsi olubdur. Təsadüfi deyil ki, Azərbaycanda insanlar həmişə istəyiblər ki, onların çox uşağı olsun, ailələr çoxuşaqlı olublar. Ata-analar uşaqları qorumağı, saxlamağı, böyüdüb tərbiyə etməyi öz həyatının mənası və məqsədi hesab ediblər. Bu, əcdadlarımızdan, ulu babalarımızdan bizə qalan ənənələr nəsihətdir, irsdir. Biz də bu ənənəyə sadiqik. Bizim borcumuz bu ənənələri dərinləşdirmək, genişləndirmək, daha da inkişaf etdirməkdən ibarətdir.

Müstəqil Azərbaycan Respublikasının, dövlətimizin qayğıları çoxdur. Ancaq uşaqlara, körpələrə olan qayğı bütün qayğılardan üstündür. Bu, bizim müqəddəs borcumuzdur. (1, s. 57)

Azərbaycan Respublikasının Ailə məcəlləsinin "Valideynlərin və uşaqların hüquq və vəzifələri" adlanan dördüncü bölməsinin onuncu fəsli "Uşaq mənşəyinin müəyyən olunması", on birinci fəsli isə "Ailədə uşaqların hüquqları" adlanır. Belə ki, 49-cu maddəyə əsasən uşağın ailədə yaşamaq və tər-

biyə olunmaq hüququ, 50-ci maddəyə görə uşağın öz valideynləri və başqa qohumları ilə ünsiyyətdə olmaq hüququ; 51-ci maddəyə görə müdafiə, 52-ci maddəyə əsasən öz fikrini bildirmək; 53-cü maddəyə görə ad, ata və soyad daşımaq; 54-cü maddəyə əsasən adının və soyadının dəyişdirilməsi; 55-ci maddə əsasında isə əmlak hüquqları, 75-ci maddəyə əsasən valideynlərin uşaqlarını saxlamaq vəzifəsi haqda məlumat təsbit olunmuşdur. (2, s. 33-37, 50).

Məlumdur ki, 2018-ci ilin əvvəlində Azərbaycan Respublikası əhalisinin sayı 9898,1 min nəfər olmuşdur. Əhalinin 5237,8 min nəfəri və ya 52,9 faizi şəhər, 4660,3 min nəfəri və ya 47,1 faizi kənd yerlərində yaşayırdı. Əhalinin 4938,0 min nəfəri (49,9 faizi) kişilərdən, 4960,1 min nəfəri isə (50,1 faizi) qadınlardan ibarət idi, hər 1000 nəfər kişiyə 1005 nəfər qadın düşürdü.

Əhalinin ümumu sayından 22,6 faizi 0-14 yaşda, 70,9 faizi 15-64 yaşda, 6,5 faizi isə 65 və yuxarı yaşda olanlar idi. 14-29 yaşda olan gənclər ümumi əhalinin 26 faizini təşkil edirdi. Onların da yarıdan çoxu şəhər yerlərində yaşayırdılar (3,s. 7).

Azərbaycanlılar arasında övladla bağlı deyimlər çoxdur: Məsələn, "övladsızlıq darlığına düşməyəsən" övladının uğuru üzünə gülsün" və s. Yeni anadan olan uşağı evə gətirəndə qabağına dəmir atırlar ki, canı möhkəm olsun. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin tərkib hissəsi olan ailə institutunun zəngin adət-ənənələri, əxlaqi-mənəvi dəyərləri vardır.

Qloballaşma və modernləşmə şəraitində ailələrdə dünyaya gələn uşağı milli ruhda böyütmək, cəmiyyətə layiqli və-

təndaş hazırlamaq baxımından qadınların üzərinə böyük məsuliyyət düşür. Öz vəzifələrini həmrəylik və əməkdaşlıq şəraitində yerinə yetirən ailələrdə kişi və qadın əl-ələ verir, möhkəm təməl üzərində milli-mənəvi dəyərlərimiz mühafizə edilib yaşadılır. Ailədə böyüyən övladlarda böyüyə hörmət, kiçiyə diqqət, mərhəmət kimi hisslər aşılanır.

Bütün dünyada olduğu kimi Azərbaycanda da insanların yarandığı zamandan etibarən dini görüşləri olmuşdur. Neandertal adamlarının qəbirlərinin tapılması onların da dini görüşlərinin olduğuna dəlalət edir. Məlumdur ki, insanlar müxtəlif təbiət hadisələrinə - Günəşə, Aya, İldırıma, ayrı-ayrı bütlərə sitayiş etmişlər. Ərəblər İslamdan qabaq çoxallahlı idilər. Kəbədə 360 büt  var idi.

Qədim insanların dini dünyagörüşlərindən olan animizm (ruh), magiya  sehirbazlıq, ovsunçuluq, cadugərlik kimi izah edilir, totemizm "totem" (tayfanın əcdadı və s.) fetişizm – cansız cisimlərə, qeyri-adi formalı daşlara qayalara, ağaclara, gildən düzəldilmiş bütlərə, insanabənzər təsvirlərə sitayiş fetişizm adlanır. Şamanlıq (sehirçisinin, türkəçarəçinin ruhlarla əlaqəyə girərək müəyyən köməkləri nəzərdə tutulur və s. (4, s. 10-12).

Azərbaycanda hələ İslam dinindən əvvəl müəyyən təbəqələr zərdüşt dininə, daha sonra xristianlığa sitayiş etmişlər.

Məlumdur ki, Zərdüşt təqribən e.ə. 1500-1200-cü illər arasında Cənubi Azərbaycanda doğulmuş və müəllifi olduğu on yeddi himn-qatla şöhrət tapmış və peyğəmbər kimi tanınmışdır. (5, s.14) Avesta Zərdüştün yoludur. XX əsrə qədər

Bakıda – Suraxanıda atəşpərəstlərin məbədi fəaliyyət göstərmişdir.

Xristianlıq I əsrin ikinci yarısında Yaxın Şərqdə meydana çıxmışdır. 2000 il bundan qabaq xristian dininin yaradıcısı xilaskar İsa doğulub. Bu dinin əsas ideyası günaha batmış insanın nicat tapması, qurtarmasıdır və s. Azərbaycana bu din Qafqaz Albaniyası vasitəsi ilə gəlmişdir. 313-cü ildə Alban hökmdarı Urnayr kübar təbəqə ilə birlikdə xristianlığı qəbul etmiş və onların səyləri nəticəsində xristianlıq Albaniyanın hakim ideologiyası olmuşdur.

İslam dini VII əsrin əvvəllərində Ərəbistanda təşəkkül tapmağa başlamışdır. Yaradıcısı Məhəmməd peyğəmbər olmuşdur.

Quran "Oxu" mənasında Məhəmməd peyğəmbərə ilahidən hissə-hissə nazil edilmiş vəhylərin məcmusudur. Vəhy Cəbrayıl vasitəsilə Məhəmməd peyğəmbərə, ondan isə Qurana ötürülmüşdür.

Qurana görə Allah birdir. Quranda 114 surə vardır. Əl-Fatihə surəsi ilə başlanır, ən-Nas surəsi ilə bitir.

İslama görə, insan özünü tanıyırsa, kim olduğunu bilirsə, Allahını da tanıyacaq. Onun birliyinə iman gətirəcəkdir. İman insanın qəlbinə daxil olacaqdır.

İslam dininə görə heç bir insan başqasından, heç bir xalq digərindən fərqlənmir, bütün insanlar bir ailədir.

Göründüyü kimi, Azərbaycan xalqının inam mənbələri kimi, zərdüştlük, xristianlıq və İslam – müsəlmançılıq kimi müxtəlif dini inamlara sitayiş etmələri onların təfəkküründə, adət ənənələrində də təzahürünü tapmışdır.

Azərbaycan xalqının həyatında mühüm yeri olan dini inamları, onların ailə-məişət həyatına da nüfuz etmişdir. Belə ki, ailədə uşaqların sayı, həyatlarının bütün anları valideynlərlə sıx bağlı olmuşdur. Azərbaycan xalqının müxtəlif tarixi mərhələlərdən, ictimai-iqtisadi quruluşlardan keçərək müasir dünyada ictimai həyatın bütün sahələrində gedən qloballaşma prosesi şəraitində inkişaf etməsi də ailələrdə uşaqların həyatlarında da müəyyən rol oynayır.

Azərbaycan etnoqrafiya elmi barədə kitablar yazılsa da uşaqlarla əlaqədar ancaq məqalələr, kitablarda müəyyən hissələr yer almışdır. Q.F.Gursinin 1905-ci ildə "Tiflis şəhərində kaxetiyalıların xalq adətləri və inamları ilə bağlı məlumatlar" kitabı 1913-cü ildə "Qafqaz etnoqrafiyasının oçerkləri" əsəri nəşr olunmuşdur. Bu kitablarda kaxetiyada uşaq adətlərindən bəhs edilir. (6)

1983-cü ildə Moskvada nəşr olunan "Uşaq etnoqrafiyası" monoqrafiyası Ön Asiya və Cənubi Asiya xalqlarında uşaqların və yeniyetmələrin ənənəvi tərbiyə üsullarına həsr olunmuşdur. (7)

1994-cü ildə Vladiqafqazda X.V.Dzusev və Z.T.Besaevanın "Osetinlərin uşaq etnoqrafiyası" əsərində osetinlərdə doğum adətləri, osetin uşaqlarının tərbiyəsi və həyatlarının ilk illəri ilə əlaqədar adətlərdən, ənənələrdən danışılır. (8)

S.T.Solovyevanın 1995-ci ildə Moskvada nəşr olunmuş "Gürcüstan. Uşaq etnoqrafiyası" əsəri iki fəsildən ibarətdir. (9)

Əsərdə gürcü xalqlarında sonsuzluğa münasibət və uşağı olmayan qadınlara ailədə və qohumlar arasında münasibət-

lər, uşaqların anadan olması ilə bağlı adətlər, doğuşdan sonrakı dövr, onunla bağlı inam və təsəvvürlər icra olunan adətlərdən bəhs olunur.

Q.M.Naumenkonun 1998-ci ildə Moskvada nəşr edilən “Uşaqlıq etnoqrafiyası” əsərində hamiləlik, uşaqlara ad qoydu, uşaq ölümü, beşik, uşaq oyuncaqları, uşaq yeməkləri, geyim və qab-qacaqları, mahnıları, uşaqların tərbiyəsi ilə bağlı məsələlər şərhini tapır. (10)

Ümumiyyətlə, uşaq etnoqrafiyasına dair müəyyən elmi xarakterli əsərlərə maraq artmışdır. “Azərbaycanda uşaq etnoqrafiyası” monoqrafiyası bu cəhətdən diqqəti cəlb edir. Kitabda bu məsələ üç fəsildə ümumiləşdirilmişdir. Birinci fəsli azərbaycanlıların doğum adətləri və uşaq artımı adlanır. Bu fəsildə xalq arasında sonsuzluğa münasibətlə bağlı adət və inamlar; Azərbaycanda doğuma təsir edən amillər, yeni doğulmuş körpə ilə əlaqədar 40 gün ərzində xalq inamlarına əsasən icra olunan adətlər; adqoydu mərasimi barədə dolğun məlumat verilir.

İkinci fəsil “Uşaqların həyat tərzi” adlanır. Bu fəsildə isə uşaqların həyatlarının ilk illəri ilə bağlı adətlər; uşaq xəstəlikləri və onların müalicəsi, uşaq yeməkləri, uşaq geyimləri, uşaq oyunları; uşaqların tərbiyəsi məsələlərindən bəhs olunur. “Azərbaycanda uşaqların təhsili və uşaq ədəbiyyatına dair” üçüncü fəsildə uşaqların təhsili; Azərbaycanda uşaq ədəbiyyatının tarixinə dair bilgilər haqda məlumat verilmişdir.

Beləliklə, qədim dövlətçilik ənənələri, zəngin irsi, milli-mənəvi dəyərləri, multikultural mədəniyyəti olan Azərbaycan Respublikasında övlad – uşaq problemi və bu sahədə geniş

maarifləndirmə işi, uşaq hüquqlarının müdafiəsi, uşaqlarda sağlam həyat tərzinin daima təmini həm dövlətin, həm də hər bir Azərbaycan vətəndaşının vəzifəsi hesab olunur.

# I FƏSİL

# AZƏRBAYCANDA UŞAQ ARTIMINA DAİR

## 1.1. Xalq arasında sonsuzluğa münasibətlə bağlı adət və inamlar

Azərbaycanda uşağın doğulması, böyüdülməsi ilə əlaqədar xalq arasında müəyyən inamlar, adətlər, ənənələr, dini təsəvvürlər mövcuddur. Övladı olmayan ailələri “sonsuz ailələr”, “övladsız ailələr” adlandırmışlar. Odur ki, ailənin çoxuşaqlı olması üçün toyun bütün mərhələlərində yeni qurulacaq ailəyə xalq inamları tətbiq edilir. Məsələn, gəlinin cehiz yorğan-döşəyinə ilkin olaraq oğlan uşağını oturdurlar, oğlan evində isə gəlinin qucağına oğlan uşağını verirlər. Naxçıvanda gəlinə xoş gəldin edildikdə bar ağacından istifadə edilir. Qız evinə erkək heyvanları (qoçları) oğlan uşağı ilə göndərirlər və s.

Xalq arasında oğlunu evləndirmək istəyən ailələrdə hansı ailənin sonsuzluqla əlaqəsi varsa, hələ “qız bəyənmə” dövründə həmin ailədən qız alıb, qız verməyə meyl etmirlər. Uşağı olmayan şəxslər “qəlbi qırıq” adlanır və müəyyən tədbirlərdə “Allah səni göyərtsin, Allah sənə də şirin pay versin” – deyərək həmin şəxslərə dil-ağız edirlər. İnama görə insanın sonsuz olması Allahın işidir, bu onun qismətidir. “Kitabi-Dədə Qorqud” dastanında da “oğul-qızı olmayanı Allah qarğayıbdır – deyilir”. (1)

Abşeron rayonunun "Buzovna kəndində də uşağı gec doğulan, yaxud olmayan qadınlarla bağlı türkəçarələr mövcuddur.

Əl çəkmək, təzə yumurtadan tampon qoymaq bu sahədə sınanılmışdır. Belə ki, toyuğun təzə yumurtasına dua oxunur, sonra sarısından istifadə olunur. Bu bir neçə gün davam edir. Ayın həmin günü həm də qadına "əl çəkilir".

Xalq arasında övladsız şəxslər haqqında deyimlər də mövcuddur:

| | |
|---|---|
| Qoyun quzu yanında, | Əzizim balabanı, |
| Otlar quzu yanında, | Asta çal balabanı, |
| Bəxtəvər o analar | Hamının balası gəldi |
| Oğlu-qızı yanında. | Bəs mənim balam hanı? |

Uşağı olmayan qadınların uşağı olsun deyə analar pirlərə nəzir deyirlər. Məsələn, Cəlilabad rayonunun Ocaqlı kəndində Mir Məmməd Ağanın cəddinə-qəbrinə nəzir edirlər. Həmçinin Mir Səfər Ağanın ocağına, Mir Tahir Ağanın ocağına nəzir edirlər ki, qadının uşağı olsun. Uşaq dünyaya gəldikdən sonra həmin ocaqlara nəzir aparırlar.

Cənub bölgəsində qızlar gec ailə qurarkən qızın anası niyyət edir ki, qızım ailə qursun, uşağı olsun, nəzir paylayacam. Niyyət hasil olanda isə deyilənləri həyata keçirirlər.

Cəlilabad rayonunun Ocaqlı kənd sakinləri qeyd edirlər ki, kənddə bir gəlinin 12 il idi ki, uşağı olmurdu. Novruz bayramı gecəsi ayinlərə müraciət edirlər, yəni həyətdə istənilən bir daşı çevirib niyyət edirlər. Səhər gedib görürlər ki, daşda soxulcan var. Elə həmin il də gəlinin uşağı olur. Həmçinin,

cümə günü niyyət edirlər. İnanırlar ki, Tanrıdan nə istəyirsənsə istəyin agah olacaq.

Səyyah Sula Benet yazır ki, bütün "Qafqaz xalqlarında övlad sahibi olmaq ən böyük arzu, həyatın nəsli yaşatmaq əbədiləşdirmək üçün oğlan uşağına məhəbbət xüsusilə güclüdür. Əgər qadının uşağı olmasa və ya yalnız qız uşağı doğulsa, əri onu boşaya bilər. Heç vaxt nəzərə alınmır ki, sonsuzluğa səbəb bəlkə ər özüdür. Bir vacib məsələ də var, əgər kişi arvadını boşasa uşaqlar kişinin yanında qalır. (2, s. 181)

Bakı kəndlərində uşağı olmayan qadınları qırx süfrəsi ilə də sınayırlar. Belə ki, məclis süfrəsi, yəni "qırx süfrəsi", "Əli süfrəsi" yığılır pilləkənlərdən süfrəni övladsız qadının başına silkələyirlər, nəticəsi müsbət olur.

Azərbaycanın cənub bölgələrində uşağı olmayan qadınların belini çəkirlər. Məsələn, küpə qoyur, belini oxlovla çəkirlər və s.

Deyirlər ki, qurd çilləsinə düşənin uşağı olmaz. Qadın çilləyə düşməsin deyə mollaya çilləni kəsdirmək lazımdır.

Uşağı olmayan qadınlar üstlərində dua gəzdirir, kimlə qarşılaşsalar ona da həmzad satırlar. Odur ki, inanırlar ki, qarşılaşdıqları şəxs həmzadlanır və uşaqları olmurdu.

Etnoqrafların fikrincə həmzad, həmzadlı sözü fars mənşəli olub "eyni vaxtda doğulmuş" deməkdir. Belə ki, bir-birinin üzünü görmədən uşaqları ölmüş qadına, həmzadlı qadın deyilir. Doğuşdan sonrakı 40 gün ərzində, yəni çillə vaxtı gəlinin, zahının üstünə getməklə guya həmzad həmin şəxsin üstünə "tökülürdü". Həmzaddan xilas olmaq üçün təzə doğmuş it-pişiyin üstünə getmək, dua yazdırmaq da sınanılmışdı.

Əhməd Əfəndi Çələbizadə Quba əhalisinin məlumatlarına əsasən qeyd edir ki, gənc şəxslər, əgər cin sözünü dillərinə gətirib, bismillah deməzlərsə, onlar həmzadlı olar və uşaqları olmaz. Yaxud, bivaxt (axşamçağı) başını yuyub, bayıra su atanda, cinlərin libası sayılan soğan, sarımsaq qabıqlarını yandırıb, pulları sayılan yumurtanın qabığını yandıranda da "bismillah" demədikdə yenə də onlara həmzad verilir.

Təzə ərə getmiş qız qırx gün ölü mərasiminə getməməlidir. Əgər bu qırx gün ərzində gəlin ya yeni evlənmiş oğlan ölü mərasiminə, yasa getsələr qırxa düşərlər və övladlarının olmamasına səbəb olarlar. (3, s. 20) Sonsuzluğa qarşı xalq inanclarını Quba əhalisi indi də təkrar edir: Belə ki, əvvələn, Həzrət Babaya nəzir etmək, müqəddəs məzarlarda pirlərdə doğmayam arvadın paltarından "ləli" (nənni) asıb, içinə də uşaq modeli olaraq çöpü əskiyə büküb qoyurlar. Bu ləlini asarkən nəzir diləyirlər ki, bir ilin müddətinə "pir" mənə bir uşaq versə bir qoç gətirib pirin üstündə kəsərəm. Sonra o uşaq olanda nəziri gətirib pirin üstünə qoyurlar. Qırxa düşən adamlar, hər il Novruzdan əvvəl, ilin axır çərşənbəsində qırxını kəsməlidirlər və s. (4, s. 21).

Lənkəran rayonunda uşaqla bağlı məişət adətləri çoxdur. Belə ki, Lənkəranda qadınların dünyaya övlad və ya oğul gətirə bilməməsi səbəbilə boşadılması yolverilməz hal sayılır. Bu zaman bir çox niyyətlər edilir, türkəçarələrə, tibbi yollarla müraciət edilir.. Lakin heç bir yolla övlad qismət olmazsa qohumlardan (əsasən ər-arvadın bacı və ya qardaş uşaqları) və ya uşaq evlərindən uşaqlar övladlığa götürülür.

Dünyaya övlad gətirə bilməyən qadınlar çarə üçün bir çox hallarda el dili ilə "türkəçarə"lərə müraciət edirlər. Məsələn, gəlinin belini böyük bir yaylıqla qarnının altından çəkib bağlayırlar. Bir neçə gün gəlin bu vəziyyətdə gəzdikdən sonra onu açırlar. Yaxud çiltas edirlər.

Çiltas - təzə gəlinin çilləsi çıxmayıbsa başqa bir çilə hadisəsi görsə (ya kiminsə övladı olub çilləsi çıxmayıb, ya kimsə ölüb çilləsi çıxmasa) gəlinin çiləyə düşdüyünə inanılır. Bu isə o deməkdir ki, gəlin dünyaya övlad gətirməyə bilər. Bu vaxt bir çiltasın içinə su tökərkən dua oxuyurlar (bu iş üçün istifadə olunan, içində Quran ayələri olan xüsusi balaca tas götürürlər). Onu sonra çiləyə düşmüş qadının başına tökürlər, beləcə gəlinin çilləsi kəsilmiş olur.

Bundan başqa övladı olmayan qadınlar Lənkəranda olan İsti suya gedirlər, orda türkəçarə müalicə kursu keçirlər və sonra mütləq çox qalın geyinməlidirlər. Müxtəlif çayları içirlər. Qoz, bal, istiot qarışığını yedirdirlər, bundan başqa qoz-bal qarışığını uşaqlıq yoluna da yeridirlər və s.

İllərlə uşağı olmayan və ya qızları olub oğlu olmayan ana niyyət edir ki, uşağı və ya oğlu olsa onun qulağına "Heydəri" sırğa taxacaq. "Heydəri" sırğa isə üzərində təbii firuzə daşlı balaca halqa sırğa olur.

Uşaq və ya oğul dünyaya gəldikdən sonra 7 il qurban kəsilir.

Xalq arasında niyyət boyun olma da vardır. Belə ki, etnoqraf T.Səlimov yazır: "Heydəri" – qədim ailə - məişət ənənələrimizdəndir.

Lakin ənənənin mənşəyi tam aydınlaşdırılmamışdır. Ailədə körpə vaxtı oğlan uşaqları qalmayıb ölərdisə, o zaman nəzir deyib növbəti uşağı (oğlanı) "Heydəri" edərdilər. Bu zaman onun bir qulağını deşib (sağ) dairəvi formalı qızıl, yaxud gümüş sırğa (güşvar) taxılardı. Nəzir müddəti 4-7, 12 yaşa qədər olan dövrü əhatə edirdi. Uşaq həmin yaşa çatdıqdan sonra niyyət edilən nəzir verilər, sırğa isə çıxarılardı. Lakin bəzən sırğanı uzun illər qulaqdan açmazdılar. Ənənənin digər bir variantı da vardır. Belə ki, bəzən bir neçə qızdan sonra doğulan, yaxud niyyət ediləndən sonra ("Allah oğlan uşağı versin" deyə) dünyaya gələn oğlan uşağını qada-baladan, bəd ruhlardan qorumaq məqsədilə də "Heydəri" edərdilər (tədqiqatçıların gümanına görə aldadıcı magiya baxımından guya uşaq oğlan yox, qızdır). (5, s. 99)

Biləsuvar rayonunun Ağalı (Yuxarı Cürəli) kəndində həftənin 3-cü, 5-ci günləri Çilləni kəsirlər. Quranın çilə surəsi yazılır, suya atılır, qız həm də niyyət edir, həmin su ilə yuyunur və deyir: "hər nə çilləyə düşmüşəmsə, həmin çillədən çıxmaq üçün çilə qüsulu verirəm, vacib qürbətən illəllah" sonra "qırx açar camı ilə başından su tökür. Misdən, yaxud tuncdan hazırlanmış bu camın ağız tərəfdən dövrəsi açar formalı, üzdən, yaxud içəridən "zodiak" bürclərlə bəzədilmiş, bayır tərəfdən Qurandan ayələr yazılmış və əsasən dini, ailə-məişət mərasimlərində istifadə edilən su qabıdır. Məsələn, çillə müddəti başa çatdıqda ana və çağa çimdirilərkən başına mərasimi qaydada qırxaçar camından su tökülərdi və s. (6, s. 146)

5-7 rəngli sapa Quranın surəsi oxunur. Həmin saplar qola bağlanır, 40 gün müddətində özü açılıb düşür. Sudan çıxa-

rılan dua isə boyundan asılır. Qusul veriləndən sonra sinəsindən həmzad duası da asılır. Hamiləlik dövründə aylıq, yəni 1-9 aylıq dualar yazılır. Uşaq anadan olandan sonra Şəşə duası yazılır. İkinci övlad olanda isə duanı onun üstünə gətirirlər.

Göründüyü kimi, Azərbaycanın bütün bölgələrində uşaqla bağlı adətlərdə lokallıq nəzərə çarpır. Məsələn, Lerik rayonunun Lərmərud kəndinin materialları əsasında qeyd etmək olar ki, ənənəvi olaraq bu kənddə də qadınların uşağa qalmalarına mane olan amillərdən biri də gəlinin çiləyə düşməsidir. Məsələn, yeni evlənmiş qızlar bir-birləri ilə görüşərkən hansı əvvəlcə digər gəlini danışdırmış olsa çilləsini onun üstünə tökmüş olur. Buna görə də, adətən, toydan 40 gün keçənə qədər təzə gəlinlər evdən çıxmırlar. Yaxud, başqa kim isə yas mərasimindən birbaşa qırxlı gəlinin yanına gəlmişsə çilləsini onun üzərinə tökə bilər.

İnama görə çilədən xilas olmağın bir sıra yolları var. Bunlardan biri el arasında "çilə kəsmək" kimi tanınan adətdir. Bu adəti yerinə yetirmək üçün 7 rəngdə sap kəsilərək düyünlənir. Sonra həmin sapa dua oxunur. Adətən, dua molla tərəfindən oxunur. Sonra isə düyünlənmiş sap çilləli gəlinə verilir. Gəlin onu ayağına, buduna və ya baldırına bağlayır. Bununla da o çillədən xilas olur və hamilə qala bilir.

Çillədən xilas olmaq üçün icra olunan digər adətə görə xüsusi dualar yazılmış mis cama su tökülür. Çilləli gəlinin başına örpək salınır, dua oxunur, başına su tökülür.

Əlbəttə, müəyyən oxşamalarda da uşağı olmayanlara uşaq arzulanır. Xalq arasında belə bir deyim də var: "Allah dağına baxıb, qar verər, Tanrı bəndəsini Allah sonsuz eləmə-

sin!” Qeyd etdiyimiz kimi, xalq inamına görə sonsuzluğa təsir edən amillərdən biri də həmzaddır. Bu məqsədlə müxtəlif ayinlər icra olunur. Məsələn, qırxı (çilləsi) çıxmamış gəlin uşağı ölmüş qadınla görüşməməlidir, əks təqdirdə “çilləyə” düşə bilər. Novruz bayramı günü qaynana təzə gəlini çay (su) kənarına gətirər və keçən ilin çilləsini “kəsdirər”. Belə ki, gəlinin qolundan tutub axar su üstündən üç dəfə addımlayardı. Həmçinin təzə gəlinin axşamüstü başını yuyub bayıra su atması, soğan, sarımsaq qabıqlarını yandırması, yasa getməsi düzgün deyil. Müəyyən iş görərkən “bismillah” demək isə vacibdir.

Xalq arasında sonsuzluqdan qurtarmaq üçün müxtəlif müqəddəs yerlərə (Əshabi-Kəhf və s.), ocaqlara, pirlərə ziyarətə getmək, qurban kəsib paylamaq, Xıdır Nəbiyə qovut qovurmağı əhd etmək, həmçinin mama qadınların uşağı olmayan şəxslərin belinə yaxı yaxmaq, belini-qarnını çəkmək, yəni dərman işlətmədən kömək etmək, müxtəlif müalicəvi, təbii yeməklərdən istifadə geniş yayılmışdır.

## 1.2. Azərbaycanda doğuma təsir edən amillərə dair

Azərbaycanda müasir ailə-məişət münasibətlərinin mühüm məsələlərindən biri də ailənin artım funksiyasıdır. Doğum insanların imkanı daxilində nəslin davam etdirilməsidir. Uşaq dünyaya gətirməyin potensialı qadınların fertil yaş dövründə olmaları, repreduktiv nəsilartırma zamanı cəmiyyətin sosial determinist sistemi, sosial və mədəni normaları, ənənə-

vi ictimai maraqları ilə əlaqədardır. Ailədə uşaqların sayı isə həyat tərzi, həyat komponentləri ilə bağlıdır. Doğum isə real nəsli təyin edir. Ailədə doğuma təsir edən amillər çoxdur.

Ailə məişətinin mühüm sahəsi olan doğum və onunla bağlı müxtəlif ovsunlar, ayinlər barədə M.Vəzirovun (1), A.Zaxarovun (2), Q.Qədirzadənin (3), N.Quliyevanın (4) və digərlərinin əsərlərində bəhs olunur.

"Kitabi – Dədəd Qorqud" (5) dastanında da bu məsələ diqqətdən yayınmamışdır.

Doğulan uşaqların sayına yalnız diri doğulanlar daxildir. Doğumun ümumi əmsalı – uşaq doğumunun intensivliyini müəyyən edən göstəricidir, müəyyən bir müddətdə diri doğulanların sayının əhalinin orta illik sayına nisbəti ilə ölçülür.

Azərbaycanda hər gün təxminən 397 yeni kiçik vətəndaş dünyaya gəlir. 2008-ci ildə doğumun səviyyəsi əhalinin hər 1000 nəfərinə 18 nəfər idi (6 s. 33)

Azərbaycanda il ərzində doğulanlar 1950-ci ildə 90280, 1960-cı ildə 165849, 1970-ci ildə 150976, 1980-cui ildə 154974, 1990-cı ildə 182989, 2000-ci ildə 116994, 2010-cu ildə 165643 nəfər olmuşdur. (7) 2012-2017-ci illərdə orta hesabla hər il 163 min körpə və ya hər gün təxminən 445 kiçik vətəndaş dünyaya gəlmişdir. (8,s.7).

Azərbaycanda 1990-cı ildə ananın nikah vəziyyətinə görə doğulanlar 182989 nəfər olmuşdur. Onlardan rəsmi qeydə alınmış nikahda olan qadınlar tərəfindən doğulanlar 1990-cı ildə 178 189, 2008-ci ildə 133665 nəfər idi.

Rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulan uşaqların sayı 1990-cı ildə 4800, 2008-ci ildə 18421 nəfər idi.

Azərbaycanda doğulanlar, ölənlər və təbii artım dinamikasına nəzər salsaq müəyyən olunur ki, təbii artım 1950-ci ildə 62534 nəfər, 1960-cı ildə 139911 nəfər, 1970-ci ildə 116470 nəfər, 1980-ci ildə 111910 nəfər, 1990-cı ildə 140170 nəfər, 2000-ci ildə 70293, 2010-cu ildə 112063 nəfər, 2017-ci ildə 86932 nəfər olmuşdur.

**Cədvəl 1.**

## Doğulanlar, ölənlər və təbii artım (nəfər)

| İllər | Təbii artım | | | Doğulanların sayı | | | Ölənlərin sayı | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | o cümlədən | | Cəmi | o cümlədən | | Cəmi | | o cümlədən |
| | | Şəhər yerlərində | Kənd yerlərində | | Şəhər yerlərində | Kənd yerlərində | | Şəhər yerlərində | Kənd yerlərində |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 1950 | 62534 | 24871 | 37663 | 90280 | 37804 | 52476 | 27746 | 12933 | 14813 |
| 1951 | 73648 | 29772 | 43876 | 100979 | 42565 | 58414 | 27331 | 12793 | 14538 |
| 1952 | 76443 | 29620 | 46823 | 106687 | 44751 | 61936 | 30244 | 15131 | 15113 |
| 1953 | 71671 | 31177 | 40494 | 101378 | 45130 | 56248 | 29707 | 13953 | 15754 |
| 1954 | 88573 | 35769 | 52804 | 117428 | 50327 | 67101 | 28855 | 14558 | 14297 |
| 1955 | 100525 | 39739 | 60786 | 125599 | 52611 | 72988 | 25074 | 12872 | 12202 |
| 1956 | 110663 | 41378 | 69285 | 134594 | 54003 | 80591 | 23931 | 12625 | 11306 |
| 1957 | 113862 | 41350 | 72512 | 139529 | 54991 | 84538 | 25667 | 13641 | 12026 |
| 1958 | 120415 | 43757 | 76658 | 147534 | 56866 | 90668 | 27119 | 13109 | 14010 |
| 1959 | 129786 | 46859 | 82927 | 155872 | 60142 | 95730 | 26086 | 13283 | 12803 |
| 1960 | 139931 | 52448 | 87483 | 165849 | 65985 | 99864 | 25918 | 13537 | 12381 |
| 1961 | 143209 | 54713 | 88496 | 170504 | 68487 | 102017 | 27295 | 13774 | 13521 |
| 1962 | 137440 | 53635 | 83805 | 168341 | 68801 | 99540 | 30901 | 15166 | 15735 |
| 1963 | 144803 | 55980 | 88823 | 175033 | 71030 | 104003 | 30230 | 15050 | 15180 |
| 1964 | 144705 | 56773 | 87932 | 176546 | 72068 | 104478 | 31841 | 15295 | 16546 |
| 1965 | 138334 | 51547 | 86787 | 167429 | 66368 | 101061 | 29095 | 14821 | 14274 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1966 | 134888 | 50653 | 84235 | 166545 | 65980 | 100565 | 31657 | 15327 | 16330 |
| 1967 | 124932 | 46299 | 78633 | 157270 | 62162 | 95108 | 32338 | 15863 | 16475 |
| 1968 | 126012 | 48625 | 77387 | 158962 | 64543 | 94419 | 32950 | 15918 | 17032 |
| 1969 | 112650 | 44579 | 68071 | 148078 | 61455 | 86623 | 35428 | 16876 | 18552 |
| 1970 | 116470 | 46469 | 70001 | 150976 | 63285 | 87691 | 34506 | 16816 | 17690 |
| 1971 | 112025 | 46276 | 65749 | 146261 | 62905 | 83356 | 34236 | 16629 | 17607 |
| 1972 | 102094 | 43611 | 58483 | 137752 | 60870 | 76882 | 35658 | 17259 | 18399 |
| 1973 | 103799 | 45385 | 58414 | 138569 | 62694 | 75875 | 34770 | 17309 | 17461 |
| 1974 | 103002 | 45366 | 57636 | 139084 | 63200 | 75884 | 36082 | 17834 | 18248 |
| 1975 | 102566 | 46878 | 55688 | 141857 | 66397 | 75460 | 39291 | 19519 | 19772 |
| 1976 | 109170 | 50419 | 58751 | 147199 | 69825 | 77374 | 38029 | 19406 | 18623 |
| 1977 | 107787 | 49605 | 58182 | 146822 | 69828 | 76994 | 39035 | 20223 | 18812 |
| 1978 | 108876 | 51293 | 57583 | 148812 | 71491 | 77321 | 39936 | 20198 | 19738 |
| 1979 | 110058 | 52537 | 57521 | 153080 | 74634 | 78446 | 43022 | 22097 | 20925 |
| 1980 | 111910 | 53586 | 58324 | 154974 | 75585 | 79389 | 43064 | 21999 | 21065 |
| 1981 | 121679 | 57543 | 64136 | 164577 | 80471 | 84106 | 42898 | 22928 | 19970 |
| 1982 | 118049 | 56057 | 61992 | 160425 | 78154 | 82271 | 42376 | 22097 | 20279 |
| 1983 | 125700 | 58774 | 66926 | 168644 | 81087 | 87557 | 42944 | 22313 | 20631 |
| 1984 | 129592 | 61827 | 67765 | 174437 | 85178 | 89259 | 44845 | 23351 | 21494 |
| 1985 | 132478 | 63169 | 69309 | 177657 | 86729 | 90928 | 45179 | 23560 | 21619 |
| 1986 | 141265 | 67843 | 73422 | 186609 | 91530 | 95079 | 45344 | 23687 | 21657 |
| 1987 | 138841 | 67637 | 71204 | 184585 | 91466 | 93119 | 45744 | 23829 | 21915 |
| 1988 | 136865 | 64939 | 71926 | 184350 | 89689 | 94661 | 47485 | 24750 | 22735 |
| 1989 | 137615 | 62949 | 74666 | 181631 | 85930 | 95701 | 44016 | 22981 | 21035 |
| 1990 | 140170 | 64204 | 75966 | 182289 | 86008 | 96981 | 42819 | 21804 | 21015 |
| 1991 | 145694 | 66129 | 79565 | 190353 | 89321 | 101032 | 44659 | 23192 | 21467 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1992 | 130106 | 58414 | 71692 | 181364 | 84503 | 96771 | 51258 | 26179 | 25079 |
| 1993 | 121809 | 54598 | 67211 | 174618 | 81783 | 92835 | 52809 | 27185 | 24624 |
| 1994 | 104840 | 45960 | 58880 | 159761 | 74332 | 85429 | 54921 | 28372 | 26549 |
| 1995 | 92487 | 38702 | 53785 | 143315 | 65055 | 78260 | 50828 | 26353 | 24475 |
| 1996 | 81005 | 30921 | 50084 | 129247 | 55609 | 73638 | 48242 | 24688 | 23554 |
| 1997 | 85090 | 33103 | 51987 | 132052 | 57031 | 75021 | 46962 | 23928 | 23034 |
| 1998 | 77697 | 29754 | 47943 | 123996 | 53217 | 70779 | 46299 | 23463 | 22836 |
| 1999 | 71244 | 27255 | 43989 | 117539 | 50083 | 67456 | 46295 | 22828 | 23467 |
| 2000 | 70293 | 26101 | 44192 | 116994 | 49631 | 67363 | 46701 | 235 | 23171 |
| 2001 | 65072 | 26294 | 38778 | 110356 | 49676 | 60680 | 45281 | 23 | 21902 |
| 2002 | 64193 | 26128 | 38065 | 110715 | 49733 | 60982 | 46522 | 23605 | 22917 |
| 2003 | 64466 | 26058 | 38408 | 113467 | 51057 | 62410 | 49001 | 24999 | 24002 |
| 2004 | 82041 | 33159 | 48882 | 131609 | 59026 | 72583 | 49568 | 25867 | 23701 |
| 2005 | 89939 | 37015 | 52924 | 141901 | 64362 | 77539 | 51962 | 27347 | 24615 |
| 2006 | 96698 | 42960 | 53738 | 148946 | 70541 | 78405 | 52248 | 27581 | 24667 |
| 2007 | 98308 | 44940 | 53368 | 151963 | 73102 | 78861 | 53655 | 28162 | 25493 |
| 2008 | 99376 | 46106 | 53270 | 152086 | 73923 | 78163 | 52710 | 27817 | 24893 |
| 2009 | 99625 | 47010 | 52615 | 152139 | 74700 | 77439 | 52514 | 27690 | 24824 |
| 2010 | 112063 | 53383 | 58680 | 165643 | 81752 | 83891 | 53580 | 28369 | 25211 |
| 2011 | 122310 | 56972 | 65338 | 176072 | 85539 | 90533 | 53762 | 28567 | 25195 |
| 2012 | 119452 | 56787 | 62665 | 174469 | 86364 | 88105 | 55017 | 29577 | 25440 |
| 2013 | 118288 | 57566 | 60722 | 172671 | 86429 | 86242 | 54383 | 28863 | 25520 |
| 2014 | 114855 | 51834 | 63021 | 170503 | 81822 | 88681 | 55648 | 29988 | 25666 |
| 2015 | 111513 | 51521 | 59992 | 166210 | 81149 | 85061 | 54697 | 20628 | 25069 |
| 2016 | 102816 | 45569 | 57247 | 159464 | 76954 | 82510 | 56648 | 31385 | 25263 |
| 2017 | 86932 | 38257 | 48675 | 144041 | 69479 | 74562 | 57109 | 31222 | 25887(9, s.26) |

Hamiləliyin əvvəllərində deyirlər ki, "vaxtından keçib", "vədəsi keçib", "boyludur" və s. Yəni "yerikləmə", "ağız dadsızlığı" boylu gəlinin ilk vaxtlarında baş verir. 4-5 aylığında uşaq ana bətnində tərpənir, hərəkət edir. Bu dövrdə qadına gözəl insanlara, təbiətə, uşağın atasına baxmağı məsləhət bilirlər. Yaşlı nənələr deyirlər ki, oğlan uşaqları üç aylığında qızlar isə dörd-beş aylığında tərpənirlər.

Doğuşqabağı "dövr" sancı çəkmə adlanır. "Tərs gəlmə" vaxtı mamaça uşağı əllə düzəldirdi. Uşaq doğulan kimi ağlamırdısa, xəzinədə boğulardısa, mamaça onu, soyuq suya salırdı ki, uşaq ayılsın.

El arasında ev şəraitində doğuşa kömək edən qadına mama, mamaça və s. deyirlər. Mamalıq türkəçarənin ayrıca bir qolu olmaqla qədim tarixə malikdir. Etnoqraf Q.Qədirzadə yazır: Azərbaycan türklərində doğuşa kömək edən qadına mama, mamaça deyirlər. (10)

Doğuş çətin olardısa ananın saçı, üstündə olan düyünlər, yanında olanların düyünlü, nəyi varsa hamısı açılırdı və s. Uşaq ağlayandan sonra onun göbəyi kəsilirdi. Uşaq olandan sonra uşaq yoldaşından göbəyə tərəf qanı sığıyırlar, dörd barmaq qoyub eşilmiş sapla bağlayıb, sapın yuxarı tərəfindən kəsici alətlə (qayçı, bıçaq) kəsirdilər. Kəsdikləri aləti uşağın başının altına qoyurlar. Uşaq yoldaşından bir az kəsib uşağın üstünə tikirlər ki, həmzadlı adam həmzadını uşağın üstünə tökə bilməsin, bədnəzər uşağa dəyməsin. Qız uşağının göbəyi quruyub düşdükdən sonra, həyətdə basdırırlar, yaxud bacadan atırlar ki, ev qızı kimi böyüsün. Oğlanların göbəyini isə adətən məktəb həyətinə ağacın dibinə basdırırlar.

Doğum zamanı ananı sakitləşdirmək, anaya ürək-dirək vermək, eyni zamanda uşaqları rahat götürmək arzuları ilə bağlı doğum nəğmələri yaranmışdır:

Sancılar gələr gedər,
Analar gülər gedər,
Nənələr nənni qoyar
Nəvəsin bələr gedər.

Və yaxud:

Oğlanım dağdan düşər
Ormandan, bağdan düşər
Ata öz ovun ovlar
Gül balam candan düşər (11, s. 38)

Doğum zamanı bədbəxt hadisə baş verdikdə - ana, ya da doğulan körpə vəfat etdikdə, mamaça və ana, nənə, qayınana, bacı və yaxın adamlar tərəfindən oxunardı:

Görmədi lala dağı,
Çox gəzdi lala dağı,
Yaralar keçib gedər
Sağalmaz bala dağı.

Xalq ənənələri Azərbaycan xalqının mənəvi sərvətidir. Lakin müxtəlif bölgələrdə lokal fərqlər mövcuddur.

Doğum adətlərinə daxil olan rituallar içərisində doğuş ağrıları ilə müşayiət olunan qadın hissiyyatı əsas yer tutur. Zənn edirlər ki, hər bir qadın öz qarşısında duran bu mədəni rolunu məğrur keçməlidir (12, s. 21; 13, s. 48-57).

Doğumun sayı bu və ya digər tərkibdə uşaq artımı ilə xarakterizə olunur. Doğumun sayının təsvir və təhlili bu prosesin müxtəlif istiqamətlərdə aydınlaşdırılması, müxtəlif gös-

təricilərin açılmasıdır. İnsanların fizioloji qabiliyyəti, törəyib artması-çoxalması müəyyən vaxt ərzində (repreduktiv hərəkət) doğumun sayının artması şəklində reallaşır və əhaliyə övlad sahibi olmağa, öz sosial ehtiyaclarını ödəməyə, əhali arasında fasilələrin yaranmasının qarşısının alınması baxımından bütövlükdə geniş imkanlarını təmin edir. (14, s. 74)

Demoqrafiya – (latın sözü olub, demos – xalq və grapho - yazıram) əhalinin artım qanunauyğunluqları haqqında elm olub bu prosesin şərtlənməsinə kömək edir. (15, s.118) Demoqrafik proseslərə nəzər salsaq görərik ki, 1990-cı ildə Azərbaycanda 14 yaşa qədər olanlar 2346,9, 15-64 yaşda olanlar 4443,8; 65 və yuxarı yaşda olanlar isə 341,2 nəfər idilər.

2014-cü ildə isə 14 yaşa qədər olanlar 2118,6, 15-64 yaşlılar 6804,8, 65 və yuxarı yaşda olanlar isə 553,7 nəfər idilər (16, s. 16).

Azərbaycanda 1990-cı ildə təbii artım 140170 nəfər, onlardan kişilər 71388, qadınlar 68782 nəfər idi. Belə ki, doğulanlar 182989 nəfər, oğlanlar 94385, qızlar 88604 nəfər, ölənlər 42819 nəfər, həmçinin kişilər 22997, qadınlar 19822 nəfər idilər.

2013-cü ildə isə təbii artım 118288 nəfər, həmçinin kişilər 63478 nəfər, qadınlar 54810 nəfər idilər. Doğulanların cəmi sayı isə 172671 nəfər, oğlanlar 92574 nəfər, qızlar 80097 nəfər idilər. Ölənlər isə 54383 nəfər olub, onlardan kişilər 29096 nəfər, qadınlar isə 25287 nəfər idilər. (17, s. 20)

Azərbaycan Respublikasının "Ailə məcəlləsi"nin 168-ci "Doğum haqqında qeydiyyat" maddəsinə əsasən uşağın adı,

atasının adı və soyadı, habelə onun valideynləri haqqında məlumat məcəllənin 46 və 53-cü maddəsinə uyğun yazılır (18, s. 108)

Azərbaycanda 2014-cü ildə iqtisadi və inzibati şəhər və rayonlar üzrə 18 yaşadək uşaqların sayı 2548,2 min nəfər idi. Onlardan 1358,8 min nəfəri kişilər, 1189,4 min nəfəri qadınlar idi. Bütün bu şəxslərdən 1269,8 min nəfəri şəhər yerlərində yaşayırdılar. Onların da 677,0 min nəfəri kişilər, 592,8 min nəfəri qadınlardır. Kənd yerlərində isə 1278,4 min nəfər yaşayırdı. Bu şəxslərin də 681,8 min nəfəri kişilər, 596,4 min nəfəri qadınlar idi (19, s. 111).

Doğulanlarda gözlənilən ömrün uzunluğu 1958-1959-cu illərdə 70,9 yaş, o cümlədən kişilərdə 67,6; qadınlarda 73,4; 1990-cı ildə 71,1; o cümlədən kişilərdə 67,0; qadınlarda 74,8 yaş; 2008-ci ildə isə orta ömür 72,6 yaş; o cümlədən kişilərdə 69,9; qadınlarda 75,4 yaş idi. (20, s. 50-52)

2-ci cədvələ əsasən uşaqlarda doğulanda gözlənilən ömrün uzunluğunu 1990-2017-ci illər ərzində izləyə bilərik.

**Cədvəl 2.**

**Doğulanda gözlənilən ömür uzunluğu**
**(yaş sayı)**

| İllər | Cəmi | Kişilər | Qadınlar |
|---|---|---|---|
| 1990 | 71,1 | 67,0 | 74,8 |
| 1991 | 70,5 | 66,3 | 74,5 |
| 1992 | 69,7 | 65,4 | 73,9 |
| 1993 | 69,5 | 65,2 | 73,9 |
| 1994 | 69,6 | 65,2 | 73,9 |
| 1995 | 69,1 | 65,2 | 72,9 |
| 1996 | 70,2 | 66,3 | 73,8 |

| | | | |
|---|---|---|---|
| 1997 | 71,2 | 67,4 | 74,6 |
| 1998 | 71,6 | 67,9 | 75,0 |
| 1999 | 71,6 | 68,1 | 75,1 |
| 2000 | 71,8 | 68,6 | 75,1 |
| 2001 | 71,9 | 68,6 | 75,2 |
| 2002 | 72,2 | 69,4 | 75,0 |
| 2003 | 72,3 | 69,5 | 75,1 |
| 2004 | 72,4 | 69,6 | 75,2 |
| 2005 | 72,1 | 69,6 | 75,1 |
| 2006 | 72,4 | 69,6 | 75,1 |
| 2007 | 73,0 | 70,1 | 75,8 |
| 2008 | 73,4 | 70,8 | 76,1 |
| 2009 | 73,5 | 70,9 | 76,1 |
| 2010 | 73,6 | 70,9 | 76,2 |
| 2011 | 73,8 | 71,2 | 76,5 |
| 2012 | 73,9 | 71,3 | 76,6 |
| 2013 | 74,2 | 71,6 | 76,8 |
| 2014 | 74,2 | 71,6 | 76,8 |
| 2015 | 75,2 | 72,7 | 77,6 |
| 2016 | 75,2 | 72,8 | 77,6 |
| 2017 | 75,4 | 73,1 | 77,8 (21, s.52) |

Son 5 ildə ölkədə ildə orta hesabla 163 min körpə və ya hər gün təxminən 445 kiçik vətəndaş dünyaya gəlmişdir. Əhalinin hər 1000 nəfərinə hesabı ilə doğum səviyyəsi 2017-ci ildə 14,8 nəfər təşkil etmişdir.

Hazırda ölkədə əhalinin təkrar istehsalı təmin olunur və uşaq doğmaq qabiliyyətinə malik olan qadınların hər birinə bütün ömrü boyu orta hesabla 1,9 uşaq düşür. (22, s. 7)

2009-cu il əhalinin siyahıyaalınmasının məlumatlarına əsasən Azərbaycanda ev təsərrüfatlarının uşaqların sayına görə bölgüsü 3-cü cədvəldə göstərilən kimi idi. Belə ki, 18 yaşadək 1 uşaqlı ailələr 396,0 min, 2 uşaqlı ailələr 529,9 min, 3

uşaqlı ailələr 261,9 min, 4 və çox uşaqlılar 126,7 min idi. Həmçinin şəhərlərdə 1 və 2 uşaqlı, kəndlərdə isə 2 uşaqlı ailələr üstünlük təşkil edirdi.

**Cədvəl 3.**

**Ev təsərrüfatlarının uşaqların sayına görə bölgüsü (2009-cu il əhalinin siyahıyaalınmasının məlumatlarına əsasən)**

| | 18 yaşadək uşaqları olan ev təsərrüfatlarının sayı – cəmi | O cümlədən | | |
|---|---|---|---|---|
| | | Şəhər yerlərində | Kənd yerlərində | |
| Cəmi o cümlədən | 1314,5 | 680,7 | 633,8 | |
| 1 uşaqlı | 396,0 | 226,9 | 169,1 | |
| 2 uşaqlı | 529,9 | 276,7 | 253,2 | |
| 3 uşaqlı | 261,9 | 120,3 | 141,6 | |
| 4 və çox uşaqlı | 126,7 | 56,8 | 69,9 | |
| Yekuna nisbətən, faizlə | | | | |
| Cəmi | 100,0 | 100,0 | 100,0 | |
| 1 uşaqlı | 30,1 | 13,3 | 26,7 | |
| 2 uşaqlı | 40,3 | 40,7 | 10,0 | |
| 3 uşaqlı | 19,9 | 17,7 | 22,3 | |
| 4 və çox uşaqlı | 9,7 | 8,3 | 11,0 | (23, s.58) |

Əlbəttə, artım funksiyası ailənin quruluşuna, demoqrafik, sosial münasibətlərinə əsaslı təsir edir. Ailədə nəslin davam etdirilməsi, cəmiyyətdə tərəflərin atalıq və analıq ləyaqətini doğrultması ilə əlaqədardır. Bu məsələdə xalq inamları, xalq müalicə üsulları da müəyyən qədər qalır və əhalinin məişətində özünəməxsus yer tutur.

## 1.3. Yeni doğulmuş körpə ilə əlaqədar 40 gün ərzində xalq inamlarına əsasən icra olunan adətlər

Azərbaycanda yeni doğulmuş körpə ilə əlaqədar 40 gün ərzində xalq arasında icra olunan adətlər əsrlər boyu formalaşmış əhali arasında kök salmışdır. Lakin, bölgələrdə lokal fərqlər də vardır. Məsələn, Zəngilan rayonunun Kollu-Qışlaq, Rəzdərə kəndlərindən toplanılan etnoqrafik materiallara əsasən qeyd edə bilərik ki, ən qədim mədəniyyət mərkəzlərindən biri olan Azərbaycan hələ də müəyyən hadisələr, xüsusi günlərlə bağlı müxtəlif adət-ənənələr yaşamaqdadır. Ən önəmli adətlərdən biri də körpənin ana bətninə düşməsindən həddibuluğa çatmasına qədərki dövr ərzində mövcud olan adət-ənənələrdir.

Körpələr hər bir evin xoşbəxtliyi, hər bir ailənin arzusudur. Ana bətnində formalaşan körpə öz evinə ruzisi, xoşbəxtliyi ilə bərabər gəlir. Onu bətnində hiss edən ananın bunu böyüklərin yanında dilə gətirməsi düzgün hesab olunmur. Ana bu xoş xəbəri müjdələməkdən çəkinir və başqalarına həvalə edir. 9 ay körpəsini bətnində daşıyan ana övladını dünyaya gətirmək üçün çox əziyyətlərə dözür.

Etnoqrafik materiallardan aydın olur ki, keçmişdə xalqımızın qeyd etdiyi ailə-məişət şənlikləri də (uşağın doğulması, diş çıxartması, qonaqlıq və s.) lətafətli və ləziz yeməklərlə qeyd olunmuşdur. Ailədə ilk uşağın (xüsusilə də oğlan uşağının) doğulması ilə əlaqədar keçirilən qonaqlıqlar ətli yeməklərlə müşayət olunsa da, zahı qadınlar üçün quymaq bişirirdilər. Bunun üçün yağda yetərincəyə qədər qovrulmuş

unun üstünə qaynar su əlavə edilir, vam odda qazmaq bağlayana qədər bişirilirdi. Süfrəyə verilərkən quymağın üstünə şəkər tozu və ya bal, bəkməz tökülür, yağ "gəzdirilir", darçın səpilirdi. Quymağı adətən ağbirçəklər, əksər hallarda isə təzə gəlinin qaynanası bişirirdi. Quymaq qüvvətli yemək hesab edildiyindən, onu toyun səhəri günü bəy və gəlinə də bişirib verirdilər. Zəif düşən adamlara quymaq vermək ramazanın (orucluğun) obaşdanlıq (imsaq) süfrəsinə quymaq çıxarmaq da məqbul sayılırdı. Quymağı bəzən südlə bişirir, içərisinə sarıçiçək, zəfəran da əlavə edirdilər (1).

Mərasim yeməyi kimi nəzərdə tutulan, Naxçıvan bölgəsi üçün xarakterik olan və quymaq kimi bişirilən yeməklərdən biri də zirətov idi. Quymaqdan fərqli olaraq zitərovu düyü unu ilə bişirirdilər. Çox yağlı və qüvvətli-nişastalı yemək olan zirətovu, bir qayda olaraq, ərə gedən qıza duvaq günü, doğuşdan sonra isə gəlinə verilirdi. Birinci halda zirətovu qız evinin ağbirçəkləri bişirirdi. Ətirli və dadlı olması üçün onun tərkibinə zəfəran və sarıkök də qatırdılar. (2, s. 201)

Bakının Binə kəndində uşaq ev şəraitində doğulanda şiş ilə hər yerə dairə çəkirlər. Pəncərənin kənarına, qapının ağzına, həmçinin zahının və uşağın ətrafına üç dəfə cız çəkirdilər. Həmçinin kömürü götürüb ananın və uşağın sifətinə rəng yaxırdılar. Qapının üstünə, pəncərəyə şişlə xaç çəkirdilər. Bundan sonra şişi, bıçağı və bir parça çörəyi zahının yastığının altına qoyurdular. Baş yaylığını isə beşiyə bağlayırlar.

Əgər doğuş çətin keçərdisə kişilər tüfəng atır, bununla da, zənn edirdilər ki, hal anasını qovurlar. Əks təqdirdə o uşağa və anaya pislik edərdi. Kürdəxanı kəndinin sakinləri zənn

edirlər ki, qapının və pəncərənin üstünə “movr” və ya xaç çəkilərdisə zahı təhlükəsiz olardı.

Doğuşdan sonra ana uşağını yedirtməli idi. Yeni doğulan uşağı ya anası, yaxud da qohumlardan biri qucağında saxlamalı idi. Bütün bunlar “hal anası”nın, “qulyabani”nin “cin-şeytanın” və s. təsiri altında baş verirdi.

Kənd sakinlərinin qeyd etdiyinə görə, hal əsasən ana və uşağın düşmənidir, onları görmək istəmir və oğurlayır.

Kənd sakinlərinin zənn etdiklərinə görə qulyabaninin bədənləri tük ilə örtülmüş olur. İnsanların gözünə insan kimi görünür onlar atları tər içərisində çapırlar. Çox ustalıqla insanları təsərrüfatda işlədirlər. “Bismillah” deyənə kimi insanları azad etmirlər.

Bir çox məlumatçılar bildirirlər ki, qulyabanilər (qul-bani), çox pinti geyinirlər. Tüstü ilə bərabər 20 km məsafəyə gedirlər. Odur ki, doğuşdan sonra zahını hal anası apara bilər. Halın evə girməsinin qarşısını almaq üçün möhr edirlər. Bunun üçün şiş götürür, başına soğan bərkidir, eyni vaxtda 3-4 dəfə “Süleyman” deyirlər və şişi pəncərənin, qapının ətrafına aparır, xətt çəkir, halın içəriyə keçməsinin qarşısını alırlar. Sonra şişi zahının başının üstünə qaldırır, küncə qoyur, qapının arxasına nöqtə qoyurlar.  Qapının baş tərəfindən pəncərənin üstündən xaç çəkirlər. Bundan sonra uşağı anaya verib əmizdirtdirirlər. Bu vaxt uşağı əldə tutmaq lazımdır. Kişilər isə halı güllə atmaqla qovurlar.

Nəhayət ocaqdan kömürü götürür, zahının və uşağın alnına kömürlə nöqtə qoyurlar. Zahının baş yaylığına iynə taxır, qapının içəri tərəfindən aşağıdan, pəncərənin üst tərəfin-

dən nöqtə qoyurlar. Qapının və pəncərənin arxa tərəfindən xaç çəkirlər. Xalq inamına görə mal örüşdən, otlaqdan qayıdan zaman kişilər çöldə tüfəng atırdılar.

Onu da qeyd edək ki, körpəni dünyaya gətirdiyi an anaya dərin yuxu gəlir. Lakin bu yuxuya getmək ana üçün təhlükəli hesab olunur. Çünki ana bu anlar çox zəif olur. Bu halında şeytan ananı qorxuda və psixoloji problemlər yarada bilər. Eyni zamanda bu an gördüyü yuxu onun körpəsinin gələcəyindən də xəbər verə bilər, düşünən insanlarda mənfi yuxu görməsi ruh düşkünlüyü yaradar. Beləliklə, körpənin qırxının tökülməsi onun daha güclü olması kimi qəbul olunur. Tovuz rayonunun Aşağı Quşçu kəndində xalq inamına görə yeni doğulmuş uşaq olan evə qırx gün ərzində yad adam getməməlidir. Gələn olsa isə uşaq çölə çıxarılır, adamlar evə daxil olur, uşaq isə onların dalınca içəri aparılır. Qırxlı uşaq olan evin qapısının girəcəyinə, ayaqaltısına zəncir vurulur, bir qab suyun içinə yumurta salınır və 40 gün qapının girəcəyində saxlayırlar. Uşağın qırxı çıxan gün yumurtanı axar suya atırlar. Zəncir isə yerindən götürülür. Qırxlı uşağın yanına üzərində qır-qızıl olan adam gəlməməlidir, əks halda uşaq çiləli hesab olunur. Yumurta və ət gətiriləndə də uşaq çölə çıxarılır. Qırx çıxanda vedrəyə 40 ədəd xırda daş və qırx xörək qaşığı su tökülür. Uşaq çimizdirilir, paltarları yuyulur və axırda həmin su uşağın və ananın başından tökülür.

Beləliklə, ana və uşağın qırxı çıxmış olur. Tovuz rayonunda uşaq anadan olandan sonra da müəyyən üsullara əl atırlar. Məsələn, yumurtanı bankanın altına qoyurlar. Uşaqda nəzər olarsa yumurta partlayır, yaxud qaralır. Adətən yumurtanı

“bu canda bu yumurtadır, gəl apar” deyərək küçə qapısına qoyurlar.

Azərbaycanın bütün bölgələrində yeni uşaq dünyaya gətirmiş qadın və körpəsi 40 gün müddətində “qırxlı” hesab olunur. Uşaq qırxlı olanda onun otağına heç kim girmir. Adətən, uşağı görməyə gələn qohumlar bu ziyarəti uşağın qırxı çıxana saxlayırlar. Yaxın adamlar qırxdan əvvəl də gəlirlər. Lakin, onlar uşaq olan otağa keçmirlər. Uşaq onların yanına gətirilir. Əks halda onlar uşağın üstünə çilə tökə bilərlər ki, bu da uşağa ziyan yetirə bilər

Məlumdur ki, çilə sözü “çil”, yəni qırx sözü ilə bağlıdır. Xalq inamına görə 40 gün ərzində uşağın paltarlarını çöldə qoymazlar, axşam üstü, şər qüvvələr toxunar; uşağın 40-na qədər əlini yumaq olmaz ki, yuxusu qaçar; uşağın dırnaqlarını kəsəndə, əlinə pul qoyarlar. Yeni doğulan uşaq 40 gün ərzində adaptasiya olunur. Həm ana, həm də uşağın orqanları ətraf mühitə uyğunlaşır; 40 gün müddətində uşağın yanına adam qoymaq olmaz, evə gələn olanda uşağı hündürdə tuturlar ki, mənfi enerji, gələnin ağırlığı onun üstünə keçməsin, 40 günlüyündə - yəni qırxında uşağın çilləsi çıxır;

Uşağı yatanda tək qoymazlar. Şər qüvvələr insana toxunarlar;

Uşağın göbəyi özü düşməlidir, onu qoparmaq olmaz; Uşağı çimizdirərkən deyirlər:

Ağırlığın-uğurluğun qızlara
Göydəki ulduzlara
Deyingən arvadlara.

Uşağın gözü bulananda gözünə ana südü damızdırırlar.

Ağdam rayonunun Mahrızlı kəndində adətə görə uşağın 10 günü tamam olarkən onu çimizdirirlər. Onun 10-nu tökərkən 10 buğda və ya düyüdən istifadə olunur. 40 gün sonra isə uşağın 40-nı tökürlər.

Uşaq yatanda başının altına bıçaq və ya qayçı, çörək və s. qoyarlar ki, uşaq şərdən uzaq olsun.

Azərbaycanın cənub bölgəsində yeni doğulan uşağın 40-ı çıxan zaman "beşik bağlama" deyilən bir mərasim də keçirilirdi. Bu mərasimin yemək süfrəsinə plov, badımcan pətəsi, toy qatığı, balıq yeməkləri, ləvəngi və s. yeməklər çıxarılırdı. ( 3, s. 20).

Uşaq çiləyə düşəndə ayaqları çarpazlaşır. Onda axan suyun kənarında uşağın ayaqlarını sapla bağlayıb, sonra qayçıyla sapı kəsirlər. Bu 7 dəfə təkrarlanır.

Müəyyən uşaqların qırxı çıxanda saçı qırxılır və saçı ağırlığında uşağın başını qırxana qəpik pul verilir, saçı isə bir salafana qoyurlar evin bir guşəsində saxlanılır. Birinci qırxılan tük murdar sayılır.

Uşağın bir yaşı tamam olduqda isə ana öz toyunda gətirilən kəllə qəndi doğrayır və şirinlik olaraq qonşulara, yaxınlara paylayır.

Azərbaycanın müəyyən bölgələrində adətən körpə bir yaşına yaxınlaşanda onun başını keçəl qırxdırırlar. Bu adətə "murdar tükünü tökmək" deyilir. Saçı tamamilə qırxılan körpənin daha gur saçlarının olacağı gözlənilir. Körpənin tükünün çəkisi qədər pul və ya qızıl dayısı tərəfindən uşağın saçını qırxana hədiyyə verilir. Ana körpəsinin saçını atır və ya xatirə kimi saxlayır.

Böyüklərin yanında körpənin atasının uşağı qucağına alıb oynatması eyib hesab olunur. Xalq arasında belə bir deyim var:

Sancağı, ay sancağı
Su tök yuyum sancağı.
Elə xoşuma gəlir,
Oğlanın utancağı.

Şamaxı rayonunun Ərəbqədim kəndində çoxsaylı ailələr, xüsusilə də 5 uşaqlı ailələr üstünlük təşkil edir. 3 uşaqlı ailələrə az rast gəlinir.

Kənddə bəzən qırxı çıxmamış uşaq vəfat edir. Kənd arasında deyirlər ki, uşağa nəs nəfəs keçmişdir. Zənn edilir ki, uşağı olmayan qadın uşağın yanına gəlmiş, ona pis nəfəsi keçmişdir. Uşağın valideynləri isə bu ölümün alın yazısı və qismət olduğunu qeyd edirlər.

Kəndin əhalisi arasında "sarı" rəngdən demək olar ki, istifadə olunmur. Deməli, rənglərin də düşər-düşməzi olur.

Bəzən "tonqal qalayıb, tonqaldan" atlanmağın da düşərli olub-olmamağı sınanılır. Məsələn, kənd sakini Güləliyev Füzulinin qızı "tonqal üstündən" atılan zaman şikəst olmuş və dili tutulmuşdu.

Adətən uşağın 40-ı çıxmamış spirtli içki içmiş adamların da körpə olan otağa girməyi münasib deyil. Xüsusilə oğlan uşaqlarının böyüdülməsi zamanı onların bəd nəzərlərdən xəstələnməsi barədə daha çox söz açılır. Şamaxı rayonunun Şıxzərli, Qurbançı, Çəyirli kəndlərində oğlan uşaqlarına daha tez nəfis keçməsi və tez xəstələnməsi barədə olan fikrə çox inanırlar.

Körpənin olduğu otağa toyuq, ət, balıq gətirilməsi də uğursuzluq hesab olunur və bunların körpədə hər hansı bir xəstəlik yarada biləcəyi güman edilir.

Eyni zamanda qadınların xüsusi günləri olanda körpənin üstünə getməsi də uğursuzluq hesab olunur. Bu körpənin səhhətində fəsadlar törədə bilər.

Xalq arasında deyirlər ki, qırxı çıxmamış uşağın üstünə ət gətirməzlər; Göz dəyməsin deyə evin hasarından üzərlik, nal asarlar; Körpə uşağın əlinin üstündən öpməzlər, deyirlər kasıb olar. İnama görə beşiyi boş tərpətsən (yüyrələsən) uşaq ölər və s.

Lənkəran rayonunda hesab edirlər ki, yeni dünyaya gəlmiş uşaqla ananın paltarları qaranlıqda asıla bilməz, hava işıqlı ikən onlar yığılmalıdırlar. Çünki onları Şeytan vura bilər. Uşaq dünyaya gətirən qadın tək yatmamalıdır, çünki Şeytan 40 gün onun ətrafında olur və ziyan vermək istəyir. Uşağın çilləsi çıxmadan, heç kim onun olduğu otağa girə bilməz, ancaq uşaq həmin adam olan otağa gətirilə bilər. Çünki gələn adamın üzərində dua ola bilər.

Uşağın doğulmasından 6 gün sonra 6-sı axşam olur. Bu mərasim "beşik-bələk" adlanır. Həmin gün evdə qonaqlıq olur, yeməklər bişirilir. Uşağa ad qoyulur, qulağına Azan oxunur və adı pıçıldanır. Bu zaman uşağın ana tərəf adamları uşağın ehtiyacı olacaq hər şeyi beşikdən tutmuş, oyuncağa qədər hədiyyə gətirməlidirlər. Beşiyi uşağın nənəsinin gətirməsi vacibdir.

Doğulduqdan 10 gün sonra ana və uşaq çimə bilərlər, bu zaman uşaq və ana üçün xüsusi qüsullar deyilir.

Zəngilan rayonu sakinləri belə zənn edirlər ki, körpənin dünyaya gəldiyi gün ananın öz anasının yanında olması məsləhət görülmür. Bu dünyaya körpə gətirən ana üçün uğursuzluq hesab olunur. Ona görə də körpənin doğulduğu yerdən nənəni uzaqlaşdırırlar. Hətta belə bir adəti də qeyd etmək olar ki, körpəni dünyaya gətirən qadının ağrılarını azaltmaq üçün nənə paltarının hər hansı bir hissəsini əli ilə və ya qayçı ilə kəsir. Bu adət sanki tilsimi qırmaq kimi qəbul olunur.

Körpə dünyaya gəldikdən sonra başqa adətlərlə də qarşılaşır.

Azərbaycanın bütün bölgələrində körpə dünyaya gəldikdən dərhal sonra nənə quymaq bişirir.

Bir neçə gün sonra onun göbəyinin düşməsi gözlənilir. Göbək bağı yerə düşdükdən sonra onu natəmiz yerə atmaq uğursuzluq hesab olunur. Adətə görə həmin göbək bağını hansı yerə atsan, məsələn, hər hansı bir iş yerinin, məktəbin, bağın həyətinə basdırsan körpənin gələcəyi bu ərazi ilə sıx bağlı olar. Əsasən bar verən ağacın dibinə basdırırlar. Hətta belə bir ifadə də var. Məsələn, körpə gələcək həyatında hər hansı bir yerə, əraziyə çox bağlı olsa, həmin əraziyə tez-tez getsə, məsələn, internet kluba onda bu cür ifadə işlədirlər: "Elə bil göbəyini internet kluba atıblar". Körpə altı aylıq olanda deyirlər: "Uşağın ilan boğan vaxtıdır". Övlad sevgi ilə vəsf olunur:

Bağımda şirin nə var?
Yeməyə şirin nə var?
Gəzin cümlə-cahanı
Baladan şirin nə var?

El arasında uşaq doğulandan sonra onu qorumaq üçün də bir sıra adətlər var. Məsələn, uşaq anadan olandan sonra da gözlənilən təhlükə uşağın altı günlüyündədir. Belə ki, doğuşun altıncı gününə keçən gecə və 6-cı gün naməlum varlıq gəlib uşağa ziyan verə bilər. Bunun üçün həmin gün evdə qonaqlıq təşkil olunur, çilə üzvləri bir yerə yığışır. Yemək yeyir, birlikdə uşağın keşiyini çəkirlər. Gözəgörünməz varlıq, "şəşə" adlanır. Toplaşanlar yeyib içdikdən sonra yun yumağı hazırlamaq üçün istifadə olunan yun darağının başına əsasən çobanların istifadə etdiyi qoyun dərisindən hazırlanan papaq qoyurlar. Bu rəmzi olaraq "şəşə"  sayılır. Sonra həmin yun darağının yanına üzərinə nehrə yağı çəkilmiş təzə çörək qoyulur. Bunu ona görə edirlər ki, "şəşə" gəlib payını götürüb yesin və uşağa heç bir zərər yetirməsin.

XIX əsrin sony – XX əsrin əvvəllərində ev şəraitində doğularkən uşaqları rahatlayır, sonra "nənni"yə qoyurdular. "Nənni" dördkünc taxtadan hazırlanmış ortası döşənmiş beşik olurdu, evdən asılırdı. Yaxud kəndirlə çarpayının başlarından uşağın yatması üçün xüsusi yer hazırlayırdılar. Uşaq ağlayarkən bu tip yataqda onu yırğalayır, yəni silkələyirdilər. Uşaqlar əsasən beşikdə saxlanılırdı. Analar uşaqları yatırtmaq üçün lay-laylar (laylalar) deyir, uşağı ovundururdular.

Körpənin dünyaya gəlməsinin 10-cu günündə çimizdirirlər. Bu zaman həmin körpənin qulağına "10 tökürəm" ifadəsini pıçıldayırlar. Körpə ilə eyni gündə ananın da yuyunması vacib hesab olunur. Əks halda, bu, körpənin səhhətində fəsadlar törədə bilər.

İlk dəfə uşağı çimizdirərkən anaya kömək lazımdır. Buna görə uşağın nənələri, yaxud nənə həyatda olmayanda qohum və ya qonşulardan biri çağırılır. Uşaq çimizdirilir və qusul verilir Həmin gün ana da çimizdirilir. Bütün bu 10 gün ərzində qadının geyinilən paltarları, yataq dəsti də yuyulmalı və qusul almalıdır. Əgər uşağın səhhətində hansısa problem olarsa, onu 40 günlüyündə çimizdirirlər.

Körpə yuyundurulduqdan sonra müəyyən miqdarda su götürülür, həmin suya 40 ədəd buğda və 40 ədəd düyü əlavə olunur. Ana və uşağın salavatlanaraq bu su ilə yaxalanması hər ikisinin “qırxının tökülməsi” vacib hesab olunur.

Azərbaycanın cənub bölgəsində xalq arasında belə bir etiqad var ki,  təzə doğulmuş uşağın ilk eşitdiyi söz “Allah” sözü olmalıdır. İnama görə bu uşağı şeytanın təsirindən qoruyur, onun düz yoldan azdırılmasının qarşısını alır. Əgər yeni doğulmuş uşağın başında tük yoxdursa ehtiyacı olanlara istənilən məbləğdə sədəqə verilir.

Bəd ruhlardan qorunmaq üçün bütün qırxlı anaların paltarlarına iynə, sancaq taxılır.

Yeni doğulan uşağa baxılması da əsas şərtdir. Məsələn, körpə ağlayarsa, ona əmzik, yaxud da diş qaşıyıcı verilir; onu hərəkət etdirir, ovuşdurur, qarnını yüngül sıxçalayırlar.

Körpəni qarnı üstə yatırdaraq kürəyini sığallayırlar. Əgər sancısı varsa, onu ovuşdurmaq, körpəyə şüyüd suyu vermək rahatlıq gətirir. Ağlayarkən onu qucağa alaraq qaranlıq otağa keçib lay-lay çalaraq sakit edirlər.

Güzgüdə düymə lay-lay,
Tozunu silmə lay-lay.
Xonçada tirmə lay-lay,
Gələr qızımçün lay-lay.

Mahmanal bağı lay-lay,
Yaşıl yarpağı lay-lay.
Qızıl bel bağı lay-lay,
Gələr qızımçün lay-lay.

Nərgizi üzüm lay-lay,
Yaxana düzüm, lay-lay.
Sən böyü, mən qocalım,
Toyunda süzüm, lay-lay.

Atıban tutdum səni,
Əcəb ovutdum səni,
Ömür uddum, cəfa çəkdim
Şükür böyütdüm səni
Balam lay-lay, a lay-lay
Gülüm lay-lay, a lay-lay.

Əsrlər boyu azərbaycanlı analar övladlarının beşiyi başında laylalarla arzularını ifadə etmişlər:

Layla beşiyim, layla,
Evim-eşiyim, layla.
Sən yat, yuxun alginən,
Çəkim keşiyin layla,
Balam layla, a layla.
Gülüm layla, a layla. (4, s. 242)

Allahdan əhdim budu,
Toyunu görüm, bala
Bizim yerlər qalın meşə
Taxtında otur həmişə.

Laylası dərin bala,
Yuxusu şirin bala,
Canım zinhara gəldi,
Sən hasilə çatınca.

Balam, lay-lay a lay-lay
Gülüm, lay-lay, a lay-lay.
Ay sənə qurban alçalar,
Bu balam haçan əl çalar.

Dar-dar üstə,
Mənim balam yol üstə.
Dar-dar eylər,
Mənim balam yol eylər.

Məktəbə gedən uşaqlar
Dayanın balam da gəlsin
Nənəsi kökə bişirmiş
Çantasına qoysun gəlsin.

Örüşdə atlar,
Çöldə göy otlar,
Ərsiz arvadlar.
Bu balama qurban.

Qızıl üzüyün yanı,
Laylay, gözün qurbanı,
Yuxuya get, yoruldum,
Beşiyimin soltanı.

Balam, lay-lay a lay-lay
Gülüm, lay-lay, a lay-lay.
Balama qurban inəklər,
Balam nə vaxt iməklər.

Balama qurban ilanlar,
Bu balam haçan dil anlar.
Balama qurban sərçələr
Bu balam haçan dirçələr.

Dağda darılar,
Sünbülü sarılar,
Qoca qarılar,
Bu balama qurban.

Dağın maralı,
Otu saralı,
Dünyanın malı,
Bu balama qurban.

Göydəki quşlar,
Bu balama qurban,
Yağan yağışlar
Bu balama qurban.
Meşədə qurdlar,
Bu balama qurban... (5, s. 246).

Qız uşaqlarının ovudulmasında istifadə olunan nazlamalar da xalq arasında xüsusi yer tutur.

Əlində var dəf,
Üstündə sədəf,
Bir zərli örpək,
Gələr qızımçün.

Oğlanlar it balası,
Qapıda durar mırıldar.
Qız qızıla dönübdü,
Xəbəri yox oğlanların.

Qız yükü, duz yükü; Qız ki, kəkil çıxardı ver getsin, Qız qala-qala qızıla dönər və sairə.

Yaxud deyirlər:

Altında xalça,
Çalır kamança,
On dənə xonça
Gələr qızımçün (6, s. 243).

İlk nəvənin yorğan-döşəyini qız anası salar. Elə ki, nəvə dünyaya gəldi, nənə düşür əl-ayağa. O ən gözəl ipəkdən ona yorğan-döşək salır, beşik alır. Nəvəni görməyə "qırx" çıxdıqdan sonra gedirlər. Gəlinin ata-anası, bacısı, qardaşı, gəlinləri yığışıb gəlirlər. Körpəyə paltar alırlar. Bu şeylərin hamısını qırmızı lentlə bağlayırlar. Körpəni görəndə isə hamı qundağına nəmər qoyur. (7, s. 49)

Xalq arasında nəvələrlə bağlı belə bir bayatı da var:

Əzizim, lalasına
Bu dağın talasına
Əzəl balama qurban,
Sonra da balasına. (8, s. 41)

Göründüyü kimi, xalqımızın icra etdikləri və indi də əhalinin yaddaşında iz qoyan yeni doğulmuş uşaqla əlaqədar 40 gün ərzində icra olunan adətlərdə əsas məqsəd ananı və övladını göz bəbəyi kimi qorumaq olmuşdur.

## 1.4. Ad qoydu mərasimi

Azərbaycanlı ailələrdə ən mühüm adətlərdən biri də uşağa ad qoyma mərasimidir.

Nəsrəddin Tusi yazır ki, uşaq olcaq ilk növbədə ona yaxşı bir ad qoymaq lazımdır. Namünasib ad qoysalar, bütün ömrü boyu bundan dilxor olar, qanı qaralar. (1, s. 22)

Hələ e.ə. IV-III minilliklərdə yazı ənənəsinə malik olan xalqlarda hər ad o kəsin şəxsi adı olmaqla yanaşı bir növ sənədləşdirməyə xidmət edirdi.

Hələ min illər bundan öncə "Odisseya"da deyilirdi ki, adamlar arasında heç kim adsız ola bilməz. Belə ki, insanı tanıdan onun adıdır.

Adların tarixi baxımdan öyrənilməsində "Dədə Qorqud" boylarının müstəsna əhəmiyyəti var. Burada təsvir edilən hadisələr oğuzların taleyində dönüş dövrünə aiddir. Onların hər birisi sadədir, mənası bu gün də asan anlaşılır. Arşın oğlu Dirək, Banıçiçək, Qazan, Dəli Domrul...

Oğuzların məişətindən çox maraqlı bir qayda hələ də davam edir. Dədə Qorqud ərsəyə yetmiş oğlan uşağına əməlinə görə yeni ad verir. Ata-ana verən ilk ad unudulur, igid qazandığı adla tanınır. Dastanda buğaya qalib gəlmiş gəncə Buğac adı verildiyini görürük (2, s. 278)..

Dədəm Qorqud uşaq adın anıb alqışını söylər:
Evinizdən uşaq səsi gəlsin!
Baba həniri, nənə səmiri uğurunuza tuş olsun!
Elinizdən, obanızdan uşaq səsi əskik olmasın!

Dədə Qorqud boylarında deyilir ki, oğul atanın yetiridir, iki gözünün biridir.

Baba oğul qazanır ad üçün.

Oğul da qılınc qurşanır baba qeyrəti üçün.

Qorqud ata oğula, uşağa sevgini beləcə söyləmiş:

Qara dağım yüksəyi, oğul!

Qanlı suyum daşqını, oğul! və s. (3, s. 138)

Qədimlərdə dilimizdə "oğul" kəlməsi uşaq mənasında işlənmişdir.

Elimiz "ala gözlü bəbəklər", "görən gözüm ulduzu", "gözümün aydını oğul", "ağzın üçün ölüm oğul, dilin üçün ölüm oğul", "duz çörəyim bala", "oğul ürək, qız dirək", "oğul düşmən toxmağıdır" – deyə uşaqları anmış, onları baldan şirin sanmışlar.

Xalq dastanlarından olan "Koroğlu"da Qoç Koroğlu əlində üçtelli saz insanın ömrünü, dünyanın gəldi-gedərini loğmansayaq öyəndə, çağ-çağ biləndə üçdən başlayıb səksənə yetmişdir:

Üç yaşından beş yaşına varanda
Yenicə açılan gülə bənzərsən.
Beş yaşından on yaşıbna girəndə
Arıdan sancılmış bala bənzərsən.

On dördündə sevda yetər başına,
On beşində yazan girər duşuna,
Çünki yetdin iyirmi dörd yaşına
Boz, bulanıq axan selə bənzərsən.

Otuzunda kəklik kimi səkərsən,
İgidlik eləyib qanlar tökərsən,
Qırxında sən əl haramdan çəkərsən,
Sonası ovlanmış gölə bənzərsən.

Əllisində əlif qəddin çəkilir,
Altmışında ön dişlərin tökülür,
Yetmişində qəddin, belin bükülür,
Karvanı kəsilmiş yola bənzərsən.

Səksənində sinir yenər dizinə,
Doxsanında qubar qonar gözünə,
Koroğlu der, elə yetdin yüzünə,
Uca dağ başında kola bənzərsən. (4, s. 139)

Qədim latınlar insanın adını onun özünə bərabər tutmuş, “Homen nomen” demişlər. Ada belə münasibət elə bizim də bir sıra xalq ifadələrimizdə təzahür edir: “İgid ölər, adı qalar”, “adamın adı çıxmaqdansa, canı çıxsa yaxşıdır”, “adını bədnam eləmə” və s. Bütün bu ifadələrdə ad, göründüyü kimi, san, nüfuz, reputasiyadır. Tanınmış adama “adlı-sanlı”, bir pis əməl haqqında “heç adına-şəninə yaraşmır” deyilməsi də, şübhəsiz, təsadüfi deyil.

Şəxs adlarının tədqiqi – antroponimika – son illər dilçiliklə xüsusi isimləri öyrənən onomastikanın müstəqil sahəsinə çevrilmişdir.

Adların necə törəndiyini təsəvvür etmək çətin deyil. İlk insan qrupları və ailə yaranandan, formalaşandan, əlbəttə, adlar da meydana gəlib. Tayfa, nəsil, yaxud ailə içində adamla-

rın sayı artdıqca onları fərqləndirmək, fərdiləşdirmək lazım gəlirdi. Adlar məhz bu tələbi ödəmək üçün törənmişdir.

İlk adlar, əlbəttə, son dərəcə sadə, bəsit olmuşdur. Uşaq dünyaya gələndə ata-ananın nəzərini nə cəlb edibsə, elə onu da övladına ad seçib. Duman, Bulud, Tufan, Budaq, Dəmir, Qaya, Qaryağdı...

Uşağın zahiri əlamətləri də mühüm rol oynayıb. Sarı, Qara, Uzun, Alagöz, Ağca, Telli, Qaraqaş və s. (5, s. 277)

Adqoymanın xronoloji çərçivəsində hamiləlikdən əvvəl, hamiləlik dövrü, doğuş baş verən kimi və yaxud müəyyən vaxt keçəndən sonrakı dövr uşağa ad seçərkən biz əmin oluruq ki, insan sanki adının sahibi olur, körpənin isə ilk dəfə adı ilə çağırılması doğum adətinin mühüm hissəsidir. Adqoyma ənənələri müxtəlif mədəniyyət daşıyıcıları tərəfindən hələ uşaqlıq dövründə onlar adların sehrli magik xüsusiyyətləri ilə və adla əlaqəsi olan əsas məqamlarla tanış olur. Adın insanın həyatının tərkib hissəsi olması və adsız insanın bütöv adam olmaması, onu təhlükəyə aparması ilə bağlı qalıqlar bu günədək qalmaqdadır. (6, s. 24)

Uşağa ad verərkən ailə yalnız onu deyil özünü də mədəni kontekstə daxil edir, orada arzu olunan yer axtarır, körpəyə hansı adın qoyulması və bu seçimin motivirovkası müxtəlif səviyyədə - milli, sosial və mədəni özünüidentifikasiya ailə haqqında fikir deyiləcək, özünüidentifikasiya isə bir çox hallarda cəmiyyət (sosium) tərəfindən identifikasiyanı müəyyən edir.

Söhbətlərdən irəli gəlir ki, ad qoymanın mühümlüyünü nəzərə alaraq ad həmişə insanın atanın ilkin olduğu haqqında mifoloji təsəvvürləri qoruyub saxlayır. (7, s. 23)

Müasir dövrdə uşaqları doğum evlərindən "satın almaq" kimi formalaşan yeni adət uşaqların sosiallaşmasını əsaslandırır. Uşaqların valideynləri zənn edirlər ki, tibb işçilərinə bu münasibət doğumu asanlaşdırır, yeni sakinlərin – uşağın və qadının yeni statusunu – ana olmağını formalaşdırır, həmçinin onların sosial və mədəni həyatlarında yeni başlanğıcın əsasını qoyur (8, s. 18).

Adətən, uşağa yeddi və ya qırx gündən sonra ad qoyulur. Həmin gün uşağın ən yaxın qadın qohumları bir yerə yığışır. Uşaq ruzulu olsun deyə, süfrə salınır. Süfrəyə ləziz yeməklər - plov, südçörəyi, şorqoğalı düzürlər. Əgər uşağa ölən qohıımlarından birinin adı qoyulursa, halva da çalınır və halallıq olsun deyə, ölənin adına quran tapşırılır.

Uzun müddət uşağı olmayanlar həmin gün qurban kəsir, yeddi qonşuya paylayır, yaxın adamlara xələt verirlər.

Adətən uşağa evin yaxın adamı ad qoyur. Həmin adama xələt verilir. O, uşağın qulağına "kəlmeyi-şəhadət" oxuyur, sonra adını deyir. Daha sonra isə "al uşağı, ver uşağı, tanrı saxlasın bu uşağı" deyərək uşağı yanındakı adama verir, həmin sözlərin təkrarı altında uşaq bütün məclisi gəzdirilir. Uşağa göz dəyməsin deyə papağına gözmuncuğu tikilir. Qız uşağının qulağına sırğa taxırlar. Sırğanı salan adama xələt verilir.

Adətən birinci uşağın adını atası və ya atasının yaxın qohumları verir. Hər iki nənəsi uşağa hədiyyə verir.

Uşağa qoyulan adı heç kəs dəyişə bilməz. Ad verildikdən sonra hamı körpəni qucağına götürüb xeyir-dua verir, "Adı ilə böyüsün", "Böyük oğlan olsun", və ya "Böyük qız olsun", "Toyunu görək" və s. bu kimi sözlər deyib, körpəni anasına verirlər. Sonra süfrəyə şərbət gəlir. Ən ləziz yeməklər stola düzülür. Hamı çalıb oynayır, şadyanalıq edir. Lakin bir qayda olaraq imkanlı ziyalı ailələrdə iri sini qablarında uşağın doğum günü həkk edilərdi. Dindar ailələrdə Quranın son üz cildinin forzesində yuxarıdan doğum tarixi aydın xətlə yazılırdı.

İnqilabdan qabaq uşaqların doğulma tarixi adətən rəsmi şəkildə qeyd edilməzdi. İndi isə uşaq dogulandan bir-iki gün sonra VVAQ şöbəsinə müraciət edilir. Uşaq üçün yaş kağızı yazılır. Bu kağız rəsmi sənəddir. Bu sənəddə uşağın adı, soyadı, atasının adı, doğulduğu il, ay və gün, doğulduğu yer, milliyyəti dəqiq göstəilir. Eləcə də ata və anasının adı, soyadı, atasının adı göstərilir.

Beləliklə də, uşaq həmin gündən qoyulan adla çağrılır. Azərbaycan xalqı içərisində adqoymanın müxtəlif mərasimləri və formaları vardır. Uşağa göstərdiyi igidliyə görə ad qoyardılar. Onu bəd ruhlardaıı qorumaq üçün ad qoyardılar, uşağa igid babanın, atanın adını verərdilər və s. Beləliklə, hər bir adqoymanın özünəməxsus ayini, etiqadı və mərasim şənliyi keçirilərdi. (9, s. 75)

Bir çox ailələrdə uşağa münasib ad müəyyən edəndə mədəni ictimai həyatda uşağın özünə arzu olunacaq yer tutacağını zənn edirlər. Çünki bu ad uşağın gələcək ailəsinin müxtəlif sosial, milli və mədəni özünüdərk etməsi sahəsində

seçimində əsaslı yer tutur. Azərbaycanlı ailələrdə "Uşağa ad qoydu" mərasimini icra edərkən bir çox adətlər yada salınır. Abşeron və Quba-Xaçmaz bölgələrində adqoyma mərasimi "şəbbə-xeyir" adı kimi keçirilir.

Bakı şəhərində uşaqlara "ad qoydu - şəppə xeyir" mərasimi keçirilərkən onlara ad verirlər. Məclisə molla dəvət olunur.

Uşağa vəfat etmiş şəxsin adı qoyularkən Quran oxutdurulur. (Quran tapşırılır), fatihə oxunur. Molla uşağı qucağına alır, uşağın adı əvvəl sağ qulağına, sonra sol qulağına deyilir. Molla uşağa suallar verir, eyni zamanda uşağın dilindən suallara cavab verir.

| | |
|---|---|
| Başındakı nədir? | Tacu dövlət. |
| Qaşındakı nədir? | Qələmi qüdrət. |
| Gözündəki nədir? | Nuri Məhəmməd. |
| Burnundakı nədir? | Müşkeyi ənbər. |
| Üzündəki nədir? | Pərdeyi ismət. |
| Ağzındakı nədir? | Kəlmeyi-şəhadət. |
| Əlindəki nədir? | Xeyir bərəkət. |
| Ayağındakı nədir? | Nəsibi qismət. |
| Kimin bəndəsisən? | Allah bəndəsi. |
| Kimin hünbətisən? | Məhəmməd hünbəti. |
| Kimin dinindəsən? | İslam dinindən. |
| Kimin qulusan? | Əli quluyam. |
| Nə vaxtdan müsəlmansan? | Qali bəladan, yəni dünya yaranandan. |
| Müsəlmanlığa şəkkin var? | Uşaq: Şahidim var. |
| Başındakı böyüyün kimdir? | Allahdır. |

Sonra molla “Kəlmeyi şəhadəti”, “Kəlmeyi teyyubəni”, “Üsuli dini”, “Firuri dini” deyir. 12 imamın adı uşağın qulağına deyilir. Beləliklə, uşaq müsəlman olur. Xeyir-dua verilir.

“Alın bu uşağı, verin bu uşağı” – deyərək məclisdəkilər uşağı bir-birlərinə verirlər.

Qubalıların adət-ənənələrini tədqiq edən Əhməd Çələbizadə yazır ki, ənənəvi olaraq uşaq doğulduğu gündən on gün keçdikdən sonra mama onu çimizdirir və qundaqlayıb qucağına alır. Sağ qulağına Əzan, sol qulağına Qamət oxuyub, qoyulacaq adı deyilir qulağına, uşağın məclisinə gələn hər bir şəxs təbrik edir: “adı ilə qarısın, Allah mübarək eyləsin”.

“Ad günü” plov bişirilir. Yemək bişdikdən sonra, mama üçün xonça hazırlanır. Xonçaya xalat, qənd, çay, parça, xına, sabun, corab, yaylıq qoyurlar. Hazırlanmış xonça böyük bir ehtiram ilə mamaya təqdim olunur. Bu əsnada məclisə toplanmış qohum əqrəba mamanın qarşısına qoyulmuş xonçaya yenidən para əlavə edirlər. (10, s. 24)

Uşağa ad vermək böyük nənələrə həvalə olunur. Eyni zamanda ad üçün mollalara da müraciət edirlər. Molla kitab açaraq kitabdan münasib bir ad seçir.

Nəsil adlarından yeni doğulan uşağa verilməsi el arasında geniş yayılmışdır. Məsələn: “Atamın adı torpaqda qalmasın” deyə uşağa öz ata və anasının adını qoyurlar, əgər uşaq yeni adı aldıqdan sonra xəstəliyə düçar olarsa əvvəlki adını dəyişərək yenisini qoyurlar

Bundan əlavə müsəlmanlara əvvəl ərəb dilində əbd-qul sözündən başlayan və Allahın 99 adlarından biri ilə qurtaran adların verilməsi də tövsiyə olunur. Məsələn, Abdullah

(Allahın qulu), Əbdürrəhman – Əbdülkərim, Əbdülrəhim və b. Xalq arasında deyirlər, əgər hansı evdə Məhəmməd adlı şəxs varsa, orada ruzu və xoşbəxtlik olacaq.

Uşağın doğulmasının 7-ci günü isə qurban kəsilir kasıb, xəstə, ehtiyacı olanlar arasında paylanılır.

Şiyə imamlarına pərəstiş adların "qul" sözündən törəyən "qulu" komponentini yaradıb. Allahqulu və Məhəmmədqulu adları istisna olmaqla, "qulu" ilə bitən bütün adlar bu və ya digər şəkildə şiyə imamlarına pərəstişlə əlaqədardır. İmamqulu, Əliqulu, Həsənqulu, Hüseynqulu, Rzaqulu, Cəfərqulu, Mehdiqulu və s.

İlk orta əsrlərdən başlayaraq Azərbaycan antroponimikasında mühüm dəyişikliklər baş vermiş, İslam dini məişətimizə xeyli ərəb adları gətirmişdir.

Məsələn, Əli – "yüksək", Həsən – "gözəl", Əminə - "sakit", Səkinə - "yaşayan", Xədicə - "vaxtından qabaq doğulmuş" deməkdir. Bu qəbildən olan adlar, bir qayda olaraq, morfoloji baxımdan sadə, tarixən İslamdan qədimdir. Məişətimizə ona görə daxil olublar ki, bu adı daşıyan tarixi şəxsiyyətlər İslam aləmində məşhur din xadimi olublar.

İkinci qrupa daxil olan adlar indi qocalsalar da, birinci qrupa nisbətən cavandır. Onların yaranması İslamın Şərq ölkələrində bərqərar olub, hakim kəsilməsi dövrünə təsadüf edir. Bu adların çoxusu "allah" və "etiqad" bildirən "ulla" və "əddin" komponentləri ilə bitir: Seyfulla və Seyfəddin, Nurulla və Nurəddin...

Məişətimizə İslam dini ilə daxil olan adlar içərisində Məhəmməd və onunla həmkök olan Əhməd, Mahmud, Həmid xüsusi yer tutur (11, s. 280-282).

Azərbaycanda "ad bağışlama" da milli-məişətimizdə özünəməxsus yer tutur. Məişətimizdə "adı ilə böyüsün" ifadəsi xoş arzu kimi, "adın qalsın" ifadəsi isə uşağa qarğış kimi səslənir.

Ailələrdə uşaqlar üçün oxunan laylalar və oxşamalar əsrlərin yaddaşına söykənən xalq deyimlərinə əsaslanır. Anaların layla səsi körpələrin gözünü açıb, onları boy-boy artırıb:

Lay-lay beşiyim lay-lay,
Evim-eşiyim lay-lay.
Sən get şirin yuxuya,
Çəkim keşiyin lay-lay.

Lay-lay əməyim bala,
Duzum-çörəyim bala.
Gözləyirəm yekələsən
Görüm köməyin bala.

Lay-lay dedim gündə mən,
Kölgədə sən, gündə mən.
İldə bir qurban olar
Sənə qurban gündə mən.

Lay-lay dedim həmişə
Karvan gedər enişə.
Yastığında gül bitsin,
Döşəyində bənövşə.

Bu laylalarda böyüyən uşaqlar sanki valideyn nəvazişini, "gül-çiçək ətrini", ata-ana məhəbbətinin ülviliyini beşikdə ikən duyurlar.

Psixoloqlar müəyyən etmişlər ki, uşağın anadan olduğu andan 1 yaşınadək olan vaxt çağalıq dövrü, 1 yaşdan 3 yaşadək körpəlik dövrü, 3 yaşdan 6 yaşadək məktəbəqədər yaş dövrü, 6 yaşdan 10 yaşadək ibtidai məktəb yaş dövrü, 10-15

yaş arası yeniyetməlik yaş dövrü, 15-30 yaş arası gənclik dövrünü davam edir.

Bir yaşında, yəni çağalıqdan erkən uşaqlığa keçid dövründə uşaq aktiv olaraq iməkləməyə, yeriməyə, ətraf aləmi öyrənməyə başlayır.

N.Gəncəvi uşaqların yaş fərqlərini, onların yaş xüsusiyyətləri ilə izah edir və oğlu Məhəmmədə ithaf edərək yazır:

Sən, ey 14 yaşlım, hər elmə yetkin!
Gözündə əksi var iki aləmin!
Yeddi yaşar oldun o zaman ki, sən,
Açıldın gül kimi, güləndə çəmən.
İndi ki, çatmışdır yaşın on dördə
Başın sərv kimi durar göylərdə. (12, s. 264)

İnkişafın yaş dövrlərinə həsr edilmiş Beynəlxalq simpoziumlardan birində insanın inkişaf dövrlərini aşağıdakı yaş bölgüsü əsasında təsnif etmək qəbul olunmuşdur:

| | |
|---|---|
| Yeni doğulmuş uşaq | 1-10 günlük |
| Südəmər uşaq | 10 günlükdən 1 yaşa qədər |
| Erkən uşaqlıq | 1-2 yaş |
| Uşaqlığın ilk dövrü | 3-7 yaş |
| Uşaqlığın 2-ci dövrü | 8-12 yaş oğlan |
| | 8-11 yaş qız |
| Yeniyetməlik yaşı | 13-16 yaş kişi |
| | 12-15 yaş qadın |
| Gənclik yaşı | 17-21 yaş kişi |
| | 16-20 yaş qadın |
| Orta yaş | |
| I dövr | 17-21 yaş kişi |

| | |
|---|---|
| | 16-20 yaş qadın |
| II dövr | 36-60 yaş kişi |
| | 36-55 yaş qadın |
| Yaşlı adamlar | 61-75 yaş kişi |
| | 55-75 yaş qadın |
| Qocalıq dövrü | 75-90 yaş hər iki cins üçün |
| Uzun ömürlülər | 90 yaşdan yuxarıdı (13, s. 44). |

Yaş psixologiyasının aşağıdakı bölmələri var: uşaq psixologiyası, yeniyetmə psixologiyası, gənclik psixologiyası, yaşlı adam psixologiyası gerontop psixologiya. Yaş psixologiyası XX əsrin ortalarında formalaşsa da, onun ayrı-ayrı problemləri, əsasən uşaq psixologiyası aspektində bu və ya digər dərəcədə qədim dövrlərdən öyrənilmişdir. Yaş, orqanizmin genetik amillərlə şərtlənən bioloji yetişmə mərhələsi və şəxsiyyətin sosial-psixoloji inkişafının konkret nəticəsidir. Buna görə də yaş psixologiyası yalnız psixikanın yaş xüsusiyyətlərini öyrənməklə kifayətlənməyib, müxtəlif yaş dövrlərində şəxsiyyətin inkişafını şərtləndirən amilləri də təhlil edir. Yaş psixologiyası pedaqoji psixologiya ilə sıx bağlıdır. Yaş psixologiyasında müxtəlif üsullardan (müşahidə, eksperiment, fəaliyyət məhsullarının təhlili, testlər və s.) geniş istifadə olunur.

Yaş fiziologiyası isə ontogenezdə orqanizmin fizioloji funksiyalarının qanuna uyğunluqlarını öyrənir və dövrləşmə qeyd etdiyimiz kimidir:

a) Yetkinlik dövrü – I dövr (22-35 yaşlı kişilər, 21-35 yaşlı qadınlar); II dövr (36-60 yaş kişilər, 36-55 yaşlı qadınlar).

b) Yaşlı dövr – 61 -74 yaşlı kişilər, 56-74 yaşlı qadınlar)
c) Qocalıq dövrü – 75-90 yaş.
d) Uzunömürlülük – 90 yaşdan yuxarı (14, s. 94-95).

İntellektual inkişaf – psixi proseslərin ibtidai formasından (filogenezdə) ali təfəkkür formaların, sadə idrak əməliyyatlarından (ontogenezdə) isə ali formalarının təşəkkülü prosesidir.

Hər yaş mərhələsində təfəkkür özünün müəyyən inkişaf səviyyəsi ilə səciyyələnir. İntellektual inkişaf analiz-sintez və müqayisənin təşəkkülü əsas rol oynayır. Həmin əməliyyatların köməyi ilə insan cisimlə hadisələrin mahiyyətinə nüfuz edir, öz rəftar və davranışını şəraitin tələbinə uyğun qura bilir (15, s. 471).

İntuisiya, duyum (lat. intueri, intuitio – görmə, diqqətlə baxma) insanın xüsusi məntiqi mühakiməyə əl atmadan həqiqəti bilavasitə duymaq, naməlum hadisələrin mahiyyətinə nüfuz etmək qabiliyyətidir (16, s. 477).

Göründüyü kimi, müxtəlif yaş dövrlərində uşaqlarda duyum, görmə, məntiqi mühakimə, təfəkkür və digəri inkişaf edir, sonrakı yaş dövrlərində isə bu proseslər davam edir.

Azərbaycanın müxtəlif bölgələrində uşaqlarla bağlı müxtəlif xalq deyimləri və bayatıları var. Məsələn, Qubadlı rayonunda xalq arasında deyirlər: Yığıldı xala, bibi, mama Allah-allahnan gəldim dünyaya. Tutdular məməyə, basdılar lay-laya, 3 yaşında oldum bir vazeh göyçək. Dedilər əgər qoysa qızılca çiçək. 5 yaşında çıxdım qapı-bacaya şirin gəl-

dim ataya-anaya, 7 yaşında getdim məktəbxanaya Quranı oxudum, kitabı keçdim.

12 yaşında vacibata yetişdim
15 yaşda mən də oldum bir oğlan,
Oturduğum-durduğum oldu qan
20 yaşda gözüm düşdü gözələ
Ya Yusifə bənzər, ya Züleyxaya
30 yaşında qayıtmışam töbaya
40 yaşda nəsihət verdim özgəyə
50 yaşda basıldı çəpərim, döndü səhraya
60 yaşda yığıldı nəvəm, nəticəm,
Dedilər: "Bax-bax. Bu dəngəsər qocaya"
70 yaşda oğul naqis çıxdı, gəlin bəd oldu.
80 yaşım tamam oldu, ağardı başım
Fürsət vermədi mən halallaşım
Yükləyin səməndə dusəri-paya
O, naki zaminə yetirdi məni
Gəldi Əzirayil oldu dilim lal
Gürzə vurdu töküldü odlar
Böyürdən çıxdı bir cüt Şahsuvar
Dedi: Dəymə, dəymə haqqı bəndəyə
Ay ağalar gör nə yaman iş oldu,
Qabağımız qıl körpüyə tuş oldu
Kimi oda düşdü, kimi suya.
Günahkar bəndələr ucundan tutdu,
Məhəmməd Hümbətin oddan çıxartdı,
Onda bağışlandıq o Kərbəlaya.

Goranboy rayonunun Səfikürd kəndində yaşlı sakinlər Gövhər İbrahim qızının, Cabbar Abbasovun və Camal Ələsgərovun sözlərinə əsaslanaraq bir xalq deyimini də nəzərə çatdırırıq:

10 oldu oğul oldum
20 oldu igid oldum
30 oldu qırıq oldum
60 oldu atılmış oldum
70 oldu yetim oldum
80 oldu səksənmiş oldum
90 oldu donqar oldum
100 oldu qəbirdə düz oldum

Göründüyü kimi xalq arasında "ad qoydu"dan sonrakı insan uğradığı hala,vəziyyətə uyğun təsvir olunub. Müxtəlif yaş xüsusiyyətlərinə uyğun nəzərə çarpan vəziyyəti bu deyimlərdə əksini tapıb.

***

Uşağa ad seçərkən üstünlüyü doğmalara vermək lazımdır. Lakin, "özgə dildən gəlir" – deyərək üz çevirməyə dəyməz. Antroponimikamızdakı adlardan yaxşıları saxlamaq əsas şərtdir. Doğma mənşəli, müasir ruhlu adların övladlara verilməsi mütləqdir. (17, s. 293)

Adətən uşaqlara ad verilərkən, nəsli adlar, dini adlar, gül, müharibə qəhrəmanlarının adları, müasir adlar qloballaşma şəraitində mövcud ailələrin uşaqlarının adlarında səslənir.

Uşaqlara ad verilərkən Şərq və Qərb mənşəli adlara, müharibə və əmək qəhrəmanlarının, görkəmli şəxsiyyətlərin

bədii əsər qəhrəmanlarının və digərlərinin adlarına da müraciət olunur.

XX əsrin 20-90-cı illərində Azərbaycanda sovet hakimiyyətinin qurulması ad yaradıcılığına müəyyən təsir göstərmişdir. Sovet, Şura, İttifaq, İnqilab, Qələbə, Kolxoz, Kombayn, Traktor, Şöhrət, Orden, Medal, Rəhbər, Vəzifə, Mərkəz və s. adlar sosializm sisteminin qərarlaşmasının nəticəsində təşəkkül tapmışdır. Eyni zamanda, bir çox xarici adlar – Marks, Engels, Telman, Albert, Mariya, Tanya, Roza və s. leksikonumuza daxil olmuşdur. Sovet hakimiyyətinin qurulması ilə milli-mənəvi dəyərlərimizin, eləcə də irsi sayılan ad və soyadların dəyişdirilməsi kampaniyasına başlanıldı, "köhnəlmiş adlar"a qadağa qoyuldu. 1925-30-cu illərdə SSRİ vətəndaşlarına familiyalarını sərbəst dəyişdirmə hüququ verilmişdi (18, s. 61).

Onu da qeyd edə bilərik ki, Azərbaycanda XX əsrdə istifadədə olan adları məzmununa görə aşağıdakı kimi qruplaşdırmaq olar:

- Metal adlarından götürülən isimlər: Qızıl, Gümüş, Polad, Dəmir və s.;
- Daş-qaş adlarından alınan isimlər: Almaz, Brilyant, Yaqut, Firuzə, Zümrüd, Mirvari, Sədəf, İnci, Cəvahir və s.;
- Vaxt bildirən adlar: Saat, Saniyə, Asudə, Zaman, İllər və s.;
- Səma cisimləri ilə bağlı adlar: Günəş, Ulduz, Ülkər, Zöhrə, Səma, Qəmər, Şəms, Bulud, Hava, Aynur və s.;
- Təbiət hadisələri ilə bağlı adlar: Ayaz, Tufan, İldırım, Boran, Gündüz, Rüzgar və s.;

- Şəhər və ölkə adlarından alınan isimlər: Təbriz, Tehran, Gəncə, Quba (həm də ağ rəng mənasında), Nəcəf, Tiflis, Qahirə, Afina, Şirvan, Misir, Ellada və s.;

- Dağ adlarından yaranan isimlər: Altay, Savalan, Qoşqar, Qafqaz, Elbrus, Kazbek, Himalay və s.;

- Hidronimlərlə bağlı olan adlar: Araz, Xəzər, Vələş və s.;

- Heyvan adlarından götürülən isimlər: Aslan, Şirzad, Bəbir, Maral, Ceyran, Şahmar, Yelmar və s.;

- Meyvə və bitki adlarından götürülən isimlər: Gilas, Xurma, Şamama, Lumu, Gilənar, Heyva, Püstə, Badam, Alma, İnnab, Sünbül, Arpa, Nanə, Reyhan, Mixək, Darçın və s.;

- Nəbatət aləmindən gələn adlar: Qönçə, Nərgiz, Lalə, Yasəmən, Qızılgül, Bənövşə, Qərənfil, Sarıgül, Nilufər, Növrəstə, Şükufə və s.;

- Quş adlarından götürülən isimlər: Tərlan, Şahin, Kəklik, İsaq, Səməndər, Durna, Tovuz, Bülbül, Göyərçin, Turac, Sona və s.;

- Şirniyyat mənasını verən adlar: Şəkər, Nabat, Şərbət, Şirin, Ballı, Qəndab, Noğul və s.;

- İnsanın zahiri görünüşünü əks etdirən adlar: Gözəl, Göyçək, Qəşəng, Qamət, Qaragöz, Alagöz, Göygöz, Şəhla, Qaratel və s.;

- Bayram mərasimləri ilə əlaqəli adlar: Novruz, Bayram, Səməni, Mövlud və s.;

- Rəng bildirən isimlər: Bəyaz, Qara, Əsmər, Sarı, Narınc və s.;

- Hicri və miladi təqvimdə olan aylardan alınan isimlər: Məhərrəm, Şaban, Ramazan, Səfər, Zilhiccə, Sentyabr, Oktyabr, Yanvar və s.;
- Peyğəmbər adları: Məhəmməd, İbrahim, Yunus, Süleyman, Cəbrayıl, Zəkəriyyə, Xıdır, Nuhi və s.;
- İmamlar və din xadimlərinin adları: Əli, Hüseyn, Həsən, Xədisə, İsmayıl, Əkbər, Osman və s.;
- Dini adlar: İslam, Namaz, Nəzir, Ziyarət, Ələmdar, Allahverdi, Xudaqulu, Oruc, Amin və s.;
- Etnonim bildirən adlar: Əfqan, Talış, Ləzgi, Çərkəz, Alman, İngilis və s.;
- Hərb sahəsində istifadə edilən terminlərlə bağlı adlar: Əmir, Bahadır, Zabit, Əsgər, Alay, Qoşun, Fərman və s.;
- Sosial status bildirən adlar: Şahzadə, Vəzir, Vəkil, Xan, Paşa, Ağa, Bəy, Banu, Xanım və s.

Azərbaycan adlarının təhlili onu göstərir ki, əsrlər boyu xalqın təfəkkür süzgəcindən keçən geniş yayılan ictimailəşən adlar müxtəlif məna və məzmuna malikdir.(19, s. 203-204).

Bəzən ailələrdə ənənəyə əsasən uşaqlara iki ad - yəni biri rəsmi, digəri isə ailədaxili ad qoyulur. Belə ki, Azərbaycanın bölgələrində ailədaxili müşahidələr təsdiq edir ki, müəyyən ailələrdə uşaq ailədə iki adla çağırılır. Biri doğum şəhadətnaməsindəki ad, digəri isə uşağın müəyyən xüsusiyyətlərinə və səbəblərə görə ailədaxili verilən ad və s.

Mövhumi təsəvvürlərin digər bir göstəricisi də məişətimizdə bəzən alçaldıcı adların – Dilənçi, Yetim, Yolçu və s. verilməsidir. Elə güman edirlər ki, adı "yazıq" olana göz dəyməz, dərd-bəla ondan kənar gəzər (20, s. 279).

XX əsrin 90-cı illərindən başlayaraq adqoymada yeni ənənələr formalaşmağa başladı. Yəni Müstəqil Azərbaycan Respublikasında ənənəvi, müasir, qloballaşma prosesi ilə səsləşən adların yer alması hadisəsi çoxaldı.

# II FƏSİL

# UŞAQLARIN HƏYAT TƏRZİ

## 2.1. Uşaqların həyatlarının ilk illəri ilə bağlı icra olunan adətlər

Yeni anadan olmuş uşaq böyüdükcə müəyyən adətlər onu müşayiət edir. Məqsəd bu mərhələlərdə uşağı qorumaq, sağlamlığını hifz etməkdir. Məsələn, uşaqları bədnəzərdən qorumaq üçün insanlar ta qədimdən müəyyən türkəçarə vasitələrə əl atmış, indi də atırlar.

Uşağı bədnəzərdən qorumaq üçün beşiyə qaratikan və ya üzərlik bağlayırlar. Üzərlik yandırılır, külünü barmaqla əzir və uşağın alnına sürtürlər. Yaxud it tükünü gözmuncuğu ilə bir yerdə parçaya bükülərək möhkəm tikirlər. Sonra uşağın çiyin hissəsindən asırlar. Bununla da inanırlar ki, balaca bədnəzərdən qorunmuş olur.

Uşaq qızılca çıxaranda evdə hər yana qırmızı sərirlər, üstündən isə qızıl asırlar.

Xalq arasında uşaqla bağlı deyimlər də mövcuddur: Bu günkü uşaq – sabahın qoçasıdır. Evin yaraşığı uşaqdır, süfrənin yaraşığı qonaq . Bala bağır ətidir və s. (1, s. 83-84)

Məclisdə gözdəyməsi zənn edilən zaman məclisdəkilərin əsaslarının adını çəkərək, pambığı uşağın boynuna, boğazına, üzünə sürtür və üzərliklə yandırılır. Bununla gözdəymə qaytarılır. Xalq arasında vurma-calma da bu qəbildəndir.

Bəzən uşağın çöpü qalır. Onda dini möhürü qaşıyır, suya tökür, uşağa verirlər. İnama görə bundan sonra çöpü qalmır. Bakının Buzovna kəndində uşağın bir yaşı tamam olanda əriştə aşını bişirib, qonşulara paylayırlar. Bəzən isə uşağa nəzir deyirlər. Məsələn, xəlcə və s. Sonra xəlcəni müqəddəslərin, məsələn Rəhimə xanımın qəbrinin üstünə qoyurlar.

Lənkəranda gec yeriyən uşağı zənbilə qoyub 7 qapını gəzib nəzir yığırlar.

Uşaq bir yaşa çatanda inama görə onu sınayırdılar. Quranı və qayçını qoyurdular. Uşaq bunların hansını götürməsindən çox şey asılı olduğunu fikirləşirlər.

Uşağa göz dəyməməsi üçün onun üstünə gözmuncuğu bağlayırlar. Həmçinin dua yazılmış kağızlar parçaya bükülərək, sancaqla uşağın paltarına bənd edilir. Beləliklə, zənn edilir ki, uşağa göz dəyməsinin qarşısı alınır.

Bəzən körpə səbəbsiz yerə ağlayır. Beləliklə, uşağa göz dəydiyini fikirləşirlər. Belə olan tərzdə ovuclarına bir qədər duz götürüb onu uşağın başına fırladaraq deyirlər ki, "uşağa gözü dəyənin gözü çıxsın" sonra duzu yanan oda atırlar.

Göz muncuğu mavi rəngdə olur. Etnoqraf İ.Quliyeva yazır ki, insanlıq tarixində mavi rəng güc və müdafiə simvoludur. Mavi rəng dənizin və səmanın dərinliyinin və böyüklüyünün, sonsuzluğun simvoludur. (2, s. 136)

Cəlilabad rayonunun sakinləri xalq üsuluna görə uşaq gec yeriyirsə, onu çəpər arası və ya üstündən keçirirlər. Bu vaxt ana və nənə hər biri bir tərəfdə durur, uşağı bir-birlərinə ötürürlər. Bu proses üç dəfə təkrar olunur.

Bundan sonra uşaq yeriməyə başlayır. Hazırda da bu adət icra olunmaqdadır. Belə ki, kəndlərdə ağac çəpərlərdən istifadə edərək bu adəti yerinə yetirirlər.

Lənkəranda uşaq gec dil açanda ona göyərçin yumurtası bişirib yedizdirirlər. Həmçinin Cəlilabad rayonunun Ocaqlı kəndində uşağın dili gec açılanda onu həsir zənbilə qoyur, gəzdirirlər. Xalq bayatılarında da bu əksini tapmışdır:

Balama can demişəm,
Ağlama, can demişəm,
Balam dil açan günə
Ona mən qurban demişəm.

Xalq inamına görə göz dəymə zamanı zərər çəkən uşaq həyatını itirə bilər. Yaşlılar deyirlər ki, həmin uşağın bədənində, daha çox bel nahiyəsində beşbarmaq əl izi olur.

Körpə diş çıxardarkən nənəsi 7 növ ərzaqdan: buğda, qarğıdalı, noxud, lobya, kiçik paxla, lərgi, mərci və s. kimi ərzaqlardan hədik bişirir və onu qohum-qonşu arasında paylayırlar. Hədik körpənin diş çıxartmasını asanlaşdırmaq məqsədini icra edir.

Uşağın süd dişləri düşəndə düşən diş götürülür, evin damına atılır. İnama görə uşaq Allahdan özünə yeni dişlər istəyir. Bəzən süd dişlərini siçanın deşiyinə atır, bar verən ağacın altında basdırırlar.

Lənkəranda uşaq ilk dişini çıxaranda evdə qazan asılır. Hədik aşı bişirilir, ona "dişlik" deyirlər. Onu qohum qonşuya paylayırlar və qohum-qonşu qaytarılan aşın qabına uşaq üçün kiçik hədiyyələr qoyulur.

Uşağın diş çıxarması ilə əlaqədar olaraq hələ xırman vaxtı buğdadan “diş hədiyi” bişirmək xalq arasında geniş yayılmışdı. Onu həm ailə üzvləri yeyir, həm də qohum-qonşulara paylayırdılar. Qonşuya hədik dolu verilmiş qabı boş qaytarmazdılar. Onun içərisinə yumurta, şirniyyat, meyvə, bal, yun corab, uşaq üçün müxtəlif hədiyyələr qoyardılar. (3, s. 94)

Uşaq ilk dişini çıxararkən anası hədik bişirir, əvvəlcə hədikdən bir pay götürüb uşağın dişinə çəkir, qalanını isə yeddi evə paylayır. Hədik verilən qablar qaytarılanda içərisinə pay qoyarlar (4, s. 108).

Uşağın dırnağını birinci dəfə tutanda əlinə pul qoyurlar ki, ruzulu olsun. Uşaq gec dil açanda isə ona göyərçin yumurtası verirlər.

Uşağın boynunun ardından öpməzlər ki, o, dağal, söz eşitməyən olmasın.

Bakının Buzovna kəndində uşağa göz dəyməsin deyə müxtəlif vasitələrə əl atırlar. Məsələn qorxan uşağın qorxuluğunu götürmək üçün çıldağ edirlər, onurğa sümüyünə kimi bənd-bənd əllənir və əl ilə oynaqlara vurulur. Onurğanın axırıncı sümüyü, sinə, üç dəfə qarına, iki-iki dizlər, alının yanları, alın, dirsək yandırılır. Sonra bu hissələrə yavaşca vurulur və “Bismillahi, rəhmani rəhim” – deyirlər.

Çildağı adətən üçüncü, altıncı günlər edirlər.

Zənn edirlər ki, uşağa ruh keçibsə, ruhludursa, bir baş yaylığı götürür qol ilə ölçürlər, əgər uşaq ruhludursa, baş yaylığı əlinin üstünə düşür. Belə olan tərzdə ruhların hansı şəxsə mənsub olmasını müəyyən etmək üçün biləkdən aşağı

ruhların adını çəkirlər. Ruhu bədəndən çıxarmaq üçün bir dişdəm çörək, bir soğan, bir qayçını baş yaylağına tərəf, başının altına tərəf aparırlar. Yatanda başının altına qoyurlar. Səhəri soğanı dişləyir, çörəklə bərabər dama atırlar. Həmin ruha yasin oxutdurur, bıçağı evə atırlar, qalır. Bıçağı uşağın başının altında saxlayır, yaxud mətbəxdə saxlayırlar.

Uşaq çiləyə düşəndə ayaqları çarpazlaşır. Onda axar su içərisində uşağın ayaqlarını sapla bağlayıb, sonra iti qayçıyla sapı kəsirlər. Bu 7 dəfə təkrarlanır. Bunu əkiz uşağı olan qadın icra etdikdə daha effektli olur.

Uşağı nəzərdən qorumaq üçün uşağın paltarı üstündən gözmuncuğu, kəhraba, əqiq, qızıl və s. asırlar.

Uşaq yatanda yasdığın altına çörək, qayçı qoyurlar; Uşaq yaxşı yatmayanda yatağının yerini dəyişirlər; Yatanda uşağın – başını tez-tez çevirirlər ki, başı yastı olmasın; Uşağı çimizdirərkən başından üç dəfə bismillah deyib su tökürlər; Çimizdirərkən ayaqlarından tutub silkələyirlər ki, qulağında su qalmasın; Çəçiyəndə burnundan tuturlar ki, boğazındakı suyu udsun; uşağı əzizləyərkən deyirlər:

Çəççə çalan əllərin,
Ağrımasın əllərin,
Ağrısa da ağrısın,
Özü də Emişkanın əlləri.

Nənəsi körpə uşağı əzizləyərək deyir:

Ay Allah bundan beş dənə ver,
Göydə uçan quşlara ver,
Həsrətində qalmışlara ver,
Tava dibi görmüşlərə də ver.

Atın-tutun bu balanı
Şəkərə qatın bu balanı,
Şəkərdən acı olsa,
Götürün atın bu balanı.

***

Oğuldu, noğuldu,
Qızdı qızıldı.

***

Dövlətdə dəvə,
Övladda nəvə

Nəvə baladan şirindir və s.

Lənkəranda inama görə, uşaq çox ağlayan olarsa, cümə günü onu qapı ağzında qoyub başmağın altı ilə ağzına vururlar ki, uşaq daha ağlağan olmasın.

Uşağın bir yaşında babası evə dəllək gətirməli, uşağın saçını qırxıb keçəl etməlidir ki, çilə tükü başında qalmasın. Sonra qırxılan tükü bir torbanın içində uşağın yastığının ya içinə ya altına qoyurlar ki, uşaq rahat yatsın.

Oğlan uşağı sünnət olunarkən, Lənkərana məxsus təamlardan olan südlü aş böyük qazanda bişirilib paylanılır (Lənkəranda südlü sıyıqlara aş deyilir). Beşik qırmızı xara ilə bəzədilir.

Burada xalq arasında uşaqlarla bağlı andlar da yayılmışdır. Məsələn, "balam canı", "balalarımın canına and içirəm" və s.

Analar uşaqlara layla deyərkən onlara istədikləri xoş anları arzulayırlar.

Laylay dedim, can dedim,
Yuxudan oyan dedim,
Sən yeri bir mən baxim,
Olum boyun qurbanı (5, s. 327)

Azərbaycanın müxtəlif bölgələrində uşaq anadan olarkən onun adına gəbə (xalça) toxunur. Bəzən toxunan gəbələrə, kilimlərə uşağın adını yazırdılar.

Gəbəni uşağın beşiyinin altına sərirdilər.

Sünnət (kiçik toy) mərasimi kiçik yaşlı oğlan uşaqlarının həyatında mühüm yer tutur.

Azərbaycan xalqının zəngin adət, ənənələri içərisində oğlan uşaqlarının tənasül üzvündə cərrahiyyə əməliyyatı aparılması üsulu ilə "sən bu gündən müsəlmansan" ifadəsinin işlədilməsi, yəni həmin gündən oğlanın müsəlman edilməsi ənənə halını almışdır. Qeyd etmək olar ki, əslində sünnət adəti İslam dinindən əvvəl yaranmışdı.

Sünnət adəti hələ ibtidai icma dövründə oğlan uşaqları yetkinləşərkən gigiyena məqsədilə meydana gəlmişdir. Qədim misirlilər, həbəşlər və sami xalqları arasında geniş yayılmışdı. Avstraliya, Okeaniya və Afrikanın bir sıra xalqlarında bu adət qalmışdır. Sünnət yəhudilərdə dini mənsubiyyəti təsdiq edən ritual (adətən uşağın 7-8 günündə) kimi icra olunur. Ərəblər arasında islamaqədərki bir çox adətlər kimi Sünnət də sonralar İslam dinini qəbul etmiş xalqlar arasında müsəlmançılıq əlaməti kimi yayılmışdır. (6, s. 106)

Yəhudilərin sünnət adəti Həzrəti-İbrahimdən qalmışdır. Allahın kitabı olan İncildə "sünnətli" dedikdə yəhudilər nəzərdə tutulurdu. Bəzi tədqiqatçıların fikrincə, sünnət adəti Qədim Misirdə də olub. Maraqlıdır ki, bəzən qadınlar da "sünnət" edilərmiş. (7, s. 270)

Adətə görə "kiçik toy" mərasiminə bir az qalmış uşağın valideynləri məsləhət bildikləri qohumlara, tanışlara xəbər verirdilər. Sünnət olunacaq uşağa kirvə tutur, kiçik toyun gününü müəyyən edirlər.

Toy günü dəllək çağırılır. Dəlləyin mərasimi icra etməsi üçün o qarğıdan hazırlanmış xüsusi alət, ülgüc və s. götürür.

Kirvə uşağı qucağında oturdur, əllərini dizi qatlanan hissədən yana çıxarıb, uşağın əllərindən tuturdu ki, uşaq tərpənməsin. Uşağın üzünə qırmızı örpək, kəlağayı (kolxana) salınır. Dəllək isə sünnəti başa çatdırır.

Məclisə aşıq və digər musiqiçilər çağırılır. Zəngin təam süfrəsi aşpaz, çayçı dəvət olunur. Onlara da xələt verirlər. Aşığa məclisi əyləndirdiyi üçün xələt və xonça verilir.

Məclisə gələn qohumlar, qonşular meyvə və şirniyyatdan ibarət xonça gətirirlər. Xonçada uşaq üçün köynək, dəsmal, corab və s. olur. Ev yiyəsi dəvət olunan qonaqlara xələt verir.

Kiçik toy günü uşağa xüsusi yataq hazırlanır. Onun hər tərəfinə yastıq qoyurlar.

***

Müsəlmançılıqda adət icra olunarkən dediyimiz kimi dəlləklər sadə üsulla, yəni qarğıdan istifadə edərkən xüsusi ülgüclə atılası dərini yuxarıdan aşağıya kəsirlər. Yəhudilərdə isə əksinə icra olunur. Dəlləklər yarpızı qurudur, ovub kül halına salır və ocaq külü ilə qarışdırır, kəsilən hissəyə səpir, uşağın üzünə isə görməsin deyə kirvənin gətirdiyi qırmızı rəngli kolxona (kiçik kəlağayi) salırlar.

Gədəbəy rayonunda sünnət mərasimində kirvələr əllərinə uşağın qanından sürtür, əl-ələ verirlər, dəllək də əlini onların üstünə qoyur və deyir ki, xələtimi verin. Bununla da kirvələr ölənəcən sadiq olacaqlarını bəyan edirlər.

"Kiçik toy"da mərasim başlayanda uşağın anası şirni stolu düzəldir, süfrəyə şəkərbura, paxlava və s. düzülür.

Uşağın yastığının altına qohumlar pul qoyurlar. Bəzən uşağın barmağına qızıl üzük də taxırlar. Kimisi də xonça gətirir. Dəllək üçün də xonça düzəldilir. Dəllək sonrakı günlər uşağın yarası sağalana qədər hər gün ata-baba qaydası ilə kül səpir.

Bir neçə gün yataqda qaldıqdan sonra uşaq durur və çox vaxt qız paltarında gəzməlidir. Belə ki sünnəti olan uşağa qırmızı tuman köynək geyindirirlər. Sünnət yalnız monoteist dinlərə sitayiş edən yəhudilər və müsəlmanlar arasında deyil, qədimdə ibtidai dinlərə sitayiş edən dünyanın başqa xalqları arasında da yayılaraq dini xarakter daşımamışdır. (8, s. 313; 338).

Bir sıra rayonlarda - Xaçmaz, Quba, Dəvəçi, o cümlədən Bakı ətrafı kəndlərdə kirvə tutulmur. Lakin mərasimdə iştirak edən ailənin yaxın bir adamı kirvəni əvəz edir.

Xalq inamına görə Azərbaycanın müəyyən hissəsində xüsusilə Bakıda sünnəti olacaq oğlan uşaqlarının sayı cüt olduqda, məsələn 2 uşaq olduqda mərasim vaxtı həyətdə xoruz kəsirlər. Yəni sünnət olunan uşaqların sayı tək sayda olmalıdır. (9, s. 79)

Ənənəvi olaraq Azərbaycanın müxtəlif bölgələrində sünnət olunacaq uşağa müvafiq bir şəxs kirvə tutular, bununla da kirvəlik davam edərdi. Uşağı əməliyyat edən yəni xalq dilində sünnət edən, kəsən şəxs isə dəllək adlanırdı.

Dəllək xalq arasında ad ilə tanınırdı. Məsələn, dəllək İbrahim, dəllək Camal və s. Dəllək el adamı sayıldığından xalq arasında bir neçə məsəl də var.

Azərbaycanda uşaqlara müxtəlif yaşlarda, bəzən bələkdə erkən, bəzən isə 5-8 yaşlarında "sünnət toyu", yaxud "kiçik toy" edirlər. Müəyyən ailələrdə sünnət ailə daxilində icra olunur. Əksər hallarda isə şənlik məclisi qurulur. Kirvəlik əsasən, Qarabağ, Şirvan və Qərb bölgəsində, Xəzər sahili vilayətlərin şərqində geniş yayılmışdır.

Kirvə əsasən mərasim günü xonça tutar, uşaq üçün dəst kostyum və digər əşyalar alardı. Mərasimdən sonra dəlləyə pul verərdi. Bu "kül pulu" adlanardı. Mərasim vaxtı ortaya xüsusi məcməyiyə qırmızı örpək, konfet, meyvə qoyulardı. Mərasim iştirakçıları məcməyidən konfet, meyvə götürər, oraya pul qoyardılar. Pul dəlləyə, uşağın balıncının altına qoyulan pul isə uşağa çatırdı. Bir neçə gün sonra mərasimin "küldən çıxma" mərhələsi davam edərdi. Həmin gün kirvə ailəsi, yaxın qohumları ilə kirvəsinin evinə gələrdi. Ailə üzvləri və sünnəti olan uşaq üçün hədiyyələr, şirniyyat alınardı. Ev yiyəsi də öz növbəsində süfrə açar, qonaqları dəvət edərdi. Beləliklə Azərbaycanın qərb bölgəsində daha təntənəli keçirilən kiçik toy məclislərində "kirvə aşı" adlanan xüsusi plov bişirilirdi. Kirvənin süfrəsinə gətirilən plovun başına xuruş kimi qoyunun bud hissəsindən bişirilən iri, sümüklü ət parçası qoyulurdu. (10, s. 193-194) Qeyd etmək lazımdır ki, kirvəlik mərasimindən sonra kirvə evin ən əziz, sadiq, inanılmış adamı, üzvü sayılardı. Azərbaycanda kirvəlik münasibətləri müqəddəs sayılırdı. El arasında belə bir deyim var: "Kirvə kirvənin damının üstünə çıxmaz ki, torpaq tökülər". Azərbaycanda kirvənin nə qızını almaq, nə də o ailəyə qız vermək olmazdı. (11)

Göründüyü kimi Azərbaycanda "kiçik toy" yaxud sünnət mərasimi kimi icra olunan bu adət əsrlərdən bəri icra olunmuş, nəsillərdən-nəsillərə ötürülərək ənənəyə çevrilmişdir. Lakin, müasir dövrdə bu mərasimə əksər hallarda dəllək əvəzinə həkim dəvət edilir.

Əlbəttə, uşaqları müşayiət edən ənənəvi adətlər bu gün də icra olunur.

## 2.2. Uşaq xəstəlikləri və müalicəsinə dair

Körpə yaşlarından uşaqları müxtəlif xəstəliklərdən qorumaq, onların inkişafını təmin etmək, hər bir valideynin vəzifəsidir. Belə ki, hər il dünyada 12 milyona yaxın uşaq müxtəlif xəstəliklərdən – diareya, malyariya, pnevmaniya və s. vəfat edirlər. Bəzi ölkələrdə doğulan 5 uşaqdan biri beş yaşına qədər yaşaya bilmir. Azərbaycanda ölümün səviyyəsi nisbətən aşağı və sabit səviyyə ilə səciyyələnir.

Dünyanın bir çox ölkələrində olduğu kimi Azərbaycanda da əhali arasında ölüm hallarına əsasən qan dövranı sistemi xəstəlikləri, yeni törəmələr, həzm sisteminin, tənəffüs orqanlarının xəstəlikləri səbəb olur. 2017-ci ildə bu xəstəliklərdən ölənlərin sayı əhalinin hər 1000 nəfərinə 5,9 nəfər təşkil etmişdir.

Ölümün səviyyəsi gözlənilən ömürün uzunluğu göstəricisində də öz əksini tapır. 2013-cü ildə doğulan körpələr üçün gözlənilən ömür uzunluğu 75,4 yaş, o cümlədən oğlanlar üçün – 73,1 yaş, qızlar üçün isə 77,8 yaş olmuşdur.

2017-ci ildə 1,7 min nəfər 1 yaşadək körpə vəfat etmişdi (1,0 min oğlan, 0,7 min qız və ya 1000 nəfər diri doğulandan 11,1-i ölmüşdür). 2017-ci ildə bu xəstəliklərdən hər 10 000 nəfər diri doğulana müvafiq olaraq 70, 13, 10 körpə ölmüşdür (1, s. 7). 1 yaşadək ölən uşaqlar arasında ölümün əsas səbəbləri əsasən, bəzi infeksion və parazitar xəstəliklərdən, sinir sisteminin xəstəliklərindən, tənəffüs sisteminin xəstəliklərindən, həzm sisteminin xəstəliklərindən, perinatal dövrdə meydana çıxan bəzi hallardan; anadangəlmə anomaliyalar (inkişaf qüsurları); deformasiyalar və xromosom pozuntularından, travmalar, zəhərlənmələr və xarici səbəblərin təsirinin digər nəticələrindən, digər səbəblərdən idi.

2018-ci ildə Azərbaycanda 1 yaşadək ölən uşaqların sayı 1547 nəfər idi. Onlardan 443 nəfəri Bakı şəhərindən, 116 nəfəri Abşeron iqtisadi rayonlarından, 103 nəfəri Şəki-Zaqatala iqtisadi rayonundan, 133 nəfəri Lənkəran iqtisadi rayonundan, 79 nəfəri Quba-Xaçmaz iqtisadi rayonundan, 348 nəfəri Aran iqtisadi rayonundan, 71 nəfəri Yuxarı Qarabağ iqtisadi rayonundan, 18 nəfəri Kəlbəcər-Laçın iqtisadi rayonundan, 84 nəfəti Dağlıq Şirvan iqtisadi rayonundan, 12 nəfəri Naxçıvan Muxtar Respublikasından idi. Ölənlər əsasən şəhərlərdə üstünlük təşkil edir. Qızlara nisbətən oğlanlar arasında ölüm halları üstünlük təşkil edir.

Adətən analar uşaqları əzizləyərkən onlarln xəstələnməməsini arzulayır, oxşamaları, laylaları, deyimləri ucadan deyirlər:

Çıxsın səsim bacadan,
Tanrı səni saxlasın

Boğmadan, qızılcadan.
Laylay dedim ellərdən,
Ətir dolu güllərdən,
Allah özü saxlasın,
Gələn aylar, illərdən (2, s. 327)

Məlumdur ki, ailələrdə uşaqlar həkimlərin nəzarəti altında müalicə olunurlar. Lakin, bununla yanaşı müəyyən xalq müalicə üsullarına da müraciət edirlər.

Bakıda uşaq xəstələnərkən yaşlılar zənn edirlər ki, uşaq çilləyə düşmüşdür. Çillə kəsmək üçün iki stəkan götürürlər. Niyyət edir və stəkanın birinə arpa, digərinə buğda atırlar. Sonra bir oğlan və bir qız uşağı çağırırlar. Onlar stəkanı götürürlər. Stəkanı əvvəl oğlan götürürsə, deməli uşaq çilləyə düşübdür. Stəkanlardan birinə əvvəlcə dua oxutdururlar. Uşağın başına qırmızı qətifəni salır, stəkandakı suyu isə üstündən başına tökür və deyirlər:

"Murdardan, duvadan
Hər kəs uşağın üstünə gəlibsə" götürürsən.

Bəzən çilləyə düşən uşağı çillədən çıxartmaq üçün "Əli süfrəsi", "Qırx süfrəsi" yığılarkən "məclis süfrəsi" uşağın başına sirkələnir" və s.

Körpə uşaq müəyyən xəstəliklərlə qarşılaşa bilər. Bəzən uşağın üzündə və bədənində düyünlər əmələ gəlir. Bundan körpəni xilas etmək üçün xəmir yoğrulur. Sonra xəmir xırda-xırda kündələrə ayrılır. 7 ədəd ayrılmış kündələr odda közün üstündə bişirilir və kəndin ayrı-ayrı yerlərində 7 yola qoyulur. Bununla da körpənin xəstəlikdən, həm də bədnəzərdən xilas

olduğu zənn edilir. Demək olar ki, Azərbaycanın müxtəlif bölgələrində bunu “qorxu götürmə” adəti ilə müalicə edirlər.

Körpə uşağı qorxudan xilas etmək üçün bir sıra qorxu-götürmə adətləri mövcuddur. Belə ki, uşağın beşiyinin üstünə əski örtürlər. Uşaq yatan beşiyin dəstəyi üstünə nazik pambıq qatı düzürlər və dəstəyin bir ucundan, digərinə qədər uzadırlar, sonra pambığın bir ucuna od vurulur və pambıq başa qədər yanır. Uşağın qorxudan xilas edildiyi zənn edilir.

Azərbaycanda tibbi xidmət diqqətəlayiqdir. Belə ki, 2009-cu ildə Azərbaycanda 752 xəstəxana, 1695 ambulatoriya və poliklinika fəaliyyət göstərmişdir. Bu müəssisələrdə 32,5 min həkim və 62,5 min orta tibb işçisi çalışırdı. (3, s. 161)

Qeyd etmək lazımdır ki, həmin həkimlərin 2100 nəfəri ginekoloq, 4500 nəfəri peduiatrdır. Orta tibb işçilərinin 9500 nəfəri akuşerlərdir.

Dövlət təminatı ilə əhatə olunmuş doğum evləri, qadın həkimləri, kişi və qadın sonsuzluğu ilə məşğul olan həkimlərin ilbəil çoxalması da doğumun sayının artmasına təsir edir.

Bakıda “Respublika ailə planlanması məsləhətxanası” və digər filiallar ailənin planlaşdırılması sahəsində xeyli iş görürlər. Belə ki,  qadın və kişi sonsuzluğunun müalicəsi ilə məşğul olurlar.

2001-ci ildə xəstəxanalarda uşaqlar üçün çarpayıların sayı 7026, uşaq sanatoriyalarının sayı 14, sanatoriyada olan uşaqların sayı 2628 nəfər, uşaq poliklinikaları, ambulatoriyaları və uşaq şöbəsi olan müəssisələrin sayı 258 idi.

2014-cü ildə Azərbaycanda pediatr həkimlərin sayı 3992 nəfər, xəstəxanalarda uşaqlar üçün çarpayıların sayı 6236, uşaq sanatoriyalarının sayı 14, sanatoriyalarda qalan uşaqların sayı 1863, qadın məsləhətxanalarıının və qadın məsləhətxanası olan müəssisələrinin sayı 152, uşaq poliklinikaları, ambulatoriyaları və uşaq şöbəsi olan müəssisələrin sayı 281 olmuşdu. (4 s. 76)

2018-ci ildə 13 yaşadək uşaqlar arasında bütün xəstəliklərdən xəstələnib müalicə alan uşaqlar 3120,1 nəfər idilər.

Onlardan 294,6 nəfər bəzi infeksion və parazitar xəstəliklərdən, 1,5 nəfər yeni törəmələrdən, 5,4 nəfər sinir sistemi, göz, qulaq və məməyəbənzər çıxıntının xəstəliyindən, 144,2 nəfər qan, qanyaradıcı orqanların xəstəlikləri və immun mexanizminin prosesə cəlb olunması ilə gedən ayrı-ayrı pozğunluqlar xəstəliyindən, 61,9 nəfəri endokrin sistemin xəstəlikləri, maddələr mübadiləsi və qidalanma pozğuntuları xəstəliyindən, 377,2 nəfər sinir sistemi və hissiyyat orqanlarının xəstəliklərindən, 50,6 nəfəri qan dövranı sisteminin xəstəliklərindən, 1501,6 nəfəri tənəffüs orqanlarının xəstəliklərindən, 258,1 nəfəri həzm sisteminin xəstəliklərindən, 67,0 nəfəri dəri və dərialtı toxumanın xəstəliklərindən, 44,9 nəfəri sümük-əzələ sisteminin və birləşdirici toxumanın xəstəliklərindən xəstələnmişdilər.

2018-ci ildə ilk dəfə qoyulmuş diaqnozla qeydə alınmış 18 yaşadək uşaqlardan bütün xəstəliklər üzrə xəstələnənlər 800170 nəfərdir. Onlardan bəzi infeksion və parazitar xəstəliklərdən 73065 nəfər, 422 nəfər yeni törəmələrdən, 36596 nəfər qan, qanyaradıcı orqanların xəstəlikləri və immun me-

xanizmin prosesə cəlb olunması ilə gedən ayrı-ayrı pozğunluqlardan, 15665 nəfər endokrin sistemi xəstəlikləri, maddələr mübadiləsi və qidalanma pozğunluqlarından, 15049 nəfəri, qan dövranı sisteminin xəstəliklərindən 374345 nəfəri tənəffüs orqanlarının xəstəliklərindən, 97767 nəfəri sinir sistemi və hissiyyat orqanlarının xəstəliklərindən, 71144 nəfəri həzm sistemi xəstəliklərindən, 17565 nəfəri dəri və dərialtı toxumanın xəstəliklərindən, 12788 nəfəri sümük əzələ sisteminin və birləşdirici toxumanın xəstəlikləri üzrə xəstələnənlərdir. (5)

Uşaq Hüquqları Konvensiyasının 24-cü maddəsinə əsasən uşağın ən təkmil səhiyyə sistemi xidmətlərindən, xəstəliklərin müalicəsi və sağlamlığın bərpası vasitələrindən istifadə etmək hüququ olduğunu təsdiq edir. (6, s. 15)

Əlbəttə, müstəqil Azərbaycanın övladlarını sağlam həyata gətirmək, böyütmək, qarşısı alına biləcək bütün xəstəlikləri müalicə edərək vətənpərvər ruhda böyütmək hər bir Azərbaycan vətəndaşının borcudur. Bu sahədə Azərbaycan dövləti daima vətəndaşların qayğısına qalır.

Dünyaya gələn uşaqlara müxtəlif müavinətlərin verilməsi, xəstələrin dövlət hesabına müalicə olunması, onların təhsili üçün xüsusi məktəblərin açılması və digər tədbirlər dediklərimizi əsaslandırır.

## 2.3. Uşaq yeməkləri

Uşaqların həyatında ananın durumu, onun qidalanması mühüm rol oynayır. Hamiləliyin ilk dövründə ailədə ananın

yeməyinə fikir verirlər. Yeməkdə əsas xəmir xörəkləri (quymaq, xəşil) bişirirdilər. Ənənəvi olaraq keçmişdə Naxçıvan bölgəsində doğuş qurtaran kimi bir stəkan yağı dağ edib içərisinə iki qaşıq bal qatıb yeni ana olmuş qadına verirdilər. Zənn edirdilər ki, bu qadının qarnını bərkidib yığır.

Ana isə körpəni yedizdirərkən onu rahat bir vəziyyətdə saxlayır. Digər diqqət tələb edən məqamlardan biri də uşağın nə qədər və nə vaxt yedizdirilməsidir. Unutmaq lazım deyil ki, gec-gec yedizdirmə ziyanlı olduğu kimi, körpəni tez-tez yedizdirmək də məqsədəuyğun deyildir. Ümumiyyətlə, düzgün qidalanma qaydalarını əldə etmək üçün uşaq həkiminə müraciət etmək daha doğru olardı.

Körpənin sevimli məşğuliyyətlərindən əsası onun əmməyidir. Bir çox körpələr yaxşı əmirlər. Bəzi körpələr ana bətnində ikən əlinin baş barmağını, ya da digər barmaqlarını əmirlər.

İlk vaxtlar da əmzik əmən körpələrdə ana südü ilə qidalanma çətinləşsə, hətta orta qulaq infeksiyası riski arta bilər. Əmizikdən uzun müddət istifadə etdikdə dişlərdə də problemlərin meydana çıxması mümkündür. Uzunmüddətli əmizikdən istifadə nəticəsində uşağın dişlərində kənara doğru istiqamətləndirmə olur. Uşaq ana südü ilə qidalanırsa, ona yalnız bu aylarından sonra əmzik verilir.

Xalq arasında deyirlər ki, uşağın 3 ayı tamam olana qədər ona qida olaraq mütləq ana südü verilməlidir.

Sonra tədricən meyvə şirəsi verilir, şirə yarım çay qaşığı ilə başlayıb yavaş-yavaş artırılır. Altı aylığından başlayaraq

uşaqlara az-az tərəvəzlərdən şorba, toyuq bulyonu, banan püresi və s. verilir.

Körpə uzun müddət ana südü ilə qidalanır. Ana südü ilə qidalanan uşaq sağlam olur. Uşaqlara adətən 6 ay, 1 il, 2 il müddətində ana süd verir.

Südəmər uşaqlara arabir şirin çay da verirlər.

Ənənəvi kənd ailələrində südü olmayan qadınların uşaqlarını südü olan digər uşaq əmizdirən qadınlar əmizdirirlər. Bu tip analar “süd anası”, onun həmyaş övladı isə “süd qardaşı” və ya “süd bacısı” adlanır. Bu uşaqlar arasında nikaha el adəti ilə icazə verilmir. Onlar bacı-qardaş hesab olunurlar.

Uşaqlar altı aylıq olarkən əzilmiş düyünü şəkər qatılmış süd ilə qaynadaraq, duru halda bişirir, qovurulmuş buğda ununu süddə, yaxud suda bişirib, şəkər əlavə edərək əmziklə uşağa verirlər. Uşaq döşdən ayrıldıqdan sonra ona bir parça çörək verirlər ki, dişlərinin ətini onunla tərpədib, qaşıya bilsin. Uşaqlara əsasən südlə hazırlanmış yeməkləri - buğda unu, süd və şəkərdən hazırlanmış “qındı”, düyü ilə süddən hazırlanan “südlü yayma” adlanan sıyığı verirlər.

Uşaqlara meyvə və tərəvəzdən, ətdən hazırlanan şorbalar yedizdirirlər. Mövsümü meyvə və tərəvəzlərdən də istifadə edirlər. Uşaqlara kiçik yaşlarında suda bişirilmiş yumurtanın sarlısı, bir az pendir yedizdirirlər. (1, s. 7)

Südəmər uşaqlara analarının südü az olarkən uşaq yeməkləri verirlər. Yeməkləri uşaq həkimi təyin edir. Bu yeməkləri aptekdən, yaxud marketlərdən alırlar. Məsələn, “humana”, “avtomin”, “nutrilak 1, “nutrilak 2”, “nutrilak 3”, “buğdalı, vələmirli, qarabaşaqlı, tərəvəzli heinz”, “friso cold 1”,

“friso cold 2”, “similak cold 2”, “similsk cold 3”, “malyutka” və digərləri.

Qidalanmanın zəifliyi uşaqda fizioloji dəyişikliklərə səbəb olur, tədris fəaliyyətində iştirak qabiliyyətini azaldaraq idraki inkişafına mənfi təsir göstərir.

Uşaqların yemək prosesi  ən çətin və maraqlı hadisələrdən biridir. Bir qrup uşaqların yemək yeməsi valideyn üçün problem yaradır. Valideyn var qüvvəsi ilə çalışır ki, uşaq normal qaydada qidalansın. Bəzən uşaq heç cür ipə-sapa yatmır, “mən yemirəm”, “istəmirəm” kimi sözlərlə anasını yorur. Valideyn isə çox zaman uşağın nə üçün yemək yeməməsi səbəbini dərindən öyrənə bilmir. Bəzən uşaqlarda iştahsızlıq da əmələ gələ bilər ki, bu halda valideyn uşaq həkimi ilə məsləhətləşməlidir.

Elə uşaqlar var ki, valideynləri kimi sərbəst əyləşib nahar etmək istəyirlər. Odur ki, valideyn uşağının sərbəst yeməsinə şərait yaratmalıdır. Uşağın qab-qacağı ayrı olmalıdır, verilən yemək isə kəskin iyli, ədviyyatlı, isti və çox soyuq olmamalıdır. Stol arxasında oturmuş uşağa hər dəfə düzgün yemək qaydalarını səbrlə izah etmək lazımdır. (2, s. 29)

Əsrlər boyu yeməklərin qəbulunda yaş nəzarətə alınmışdır. Belə ki, azyaşlı uşaqların yeməkləri, ahılların yeməkləri, cavan ailə üzvlərinin yeməkləri çox zaman ayrıca hazırlanmışdır. Uşaq yeməklərində süd-ağartı məhsulları üstünlük təşkil etmişdir. Süd və qatıq doğramacı, yağ yaxması və dürməyi, pendir dürməyi, bal yaxması uşaqların sevimli yeməkləri hesab olunurdu. (3, s. 201)

Bəzən uşaq həyətə gəzməyə çıxarıldığı zaman onların torpağı yerdən ovuclayaraq yediklərinin şahidi olunur.

Uşaqlarda qanazlığının qarşısının alınmasının əsas yollarından biri körpənin ilk 6 ay ana südü ilə qidalanmasıdır. Müəyyən yaşdan sonra isə uşağa ət, süd, yumurta, balıq, alma, kartof püresi, ərik qurusu, əzilmiş fındıq, süzdürülmüş qatıq, qoz kimi qida məhsulları yedizdirirlər.

Bəzən uşaqların qarnı ağrıyarkən onlara süzülmüş qatığı, bişirilmiş düyü ilə qarışdırıb yedizdirirlər. Düyünü bişirdikdə isə ona bəzən əvəlik də əlavə edirlər. Bu uşağın həzm sistemini qaydaya salır. Çobanyastığı çayı, şüyüd suyu da faydalı vasitə kimi istifadə olunur.

Ümumiyyətlə, uşaqların yemək öynəsinin düzgün tənzimlənməsi onların fiziki inkişafında da əsaslı rol oynayır.

## 2.4. Uşaq geyimləri

Uşaq hələ anadan olmamışdan bir neçə ay əvvəl uşaq paltarları tikilər, uşağın əskiləri hazırlanardı. XX əsrin əvvəllərində nisbətən aşağı və orta səviyyəli ailələrdə köhnə paltarlardan, xalatlardan, mələfələrdən və s. uşaq üçün əskilər hazırlanır, ağ, pambıq və pamazı parçadan, köynəklər, papaqlar, əlcək tikilər, əskilər, bələkbağı hazırlanardı. Rayon mərkəzindən uzaq məsafədə yerləşən kəndlərdə ata uşaq üçün beşik, paltar, plyonka və s. həmçinin həyat yoldaşı üçün xalat, paltar almaq məqsədi ilə şəhərə, rayon mərkəzinə gedirdi. Əvvəllər

kənd ustaları ağacdan beşik – lyulka, müəyyən hallarda dəmirdən beşik-lyulka hazırlayardılar.

Türkiyədə kəndlilər arasında asma yüyrəklər - beşiklərə rast gəlinir. Sankt-Peterburqda Antropologiya və etnoqrafiya muzeyinin kolleksiyasının fondunda Kars vilayətinin türkdilli əhalisinə məxsus ağac beşik saxlanılır. Beşik hündür divarları olan dördkünc çarpayının üstündə yerləşdirilmişdir. Beşikdə isə bir uşaq yorğan-döşəyi, balıncı, odeyalı qoyulmuşdur. (1, s. 40)

Azərbaycanın bütün bölgələrində yeni anadan olmuş uşaqlar üçün əvvəlcədən hazırlıq görülür. Onlar üçün beşik, uşaq çarpayısı alınır. Birinci nəvə üçün adətən ana nənəsi bir dəst yorğan-döşək, uşaq paltarları, örtük, bələk hazırlayır. Uşaq bezlərindən (pamperslərdən) istifadə edirlər.

Uşaq anadan olduqdan sonra ilk aylarında onu xalq üsulu ilə bələyirlər. İlk vaxtlar körpəni tez-tez ana südü ilə qidalandırmaq vacibdir. Onların yuxu qaydasına da diqqət yetirirlər.

Uşaqları çox da isti olmayan su ilə yuyurlar. Uşağı qucaqda saxlayarkən başının duruşuna diqqət etmək isə vacibdir.

Azərbaycan xalqının belə bir deyimi də vardır: "Gözəllik ondur, doqquzu dondur".

Azərbaycanda arxeoloji qazıntılar zamanı tapılan tunc dövrünə aid (e.ə. III minillik) əşyalar geyim tariximizin çox qədimliyini təsdiqləyir. İstər eramızdan əvvələ aid edilən kiçik heykəllərin, eləcə də qədim saxsılarda hifz olunan insan təsvirlərindəki geyimlər onların qədim mənzərəsini bütün

dolğunluğu ilə əks etdirməsə də, onun kifayət qədər zəngin olduğunu söyləməyə əsas verir. (2, s. 100)

Mingəçevirdəki qəbirlərdən (V-VI əsrlər), Şirvanşahlar sarayı ərazisindən (XV əsr) tapılmış müxtəlif ipək və xara parçalar onların geyimlər üçün də istifadə olunduğu ehtimalını təsdiqləyir. Ümumiyyətlə, tarixən Azərbaycanda ipəkçiliyin geniş yayılması ilə Şamaxı, Şabran, Qəbələ, Şəki, Təbriz, Marağa, İrəvan və Naxçıvan mühüm toxuculuq mərkəzlərinə çevrilmişdi.

Məşhur rus rəssamları Vasili Vereşağın və Qriqori Qaqarinin (XIX əsr) rəsmləri Azərbaycanda parça (məxmər, qanovuz, atlas, qumaş, tirmə) istehsalının genişliyini, milli geyimlərin gözəlliyini və zənginliyini yaxşı əks etdirir.

Uşaq geyimləri forma etibarı ilə əsasən yaşlıların geyiminə oxşayırdı.

Tarixən qadın üst geyimlərimiz üst köynəyi, arxalıq, çəpgən, ləbbadə küləcə, kürdü, eşmək və baharıdan ibarət olub. Beldən aşağı olan geyimlərə isə üst tumanı və çaxçuru (ayağı büzməli şalvarı xatırladır) aid etmək olar. Baş örtüyü kimi kəlağayı, müxtəlif örpəklər, naz-naz və qaz-qaz ipək örpəklər istifadə olunurdu. Qadınlar bəzən baş örtüyünün altında araxçın qoyar, çarşaba bürünər, rübənddən istifadə edirdilər. (3, s. 100-101)

Kişi geyimləri də alt və üst paltardan ibarət idi. Üst geyimləri üst köynəyi, arxalıq, çuxa və şalvar idi.

Hər şeydən əvvəl, yeni anadan olmuş uşağı (çağanı) bələkdə saxlayırdılar. Doğulan gündən 40 gün keçənə qədər bələkdə olan çağaya “qırx könəyi” və “qırx papağı” adlanan

paltar geydirirdilər. Adətən, "qırx köynəyi" yumşaq və ağ pambıq parçadan, tikişləri bayırda qalmaq şərtilə tuniki biçim üsulunda tikilirdi. "T" şəklində biçilmiş köynəyin yaxa açırımının kənarlarına bəzən rəngli qaytan tikilir, bəzən də yaxa açıq saxlanırdı. Belə köynəyin qolları düz biçimli olub, biləyə qədər çatırdı.

"Qırx papağı" da "qırx köynəyi" kimi, tikişləri üzdə qalmaqla tikilir, saya qadın təsəyinə bənzəyir, başa geydirildikdən sonra boğazın altında qaytanla bağlanırdı. Belə papağın alınlığı tikmə naxışlarla bəzədilirdi. Bəzən papağı nazik pambıq parçadan olan yaylıq da əvəz edirdi.

Adətən uşaq beşikdə vəziyyətini dəyişib yıxılmasın deyə, onu beşiyə enli və əlvan parçadan ucu qotazlı və ya ilgəkli-qaytanlı hazırlanan beşik bağı vasitəsilə bağlayırdılar. "Beşik bağlama" adəti böyük qonaqlıq süfrələri ilə tamamlanır, yeni doğulan körpəyə xoşbəxt ömür, xeyir-dualar arzulanırdı. Lənkəran-Astara bölgə əhalisi arasında bu adət daha təntənəli şəkildə hazırda da davam etdirilməkdədir. (4, s. 137)

Körpə uşaq, bir qayda olaraq, iməkləyənə kimi bələkdə saxlanırdı. Bələk 6-7-yə qədər bir-birindən azacıq böyük olan yumşaq parça materialından hazırlanırdı. Uşağı bələmək üçün parçaları, ən böyüyündən başlayaraq bir-birinin üstünə qıyqac (üçkünc) şəkildə salır, sonra uşağı onun ortasına qoyaraq çiyindən aşağı parçaya bələyirdilər. Üst qatda olan birinci bələk parçasının qıyqac ucu uşağın qıçlarının arasından keçirilirdi. Bütün parçalar uşağın bədəninə sarındıqdan sonra, təxminən metr yarım uzunluğunda "bələk ipi" vasitəsilə "çalkeçir" edə-

edə bələyi ayaqdan başa doğru bağlayırdılar. Bələk ipi əlvan parçalardan lentvari düzəldilirdi.

Adətən, 7-8 aylıq uşağın qollarını bələkdən “azad edir”, ona müvafiq biçimli köynək geydirirdilər. Uşağın açıq qalmış əllərinə isə kiçik torbayaoxşar, barmaqsız boğazı büzməli əlcək geydirir, onu iplə biləyə bağlayırdılar. (5, s. 7)

Bələyə salınmış uşağı beşiyə qoyarkən onun üzünə, bir qayda olaraq, nazik cuna salırdılar. Xalq inamına görə, çağanı üzüaçıq yatırtmaq günah hesab olunurdu.  Çünki belə olduqda, uşağı “beşik quşu vurar”, bu da ölümlə nəticələnə bilərdi. (6, s. 139)

Kiçikyaşlı qızların geyimləri bütünlüklə qadın geyimlərinin təkrarı idisə, oğlan uşaqlarının geyimlərində fərqli cəhətlər vardı. Bu, ilk növbədə özünü, uşaq şalvarlarının biçim və tikiş tərzində göstərirdi.

Azərbaycanda uşaq şalvarının **“bağlı” (nifəli), “aşırmalı”** və **“finka”** olmaqla üç növü geniş yayılmışdı. Bu şalvarların növ müxtəlifliyi ilə yanaşı, bir ümumi cəhəti də vardı ki, onların heç birini açıb-bağlamağa ehtiyac yox idi. Bunun üçün şalvarın orta hissəsinə miyança (şalvar ağı) qoyulmur, onun beldən başlayaraq qabağa qədər arası yarıq tikilirdi. Eyni növ uşaq şalvarları tatarlar və taciklər arasında da mövcud idi. (7, s. 23; 7, s. 134, s. 139)

Qız uşaqlarının geyim dəstində qadın geyimlərinin kiçik ölçüdə təkrarı olan ətəkli tuman, köynək, arxalıq, baharı, kürləcə, çəpkən, nimtənə, katibi, kiçik ölçülü baş yaylığı, kəlağayı, ağ başmaq və s. əsas yer tuturdu. Varlı zümrələrin uşaq geyimlərinə qızıl və gümüşdən kəsilmiş düymələr, tuman-

köynəyə və digər üst geyimlərinə bəndlənən bəzəklər, eləcə də müxtəlif baş, boyun və qol bəzəkləri onların geyimlərinə xüsusi rövnəq verirdi.

Uşaq geyimlərinə əlavə edilən müxtəlif tikmə bəzəklər, naxışlar və bəxyələr (bafta, şahnəsənd, zəncirə, pilək, sərmə, gəldirgə, görüş, dördtikə, çalkeçir, güləbətin, muncuq tikmə və s.) sırf bəzək funksiyası daşıyırdı.

Muncuqlar arasına taxılan şəvə muncuğu uşağı qarabasmadan, sarılıq muncuğu sarılığa tutulmaqdan, nəzər duaları, göz muncuğu və dağdağan çiliyi bədnəzərdən, möhrə muncuğu mədə ağrısından, qusuntu muncuğu soyuqdəymədən, baboğlu (babaqulu) muncuğu şərdən və bədbəxtlikdən "qoruyurdu". (8, s. 142)

Bakıda uşaqlara təzə paltar geyindirəndə uşağı nəzərdən qorumaq məqsədi ilə deyərdilər: "İt çulu, qurd çulu". Müasir ailələrdə uşaqlar anadan olmamış geyimləri hazır şəkildə alınır. Çünki tibbin və səhiyyənin inkişafı uşağın oğlan, yaxud qız olmasını ultrasəs müayinəsi ilə bəyan edir. Uşaqlar böyüdükcə paltarları da hazır alınır. Məsələn, uşaq paltarları, papışları, ayaqqabıları və s. Artıq uşaq əskilərini uşaq bezləri (pamperslər) əvəz etmişdir. Hazır bələklər, uşaq üçün müasir vasitələr valideynlərin rahatlığına şərait yaradır. Hazırda valideynlər kenquru adlanan hazır vasitələrdən, xadnoklardan, beşiklərdən, uşaq çarpayılarından, oyuncaqlardan, uşaqların düşüncə tərzini formalaşdıran müxtəlif texniki vasitələrdən istifadə edirlər. Uşağın paltarlarını paltaryuyan maşında yuyurlar. Uşaqlar üçün stol və stullar, oyuncaqlar, qab-qacaq və digər əşyalar alınır. Gələcək nəsillərə ötürüləcək hər şey artıq

ənənəviliklə bərabər müasir qloballaşmanın şərtlərini də mənimsəyərək formalaşır.

Azərbaycanda uşaq geyimləri və  ayaqqabıları ilə bağlı dövlətin hər il üçün fəaliyyətini 4-cü cədvələ əsasən qeyd etmək lazımdır.

**Cədvəl 4.**

**Uşaq geyimləri və ayaqqabılarının istehlak qiymətlərinin və məktəbəqədər uşaq müəssisələrində xidmətlər üçün ödəmələrin indeksləri (əvvəlki ilə nisbətən, faizlə)**

| İllər | Uşaq geyimləri | Uşaq ayaqqabıları | Məktəbəqədər uşaq müəssisələrində uşaqların saxlanması üçün ödəmələr |
|---|---|---|---|
| 2000 | 95,4 | 108,8 | 100,0 |
| 2005 | 102,8 | 99,1 | 101,6 |
| 2010 | 103,5 | 100,4 | 101,8 |
| 2018 | 103,1 | 101,4 | 101,2 (9). |

XX yüzilliyin əvvəllərindən  başlayaraq ailə və məişət tərzində, iqtisadi və mədəni həyatda baş verən köklü dəyişikliklər qadın və kişi geyimləri kimi, uşaq geyimlərinin də fabrik istehsalı olan geyimlərlə əvəz olunmasını şərtləndirmişdi.

Müasir dövrdə uşaqların geyimləri də ənənəvilikdən uzaqlaşmışdır. Qloballaşma və müasirləşmə gənc ailələrdə böyüdülən uşaqların geyim tərzində də özünəməxsus yer tutmuşdur.

## 2.5. Uşaq oyunları

Azərbaycanda qədim oyunlar mənşəyi etibarilə müəyyən inkişaf mərhələsində ünsiyyət vasitəsi olmuş ilkin rəqslərlə sıx bağlıdır. Bu gün bir sıra qədim qaya rəsmlərində, o cümlədən Qobustan və Kəlbəcər qaya rəsmlərində ilkin xalq oyunlarının müəyyən izləri əks olunmuşdur. Belə oyunları əks etdirən başqa kitabələrə də Azərbaycanda təsadüf olunur.

"Oyun" sözü türklərin oynamaq söz kökü ilə bağlı yaranmışdır. Türkdilli xalqlarının içərisində "oy"unun ağıl, hikmət mənaları vardır. Ağıllı fikri hərəkət vasitəsi ilə ifadə etmək isə oyunların yaranmasında mühüm amil olmuşdur. (1, s. 128-129)

Azərbaycanda cəmiyyət inkişaf etdikcə, nitq və dil formalaşdıqca oyunlar öz ilkin zərurət formasını dəyişmiş, asudə vaxtlarda əyləncə məqsədinə tabe edilmişdir. Oyunlar həm rəqsdaxili, həm də məişət həyatı ilə əlaqədar inkişafında hərəkətlə sıx bağlı olmuşdur. (2, s. 129)

Yazıya alınmış xalq oyunlarını aşağıdakı kimi təsnif etmək olar: 1. Rəqsdaxili oyunlar; 2. Mərasim oyunları; 3. Məişət oyunları; 4. İctimai məzmunlu oyunlar; 5. Uşaq oyunları. Vaxtilə böyüklərin özü tərəfindən yaranıb sonradan uşaqlara verilən oyunlar da var, sonrakı mərhələlərdə uşaqlar üçün yaranan uşaq oyunları, bir də həqiqətən uşaqların özü tərəfindən yaranan uşaq oyunları da mövcuddur. (3, s. 135)

Anaların laylalarında, oxşamalarında da uşaq oyunları təbliğ olunur:

Oyna balam oyna,
Anan qurban boyuna
Oyna balam oyna,
Ellər gələr toyuna
Bir hava çal oynayım
Nənən qurban boyuna və s.

Uşaq oyunları çərçivəsində hər yaşın öz oyunu var. Oyunlarda uşaqlar yetişir boy atırlar.

Hardan törəmiş, necə olmuş ki, oyunlar uşaq dünyasına ayaq açmışdır. Hər uşaq oyununun bir kökü var.

Bunların bir bölümü el adətidir, bir bölümü yağıya qarşı savaşda üzə çıxmış, illə, fəsillə bağlı olmuşdur. İllər, yüzilliklər keçmiş, yaddaşlara keçən bu gerçəklər uşaqların oyununda qalıbdır.

"Dirədöymə", "Ay qaraquşum , "Qaçaq-qaçaq", "Topaldıqaç", "Bənövşə", "Çövkan", "Çilingağac" "Mərə-mərə", "Bəyvəzir" belə oyunlardandır.

Balaların oynadığı "Qaçaq-qaçaq" savaşa hazırlıq olmuş, yağıya qarşı sayıqlıq yaratmışdır.

"Dirədöymə" oyununu hər uşaq oynamaz, ürəkli, ciyərli uşaq oynar. Cızın içindəki torpağı gərək kəndirin, kəmərin göynədən vurğusuna dözə-dözə qoruyasan, çalışasan, çarpışasan, yağını vurub cıza salasan. Onunçun deyiblər ki, "mənim canım bərkdir, uşaqlıqda "Dirədöymə" çox oynamışam". (4, s. 139-140)

Zahid Xəlil yazır: "Dirədöymə" oyunu icra olunarkən uşaqlar iki dəstəyə ayrılır. Onlar bir dairəvi çizgi çəkir və qürrə (çöp) atırlar. Çöp hansı dəstəyə düşdü, o dəstə dairəyə gi-

rir. Uşaqların hərəsi ayaqlarının yanına bir toqqalı kəmər qoyurlar. Dairədən kənar qalan dəstə kəməri götürməyə çalışırlar. Dairədəki dəstənin oyunçuları isə kəmərin ələ keçməsinə imkan verməməlidir. Onlar dairədən çıxmadan ayaqlarını rəqibin ayaqlarına vururlar. Kənardakı oyunçu içəridəkilərdən birini əli ilə tutub dairədən çıxara bilsə, dairədəki uşaqlar kənarda duran dairədəkini vura bilsə, dairədəki uşaqlar kənara çıxır və kənardakılar içəri girir. Kənardakı oyunçu içəridəkilərdən birini əli ilə tutub dairədən çıxara bilsə, onu bir nəfərə həvalə edib saxladır, sahibsiz qalmış kəməri götürməyə çalışır. Bu zaman içəridəkilər həm öz kəmərini, həm də çöldəki uşaqların kəmərini qorumuş olurlar. Ya da əksinə, içəridəkilər çöldəkilərdən birini fəndlə tutub dairəyə salsalar, dəstələr yerlərini dəyişmiş olurlar.

Hansı dəstə kəməri tam ələ keçirsə, o dəstə qalib gəlir. (5, s. 24-25)

5 qardaş – 5 barmaq yemək axtarırlar. “Beş barmaq” oyunu ilə əlaqədar deyimlər vardır. Məsələn, çeçələ barmaq deyir: “Gəlin çörək yeyək”. Onun yanındakı barmaqlar sual verirlər: “Çörəyi haradan alıb yeyək?”. Orta barmaq deyir: “İşləyək, yeyək. Şəhadət barmaq da deyir: “İşləməsək nə yeyək” Baş barmaq deyir: “Gəlin gedək oğurluğa”. Beləcə onlar oğurluğa gedəndə birinci pərdə bitir. Sonra əsərin final hissəsi gəlir. Barmaqlar birləşib oğurluğa getməyi təklif edən barmağın başını kəsirlər. Elə ona görə də baş barmaq bütün barmaqlardan gödəkdir.

Yenə barmaq oyununa nəzər salaq:

**I pərdə:**

Baş barmaq
Başala barmaq.
Uzun Hağı,
Qıl turacı
Xırdaca bacı.

**II pərdədə** barmaqlar öz rollarını oynamağa başlayırlar:

Bu vurdu,
Bu tutdu.
Bu bişirdi,
Bu aşırdı (yəni yedi)
Vay! Bəbəyə qalmadı.

Beləcə, xırdaca bacıya heç nə qalmır. Buna görə də o, arıq və balacadır. Bu əhvalat uşaqlarda özlərindən kiçik olan bacı və qardaşlarına mərhəmət yaradır . (6, s. 26-27)

İnformatorlar bildirirlər ki, uşaq oyunlarının aşağıdakı növləri də var

**I Oturaq oyunlar:**

1) Qazmədaş
2) Laldinməz
3) Əl üstə kimin əli
4) Uçdu, uçdu
5) Şəngəla
6) Dəyirman və s.

**II Hərəkəti oyunlar**

1) Bənövşə
2) Çiling-ağac

3) Hil-hil
4) Qurma-hil
5) Gizlənpaç
6) Siçan-pişik
7) Zorxanaçılıq
8) Gözbağlıca
9) Dirədöymə
10) Dəsmalaldı qaç
11) Turnovurdu
12) Ənzəli

Uşaq oyunlarından biri də "üzük-üzük" oyunudur. Oyunun şərtlərinə" görə gənc qızlar hər birində 6 nəfər olmaqla 2 dəstəyə ayrılır, sonra üzük-üzük oynayardılar.

Bir üzük gizlədilər, tapana mükafat verilər, bayatı deyərdilər:

| | |
|---|---|
| Əzizim illər ayrısı, | Əzizim keçdi məndən, |
| Şanavi tellər ayrısı. | Ox dəydi keçdi məndən. |
| Bir gününə dözmədim, | Mərdlərə körpü oldum, |
| Oldum illər ayrısı. | Namərdlər keçdi məndən. |

Tapmacalar da, deyərdilər:
Gedən leylək,
Gələn leylək,
Bir qıç üstə,
Duran leylək (Qapı)
Bir təndirim var, iki çörək tutur (göz).

**Uşaq oyun nəğmələri:**
Sınamalar, öcəşmələr, dolamalar, düzgülər, yanıltmaclar və s.

**Sınamalar**

İynə, iynə,
Ucu düymə,
Bal ballıca,
Ballı keçi,
Şam ağacı,
Şatır keçi
Qoz ağacı,
Qotur keçi.
Hoppan, hoppan,
Yarıl- yırtıl,
Su iç, qurtul (7, s. 242)

**Öcəşmələr:**

Deynən: əmi!
Əmi!
Çək yerdən dəmi.
- Deynən: xala!
- Xala
- Sıramızdan qalma dala

**Dolamalar:**

Ay Dursun, Dursun, Dursun
Öküzün səni vursun
Ay zərbəli, Zərbəli,
İti boşla, gəl bəri

Dərin quyu qazaram
Dərin quyu beş keçi
Hanı bunun erkəci?
Erkəc qaya başında,

**Düzgülər:**

Üşüdüm ha, üşüdüm,
Dağdan alma daşıdım.
Almacığımı aldılar
Mənə cürüm-cürüm əziyyət, əzab verdilər
Mən çürümdən bezaram,

Əlimi bıçax kəsibdi,
Dəstə bıçax kəsibdi.
Yağ gətirin yağlayaq
Bal gətirin ballayaq

Hay elədim gəlmədi,
Çiyid verdim yemədi
Çiyid qazanda qaynar
Qənbər bucaqda oynar
Qənbər getdi oduna
Qarğı batdı buduna,
Qarğı deyil, qamışdı,
Beş barmağın gümüşdü.
Gümüşü verdim tuta,
Tat mənə darı verdi.
Darını səpdim quşa,
Quş mənə qanad verdi
Qanadlandım uçmağa,
Haqq qapısı açmağa,
Qapıçı qapı toxur,
İçində bülbül oxur və ya....

Dəsmal dəvə boynunda,
Dəvə Şirvan yolunda
Şirvan yolu lil bağlar,
Dəstə-dəstə gül bağlar
O gülün birisin üzəydim,
Tellərimə düzəydim,
Qardaşımın toyunda
Oturub-durub süzəydim. (8, s. 264)

Azərbaycanın Qərb bölgəsində uşaq oyunları içərisində “beş daş”, “moza daşı”, “bayraq apardı”, “bənövşə”, “qığı mərə”, “top aldı qaç”, “muçuq-muçuq”, “top-top”, “evcik-evcik”, “qaçdı-tutdu”, “xan-vəzir”, “aşıq-aşıq”, “klas-klas”, “əsgər-əsgər”, “kəndir-kəndir”, yaxud “kəndirdən atlanma”, “gizlən-qaç”, “ortada qaldı”, “hündürə qalxdı”, “at-at” (qarğıdan at düzəldirlər), “dirədöymə” və digər uşaq oyunları vardır.

Bu tip oyunlar Azərbaycanın bütün bölgələrində uşaq-lar tərəfindən oynanılır. Lakin bölgələrdə lokal fərqlər möv-

cuddur. Məsələn, Abşeron rayonunda "əlim səndə", "ciciko" və s. fərqli oyunlar da uşaqlar arasında icra olunur.

Ənənəvi olaraq uşaq oyunları onların yaş xüsusiyyətlərinə və cinslərinə görə fərqlənir. Keçmişdə 7-10 yaşlarına qədər oğlanlar və qızlar birlikdə oynayırdılar. Qızlar ən çox "ev-ev", "gəlin-gəlin" oynunu, gəlincik oynatmağı sevirdilər. Bu oyunlardan biri olan evcik-evcik kiçik yaşlı uşaqlar arasında oynanılır. Böyükləri yamsılamaqla uşaqlar xırda daşlardan, palçıqdan "ev" düzəldir, bir-birlərinə "qonaq" gedir, "xörək" bişirir, "toy" edir və s. (9, s. 81) Oğlanlar çəlpənək oynatmağı, "at-at" oynunu, "əsgər-əsgər" oynamağı çox sevirlər. Novruz bayramı ərəfəsində oğlanlar yumurta döyüşməyi, keçi və xoruz döyüşdürməyi də unutmurlar.

Çəlpənək oyunu haqda (e.ə. 770-250-ci illərdə) qədim Çin sülaləsindən olan Çyou məlumat verir. Avropada çəlpənək haqqında məlumat verən Marko Polo olmuşdur. (10, s. 46)

Oğlan uşaqlarının oynadıqları "aşıq-aşıq" (moça-moça) – aşıqla (qoyun aşığı) oynanılan uşaq oyunlarının ümumi adıdır. Aşıq-aşığın bir neçə növü vardır: cızıqlı (cızıq çıxdı), dağan-dağan (ovuc-ovuc), alçı-dağan, çıxdı-çıxdı (aşıq atmaq), "Dadaş nə Dadaş" (aşıq- aşığın sonuncu oyun növünə şərti olaraq həmin adı vermişik, yəni aşıq-aşıq oyununun bu növü istənilən adamın adı ilə oynanıla bilər). (11, s. 22).

Azərbaycan ədəbiyyatında uşaq oyunları haqqında məlumatlarla biz ilk dəfə XX əsrin əvvəllərində nəşr olunan "Məktəb" jurnalında rastlaşırıq. Həmin jurnalda "Əkinçi" imzalı müəllif "Nə doğrarsan aşına o çıxar qaşığına" hekayəsin-

də uşaqların əyləncələrindən və məşğuliyyətlərindən bəhs edərkən, məşhur “Qələndər, ay Qələndər” oyununun geniş təsvirini vermişdir. (12, s. 124-126).

M.Təhmasib bu mövzuya həsr etdiyi “Folklora münasibət məsələsi” adlı məqaləni “Məktəb” jurnalında dərc etdirib. Müəllif orada yazır: “Bunlardan hər birinin pedaqoji, psixoloji, estetik, tərbiyəvi, bədii, tarixi, eləcə də dilçilik, musiqişünaslıq baxımından çox maraqlı nümunələri vardır ki, hər biri öz toplayıcısını, naşir və tədqiqatçısını gözləyir”. (13, s. 466-486).

Uşaq oyunları tədqiqatçılar tərəfindən hərəkətli xalq oyunları və söz oyunları kimi qruplaşdırılır. Eyni zamanda hərəkətli xalq oyunlarının özü də iki qrup üzrə öyrənilir: əşyalarla oynanılan oyunlar və əşyalarsız oynanılan oyunlar.

Naxçıvanda yayılmış uşaq oyunları arasında “Evcik-evcik”, “Çırtı-çırtı”, “Xoruz döyüşü”, “Cıdır oyunu”, “Dirədöymə”, “Papaqaldıqaç”, “Xan-vəzir”, “Ənzəli”, “Bənövşə”, “Qəcəmə daş”, “Gizlənqaç”, “Qodu-qodu”, “Tıx-tıx”, “Güllə-güllə”, “Dama-dama”, “Çaynik”, “Ocaq yandı, su qaynadı”, “Qazlar-ördəklər”, “Gələn-gedən”, “Qırqovul”, “Həbə”, “Süddü-sümük”, “Salma”, “Bayraq aldı”, “Çippolik”, “Ortadaqaldı”, “İpatlama”, “Qayışagirmə”, “Heykəl”, “Ağactutma”, “Bəli-xeyr”, “Dilarənin anası”, “Şah-vəzir”, “Şətər”, “Traktor”, “Çömçəxatun”, “Yağ yağışım”, “Kosa gəlin”, “Əkinçi” (Toxumsəpən), “Löppü”, “Son hərfə görə söz demə”, “Ortada siçan”, “Kəndir”, “Qələbə”, “Çıqqa”, “Əlimi siçan dişlədi”, “Fincan-fincan” və s. kimi onlarla oyunun adını çəkə bilərik. Bunların bir çoxu nəinki uşaqların, hətta vaxtı ilə

bu oyunu oynamış böyüklərin belə yaddaşından silinib getmək təhlükəsi ilə üz-üzədir.

Uşaq oyunları barədə tədqiqatçı Vaqif Vəliyev yazır: "Azərbaycan şifahi xalq ədəbiyyatında uşaq oyunları ilə əlaqədar olaraq oyun nəğmələri də uşaq folklorunun bir hissəsini təşkil edir". Firidun bəy Köçərli "Balalara hədiyyə" kitabında bu haqda məlumat vermişdir. Vaqif Vəliyev uşaqların oynadıqları oyunlarda qaydalar iştirakçılar barədə də fikirlərini bildirir və yazır: "Uşaq oyunlarının şeirlə birləşməsi, heç şübhəsiz ki, oyunda bir qayda yaratmaqla, onda iştirak edənləri məşğul etmiş və oyununu yadda saxlanılmasına kömək etmişdir. Şeirlə olmayan oyun sözləri tez unudulmuş, onları yadda saxlamaq mümkün olmamışdır". (14, s. 402; s. 172, s. 182)

Keçmişdə oynamaq üçün materialları uşaqlar özləri əldə edirdilər. Məsələn, qızlar parçalardan gəlincik, qarğıdan nehrə, oğlanlar at hazırlayırdılar və s.

Sonralar müxtəlif ölkələrdə fosfor, plastik, parçadan hazırlanan kuklalar (gəlinciklər) uşaqların həyatında əsaslı yer tutdu. Qeyd etmək olar ki, adətən kuklalara milli geyimlər geydirilir.

Uşaq oyunları böyüməkdə olan uşaqların şəxsiyyətinə, xasiyyətinə uyğunluğu xarakterizə edir.

Qədim Yunanıstanda Romada yeni doğulmuş uşaqlara daş bağışlayırdılar. Moskvanın kənarında yerləşən Sergiyev şəhərində unikal  uşaq oyuncaqları muzeyi fəaliyyət göstərir. Muzeydə 100 mindən çox eksponat vardır. (15, s. 47)

Müasir dövrdə uşaqların tərbiyəsində, onların milli ruhda, vətənpərvər böyüdülməsində ta uşaqlıqdan icra etdikləri fiziki oyunların müstəsna rolu vardır.

Etnoqraf Hacı Qadir Qədirzadə yazır: Uşaqların tərbiyəsində, onların fiziki və zehni inkişafında müxtəlif oyunlar başlıca yer tuturdu. Oyunlar uşaqların yaşına uyğun qurulurdu. 7-8 yaşlı uşaqların oyunları cinslərə görə fərqlənmirdi. Bu yaşda daha çox "Evcik-evcik", "Siçan-pişik", "Bənövşə", "Qəcəmə-daş" və s. sadə oyunlar oynanırdı. Sonrakı yaş mərhələsində oğlan uşaqları daha çətin oyunlar oynayırdılar ki, qızlar belə oyunlarda iştirak edə bilmirdilər. Oğlanların oyunlarında meydan əsas yer tuturdu. Oyunlarda istifadə edilən başlıca alətlər: daş, ağac, qayış, top, ip, atla bağlı oyunlarda at və s. idi.

Oğlan uşaqları qızlardan fərqli olaraq 7-8 yaşından başlamış müxtəlif meydan oyunlarında iştirak edirdilər. Belə meydanlar məhəllənin və ya kəndin mərkəzində kişilərin toplaşdığı yerdə olurdu.

"Qayışa girmə", "Cızığa salma", "Atlardan kimin atı", "Kavur, Saleh, Mindilli" və s. bu kimi oyunlar uşaqlarda dözüm, mətanət, kollektivin mənafeyini güdmək kimi mühüm cəhətlər aşılayırdı. Hərbi oyunu xatırladan "Qalaşəngi", "Ölü yerinə girmə" və s. onlardan strateji mövqe tutmaq, taktiki keyfiyyətlər tələb edilirdi.

Uşaqların zehni inkişafında "Yerüstü şahmat", "Cızığa düzmə", "Lağ-lağ" kimi oyunlar mühüm rol oynamışdır. Şeir forması sözlərlə müşayiət olunan oyunlar isə fiziki hazırlıqla yanaşı, nitq mədəniyyətinin inkişafına böyük təsir göstərirdi:

“Əzəli başdan gərək”, “İllə-illə”, “Hostana” və s. bu tip oyunlardandır. (16, s. 93) Oyunlar uşaqların fiziki, sosial-emosional, idraki, nitq və s. inkişaflarına əhəmiyyətli təsir göstərir. Uşaqlar gələcəkdə yerinə yetirməli olacaqları bir çox rolları məhz oyunlar vasitəsilə öyrənir, mənimsəyirlər.

Uşaqlar üçün oyunlar müəyyənləşdirərkən aktiv oyunlara daha çox üstünlük verilməlidir. Qaçdı-tutdu – hərəkətli uşaq oyunlarındandır. Püşkatmada axıra qalan oyunçu digərlərini qovur. Kimə çatıb əli ilə toxunarsa, bu dəfə həmin iştirakçı oyunçuları qovmağa başlayır. Oyun beləcə davam edir. (17, s, 141) Kompüter oyunları passiv oyunlardır. Uşağın inkişafına mənfi təsir göstərdiyi üçün onlar yolverilməzdir.

XX əsrin ikinci yarısından başlayaraq milli uşaq oyunlarının bir qismi unudulmuş, uşaqların həyatına daxil olan yeni oyunlar isə uşaq oyunları sırasına daxil olmuşdur.

Müasir Azərbaycanda uşaqların, gənclərin sağlam həyat tərzi sürmələri idmanın müxtəlif növləri ilə məşğul olmaları üçün geniş şərait yaradılır. 2014-cü ilin əvvəllərində ölkədə idman qurğularının sayı 10,6 minə çatmışdı. Ölkədə hər il yeni idman kompleksləri, stadionlar, üzgüçülük hovuzları tikilib istifadəyə verilir. İdmanın futbol, voleybol, şahmat, dama, yüngül atletika, basketbol, sərbəst güləş və digər növlərinə daha çox maraq göstərirlər.

## 2.6. Uşaqların tərbiyəsi

Ailədə uşağın şəxsiyyətinin formalaşmasında ailə üzvləri əsas rol oynayırlar. Bu bir həqiqətdir ki,  insanın xarakteri-

nin, əməyə, mənəvi aləmə, ideya və mədəniyyət sərvətlərinə münasibətinin əsasları ailədə formalaşır. Yəni ailə həyatı şəxsiyyətin inkişafına, formalaşmasına hərtərəfli təsir göstərir. Belə ki, ailənin tərbiyə imkanları, xüsusilə valideynlərin və uşaqların qarşılıqlı əlaqəsi ilə müəyyən olunur. (1, s. 578)

Birləşmiş Millətlər Təşkilatının (BMT) "Uşaq hüquqları üzrə konvensiyası"nda 18 yaşa qədər olan hər bir şəxs uşaq sayılır. 19 may 1998-ci ildə qəbul edilmiş Uşaq hüquqları haqqında Azərbaycan Respublikası Qanununa əsasən ölkəmizdə də uşaq dövrü 18 yaşına qədər olan müddəti əhatə edir. (2, s. 34)

Uşaqlıq dövrünün inkişaf xüsusiyyətlərinə nəzər yetirərkən mütəxəssislərin fikirlərinə əsaslanaraq qeyd edə bilərik ki, erkən uşaqlıq dövrü uşağın doğulduğu gündən altı yaşına qədər olan dövrüdür. Valideynlər, himayədarlar və mütəxəssislər bu dövrdə uşaqlarla çox ehtiyatlı davranmalıdırlar. (3, s. 18-19)

Erkən uşaqlıq dövründə uşaqların idraki inkişafı başlayır. Tədqiqatçılar göstərir ki, uşaqlar doğulduqları gündən hər şeyi dərk edir, ətraflarında nələrin baş verdiyini anlayırlar.

Erkən uşaqlıq dövründə körpələrin əksəriyyəti hərəkət edən əşyaları izləyir, yüksək səsə reaksiya verir, rənglərin parıltısını və tonunu fərqləndirirlər. Onlar hətta bəzi hadisələri əvvəlcədən təxmin edə bilirlər. Altı aylıq körpələr isə artıq ətrafda nələrin baş verdiyini başa düşürlər, valideynlərini tanıyır, kənar adamlardan qorxur, habelə hərəkətdə olan və hərəkətsiz əşyaları fərqləndirməyi bacarırlar.

Dörd, yeddi aylığında isə idraki inkişaf onların öz adlarını tanıması və adlarını çəkərkən dərhal buna reaksiya verməsi ilə müşayiət olunur.

İdraki inkişaf doqquz aylığında körpələrin bəzi hərəkətləri və jestləri təqlid etməsinə imkan verir. Bu dövrdə körpələr “yox”, “olmaz” və “sakit ol” kimi sadə ifadələri başa düşürlər. On iki aylığında körpələrdə təxminən bir iki sözdən ibarət lüğət fondu da formalaşır. Məsələn, körpələr bu mərhələdə “ana”, “ata”, “nənə”, “baba” deyə bilirlər, bəzi heyvanların səsini tanıyırlar.

Körpələr bu mərhələdə bəzi qadağaları da başa düşür, hansı hərəkətlərin düzgün, hansının yanlış olduğunu bilir, “xahiş edirəm”, “çox sağ ol” kimi sözlərin mahiyyətini anlayırlar.

İki yaşından sonra uşaqda idraki inkişaf daha da sürətlənir. İki yaşında uşaqların 100-150 sözdən ibarət lüğət fonduna malik olması normal inkişaf əlamətidir. Bu dövrdə onlar hər gün ən azı 10-15 söz öyrənə bilirlər. Uşaqlar bu yaşda emosiyaları da başa düşür, məsələn, sevgi, inam, qorxu emosiyalar göstərə bilirlər. Onlar məişət həyatının bəzi tərəflərini anlamağa başlayırlar, məsələn, dükanda alış-veriş etməyi, vaxtı deməyi öyrənir, onlara kitab oxunmasını istəyə bilirlər. (4, s. 21)

Erkən uşaqlığın məktəbəqədər dövründə (üç-altı yaş arasında) baş verən digər idraki irəliləyiş uşaqlarda fantaziyalar qurmaq və yadda saxlamaq bacarığının formalaşmasından ibarətdir.

Erkən uşaqlıq dövründə uşaq inkişafında bir çox əhəmiyyətli irəliləyişlər baş verir: onlar gəzməyi, əşyaları tutmağı və yeni sözləri öyrənirlər. Bu dövrdə uşağın sosial-emosional inkişafında baş verən digər əhəmiyyətli irəliləyişlərdən biri də onda özünüdərk hissinin inkişafıdır. Bu dövrdə uşaqlar "qaçdı-tutdu", "gizlənqaç", yaxud futbol kimi oyunları oynamağı bacarırlar. Ümumiyyətlə, bu yaşlarında uşaqların həvəs göstərdikləri oyunlar qrup şəklində olan oyunlardır. Belə oyunlarda onun qaydalarının tərtibi uşaqlarda sosial bacarıqların inkişafına da səbəb olur.

Beş yaşından yeddi yaşına qədər olan dövrdə uşağın düşüncəsində əhəmiyyətli dəyişikliklər özünü göstərir. Dəyişikliklər məktəbin ilk illərində də uşağı müşayiət edir. Uşaq intellektinin inkişafı sahəsində aparılan tədqiqatlara əhəmiyyətli töhfələr vermiş psixoloq Piyaje uşaqların bu dövrünü intuitiv dövr adlandırır. Çünki bu dövrdə uşaqlar baş verən hadisələrə münasibətdə məntiqə deyil, intuitiv olaraq öz qavrayış təcrübələrinə əsaslanırlar. Lakin eyni zamanda problemlərin həlli barədə düşünməklə məntiqi və əməli düşüncə qabiliyyətlərini də inkişaf etdirirlər. Orta uşaqlıq dövründə uşaqlar tədricən fantaziyalardan məntiqi, sistemli düşüncələrə keçirlər. Dil, qavrayış və mücərrəd qabiliyyətinin inkişafı uşağa oxumağa, mürəkkəb və yaradıcı fikirlərini ifa etməyə imkan verir.

Yeniyetməlik dövrü on iki yaş ilə on səkkiz yaş arasındakı dövrü əhatə edir. Yeniyetməlik dövrü uşaqlıq dövrü ilə böyüklük dövrü arasında keçid dövrü kimi qəbul olunur.

Yeniyetməlik dövründə gənclərdə tədricən məsuliyyət hissi də baş qaldırır.

Yeniyetmələrin idraki bacarıqları inkişaf etdikcə, ətrafda baş verənlərdən agah olduqca onlar tədricən valideynlərində, məktəbdə, həmyaşıdlarında, müəllimlərində, ümumən isə cəmiyyətdə və özlərində müşahidə etdikləri nöqsan və çatışmazlıqların tənqidçisinə çevrilirlər. Yeniyetməliyin ilk dövrlərində, yəni 12-14 yaşlarında yeniyetmələrin fikirləri ancaq özlərində cəmlənir. Onlar elə bilirlər ki, onların etdikləri hər bir şey təkrarolunmazdır. 12-17 yaşlar arasında onların sosial-emosional inkişafında bir çox dəyişikliklər baş verir. Bu dövrdə uşaqların əsas missiyası öz şəxsiyyətlərini formalaşdırmaqdır. (5, s. 29)

Özünəhörmət və özünüdərk hissi yeniyetmələrin şəxsiyyət kimi formalaşmasına təkan verir. Digərləri ilə qarşılıqlı münasibət mühitində onların xasiyyətləri formalaşır. Ailədə uşaq doğulandan başlayaraq həyatlarının bütün anlarında valideynlərinin nəzərində həmişə uşaq sayılırlar. Azərbaycanda hər il təqribən 165643 nəfər uşaq doğulur. (6)

Ağacı yaş ikən uşağı beşikdən. (7, s. 24) Övlad Allah payıdır. (8, s. 40) Övladın böyüyü  atanın mabədididir. (9, s. 130) Övlad can yanğısıdır. (10, s. 137) Sözün doğrusunu uşaq deyər (11, s. 142) Övladı olmayanın bir dərdi var, övladı olanın iki. Böyük nə eyləsə, kiçik onu götürər. Ata olmaq asandır, atalıq eləmək çətin. Övladının uğuru üzünə gülsün (12, s. 44) və digər atalar sözləri əsrlər boyu xalq arasında valideyn məsuliyyətinin böyüklüyünü sübut edir.

Düzgün tərbiyənin əsasında valideyn (himayədar) və uşaq arasında “qarşılıqlı əməkdaşlıq” münasibəti dayanır. Uşaqla əməkdaşlıq münasibətlərini qurmaq üçün onunla söh-

bət nəticəsində hər iki tərəf üçün mümkün olan yol seçilir. Bundan başqa, valideyn uşaqla mehriban münasibət qurmaq üçün qoyduqları qadağaların real olub-olmadığını nəzərə almalıdırlar. Bundan ötrü tələblərin aydın qoyulması, həmçinin qaydalara, tələblərə qulaq asdığı üçün uşağın təriflənməsi, ona seçim etmək üçün bir neçə alternativ variantın təqdim edilməsi kimi qarşılıqlı əməkdaşlıq davranışlarına üstünlük vermək lazım gəlir. Valideynlər uşaqlarla mübahisə etməməli, onları qətiyyən utandırmamalıdırlar. Xüsusilə başqalarının yanında bu yolverilməzdir. Bundan başqa, valideyn qaydalar, tələblər və qadağalar qoyarkən onların mahiyyətini və əsas məqsədini uşaq üçün aydın ifadə etməlidir. Uşaq xətalarının islahında, böyüklərin tanıdılmasında, onların hədiyyə seçimində və s. valideynlər uşağın sərbəstliyinə xələl gətirən davranışlardan çəkinməlidirlər. Qaydaları müəyyənləşdirərkən uşağa seçim imkanının yaradılması vacibdir.

Uşağa iş tapşırarkən onun bu işi tamamlaması izlənilməlidir. Bunun üçün diqqətli olmaq, eyni zamanda müşahidə prosesinə vaxt ayırmaq lazımdır. (13, s. 38-39)

Azərbaycanın dahi şairi Nizami Gəncəvi “Xəmsə”də oğluna müraciət edərək yazırdı:

Qəflətdə oynama, qeyrət vaxtıdır,
İndi hünər vaxtı, şöhrət vaxtıdır. (14, s. 3)

Əlbəttə, uşaqlarla qarşılıqlı münasibətdə uşağın fikirlərinə və düşüncələrinə hörmətlə yanaşın ki, problemi olanda hər dəfə sizin yanınıza gələ, problemlərini sizinlə müzakirə edə bilsin. Uşaqları narahat edən məsələlər biz böyüklər üçün adi, heç bir narahatlığa səbəb olmayan məsələlər kimi görünsə də,

uşaqlar üçün bütün bunlar az qala həyati əhəmiyyətlidir. (15, s. 1276-1278)

Məhz buna görə də uşaqların sizinlə bölüşməyə çalışdıqları problemlərə laqeyd yanaşmayın, onları ciddi dəyərləndirin. Əgər belə hallar baş verərsə, uşaq sizinlə ünsiyyət qurmaqdan çəkinər və onu narahat edən məsələlərin müzakirəsi üçün təkrar sizin yanınıza gəlməyə bilər. Bu isə sizinlə uşaq arasındakı ünsiyyətə son qoyar.

Uşaqlara əvvəlcədən izah edilən məhdudiyyətlər, qaydalar və onların nəticələri uşaqlarınızın düzgün tərbiyə olunmasına böyük kömək göstərəcəkdir. (16, s. 1754-1758)

Uşaqlara erkən yaşlarından məsuliyyətli olmağı öyrətmək, onların gələcək həyatlarının uğurunu təmin etməkdən ötrü çox mühümdür.

Bununla yanaşı, uşağın məsuliyyəti müqabilində müəyyən edilmiş mükafatla onun yaşı, inkişaf səviyyəsi, fiziki qabiliyyəti, potensialı bir-birini tamamlamalıdır. Uşaqlara məsuliyyətli olmağı öyrətmək üçün məsuliyyətli davranışları ilk növbədə özünüzdə əks etdirməlisiniz ki, uşaq da sizdən ibrət alıb öyrənə bilsin. Məsələn, uşağa verdiyiniz sözün üstündə durun, vaxtında gəlin və ya sizə həvalə olunan işi vaxtında tamamlayaraq, uşağa nümunə göstərin.

Məsuliyyətli olmağın gələcəkdə ona hansı üstünlüklər gətirəcəyini izah edin. Eyni zamanda böyüdükcə məsuliyyətlərinin yaşlarına uyğun şəkildə necə dəyişəcəyini onlara başa salın. (17, s. 275) Hər hansı bir işi görərkən uşaqlarınızın sizə kömək etməsinə şərait yaradın. Çalışın ki, uşaqlarınız özlərinə qulluq etdikdə, ev işlərinə kömək göstərdikdə, özlərini tər-

biyəli apardıqda, səbirli olduqda bir sözlə nümunəvi davranışlar onların yadında qalsın və gələcəkdə yenidən təkrarlanaraq həyat tərzinə çevrilsin. (18)

İdraki inkişaf prosesində uşaqlara başqalarına hörmət etməyin mənasını anladarkən onlar artıq hörmət etməyi öyrənirlər. Böyüklərin, müəllimlərin hərəkətlərinə diqqət, düzgün davrandıqları zaman tərif, əks halda isə irad eşitmələri də bu hissin inkişafına kömək göstərir. Çox önəmli bir məqamı yadda saxlamaq lazımdır: uşaqlıqda hörmət edilən uşaq böyüyərkən özü də başqalarına hörmət edir.

Böyüklərlə uşaqlar arasında münasibətlər nə qədər sevgi üzərində qurularsa uşaqlar hörmət etməyi və sevməyi bir o qədər dərindən öyrənərlər.

Böyüklərin uşağa göstərdiyi hörmət onun digər böyüklərə göstərdiyi hörmətin səviyyəsinə təsir edir. Siz uşağa nə qədər hörmət etsəniz o da həyatında olan digər insanlara o qədər hörmət göstərəcəkdir.

Buna görə də uşağı heç vaxt utandırmayın, məsxərəyə qoymayın və təhqir etməyin. Valideynin üstünlük verdiyi dəyərlər uşağın dəyərlər sisteminin formalaşmasına böyük təsir göstərir.

Uşağınızın dostunun, rəfiqəsinin olması onun hərtərəfli inkişafı üçün əhəmiyyət daşıyır.

Kimlərlə dostluq etdiyini öyrənmək üçün övladınızın dostlarını evə dəvət edin. Adətən valideynləri dost olan uşaqlar bir-biri ilə daha yaxından dostluq edirlər. Buna görə də ətrafda sosial normalara zidd davranışlar nümayiş etdirən, məsələn, oğurluqla məşğul olan, zərərli vərdişləri olan (siqaret

çəkən, içki içən, narkotik maddə qəbul edən) uşaqlar varsa, övladlarınızın onlarla görüşünə icazə verməyin (19, s. 42)

Dostların, rəfiqələrin olmaması uşağın depressiyadan, özünəqapanma hissindən əziyyət çəkməsinə, inkişafında müəyyən gerilələmələrin olmasına dəlalət edə bilər.

Valideynlər övladlarında qarşılıqlı təmasın yaranmasına, inkişafına şərait yaratmalıdırlar. Gün ərzində valideyn uşağı ilə danışmağa, onunla oynamağa xüsusi vaxt ayırmalıdır. Bu vaxt ərzində nə televizor, nə də telefon zəngləri ona mane olmamalıdır.

Valideynlər uşaqlar üçün güzgü kimidirlər: uçaq valideynlərinə baxır və özünü onlarda tapır. Valideynlərin uşaqlara olan səmimi münasibəti uşaqların mövqeyinin formalaşması amilinə mühüm təsir göstərir.

Valideyn uşağın fikirlərinə və düşüncələrinə hörmətlə yanaşmalıdır ki, problemi olanda o hər dəfə sizin yanınıza gələ, problemlərini sizinlə müzakirə edə bilsin.

Uşaqlara erkən yaşlarından məsuliyyətli olmağı öyrətmək, onların gələcək həyatlarının uğurunu təmin etməkdən ötrü çox mühümdür. Bununla yanaşı, uşağın məsuliyyət həddi və məsuliyyəti müqabilində müəyyən edilmiş mükafatla onun yaşı, inkişaf səviyyəsi, fiziki qabiliyyəti, potensialı bir-birini tamamlamalıdır.

Uşaqlar özlərinə qulluq etdikdə, ev işlərinə kömək göstərdikdə, özlərini tərbiyəli apardıqda, səbirli olduqda, bir sözlə nümunəvi davranışlar nümayiş etdirdikdə onları tərifləyin ki, bu davranışlar onların yadında qalsın və gələcəkdə yenidən təkrarlanaraq həyat tərzinə çevrilsin. (20, s. 40)

Valideynlər, himayədarlar, uşaq inkişafı üzrə mütəxəssislər bilirlər ki, qız uşaqları oğlanlara nisbətən daha tez yetginləşirlər. Həm qızlar, həm də oğlanlarda cinsi yetişkənlik prosesinin inkişaf surəti fərdi xarakter daşıyır. Bioloji inkişafın ardıcıllığı bütün yeniyetmələr üçün eynidir.

Uşaq dünyabaxışının zəifliyi onun güclü təqlidliyə meyl etməsinə səbəb olur. Buna görə valideyn və tərbiyəçilər həmişə bu xüsusiyyəti nəzərə almalı, hərəkət və davranışlarında, adamlara münasibətlərində, danışıq zamanı uşaqlara nümunə olmağa çalışmalı, uşağın fərdi yaradıcılıq fəaliyyətinin inkişaf etməsinə çalışmalıdırlar. Uşaq eşitdiyi pis sözü də çox tez təkrar edir. Valideynlər uşağı yalnız onunla məşğul olanda və ya onu öyrədəndə deyil, həm də ona göstərişlər verəndə, iş buyuranda da uşağın tərbiyəsinə diqqət verməlidir. (21, s. 31)

Əvhəndi Marağayi "Cami-cəm" əsərində yazırdı:

"Özün əkdiyinə, ey ata hər an,
Yaxşıdır ki, özün bağban olasan...
Oğluna öyüd ver olsun işgüzar,
Axı, qalan odur" səndən yadigar.
... Oğluna pis deyib söymə dünyada,
Onda söyüş söyən olacaq o da...
Nazla böyüməsin qoy çox da övlad,
Onu iş-gücdən də eyləmə azad
Sonra çətinliyə düşərsə əgər,
Bu möhnət, bədbəxtlik onu məhv edər. (22, s. 23)

Bu misralar ailə tərbiyəsinin, valideynin şəxsi nümunəsinin, tərbiyə üsulunun dürüstlüyünün vacibliyini göstərir. Uşaqlarda hər bir aparıcı fəaliyyət onların münasib yaş üçün

səciyyəvi olan keyfiyyət və xüsusiyyətlərinin meydana gəlməsinə səbəb olur. Bir fəaliyyət növündən digərinə keçid isə yeni yaş dövrünün başlanmasına dəlalət edir.

Məktəbəqədər yaş dövründə aparıcı fəaliyyət – oyun, məktəb yaşı dövründə isə təlimdir.

Psixoloqların təbirincə, uşağın doğum günündən 1 yaşınadək olan dövrü çağalıq, 1 yaşdan 3 yaşadək körpəlik, 3 yaşdan 6 yaşadək məktəbəqədər yaş, 6 yaşdan 10 yaşadək kiçik məktəb yaş, 11-15 yaş arası yeniyetməlik, 15-30 yaş arası gənclik dövrü davam edir (23).

Bir atalar sözündə deyilir: heç bir ata övladına gözəl tərbiyədən qiymətli hədiyyə verə bilməz. Odur ki, “övladlarınızla xoş rəftar edin, onlara gözəl tərbiyə verin”, - atalar sözləri də əbəs deyilməyib.

Benet Sula “Necə yaşayasan yüzü haqlayasan (Qafqaz xalqlarının həyat tərzi)” əsərində yazır ki,gənclər 17 yaşına çatanda məktəbi bitirir və özlərinə peşə seçirlər. Kişi mərd, cəsur, məsuliyyətli, sadiq, vəfalı, haqq-ədalət tərəfdarı, “sözünün ağası” olmalıdır. Qafqazlılar heç vaxt verdikləri sözə naxələf çıxmazlar. Hətta valideynlərinin onların yerinə kiməsə verdiyi sözü də yerinə yetirirlər. Sözünün üstündə durmayan adam həm özünü, həm də ailəsini rüsvay etmiş sayılır.

Uşaqlara ailədə böyük sevinc, xoşbəxtlik olsa da, onların tərbiyəsi məsələsi Qafqazda çox ciddidir. Məsəl var, deyərlər: “Uşağım əziz, tərbiyəsi ondan da əziz”. Sözün həqiqi mənasında əgər uşağa həddən artıq azadlıq verilərsə, həmin ailə kəskin tənqidə məruz qalır. Bununla da valideynlərə xa-

tırladırlar ki, uşaqların tərbiyəsi qayğısına daha artıq qalmalıdırlar. (24, s. 190-191)

Yaşlı nəslin tövsiyəsidir ki, ailədə bir neçə övlad böyüyərsə, onları bir-birindən ayırmaq, birini həddindən artıq tərifləmək, əzizləmək, digərini isə pisləmək olmaz, yaxud düzgün tərbiyə bizim xoşbəxt qocalığımız, pis tərbiyə gələcək dərdimiz, qəmli göz yaşlarımız, başqa adamların qarşısında xəcalətimizdir. İlk tərbiyə ana bətnindən başlayır. Adətən, hamilə qadın düşünür ki, övladını azad etdikdən sonra onun tərbiyəsi ilə məşğul ola bilər. Bu fikir doğru deyildir. Ana övladını bətninə düşdüyü gündən işıqlı həyata hazırlamalıdır. Bu hazırlıq prosesi sağlam mühitdə keçirilməlidir.

Valideynlər uşaqların yemək və yuxu qaydalarını da tənzimləyirlər. Çünki uşaqların bəziləri asanlıqla yuxuya gedirlər. Bir çox uşaqlar isə yatmaq istəmir, hay-küy salırlar. Gündüz uşaqları nahar yeməyindən sonra yatızdırmaq məsləhətdir. Lap körpə uşaqları qucaqda oynada-oynada, 2-3 yaşlı uşaqları isə əlindən tutub söhbət edə-edə yataq yerinə aparmaq daha yaxşı nəticə verir.

Uşaqların bir çoxu yatağa sevimli oyuncaqlarını aparmağı xoşlayırlar. Buna mane olmaq lazım deyil. Çünki, uşağın oyuncaqlarının içərisində elələri olur ki, sakitləşdirici təsir göstərir, uşaq özünü onunla tənha hiss etmir.

2 yaşlı uşaqların gecə yuxusu orta hesabla 10-12 saat, gündüz yuxusu isə 1-2 saat olmalıdır. Əgər uşaq az yatırsa, onun səbəblərini araşdırmaq lazımdır. Elə uşaqlar var ki, 2 yaşından sonra qorxu hissindən gec yuxuya gedirlər. Bəzi valideynlər çox vaxt uşağı tez yatırmaq üçün onu qorxudurlar:

“Bax xoxan gəlir, tez gözünü yum, yat”. Uşaq qorxudan tez gözlərini yumub, qısılır. Uşağı yatızdırmaq üçün bu cür metoddan istifadə etmək düzgün deyildir, çünki bu vəziyyətdə səksəkəli yuxuya getmiş uşaq gecə tez-tez oyanır, özünü pis hiss edir, uzun müddət yuxuya getmir ki, bu da onun normal inkişafına mənfi təsir göstərir, ailədə əsəb gərginliyi yaradır. (25, s. 30)

Yata bilməyən, yatmaq istəməyən uşaqlara nağıl terapiyası ən dəyərli vasitəsir. Belə ki, nağıllar insanlarda böyük emosional təkan yaradır. Uşağın qorxduğu nağılları gecə danışmaq olmaz. Nağıl elə şəkildə qurulmalıdır ki,  dinləyicilər özlərini cəsarətli, güclü hiss etsinlər, qorxuya qalib gəlsinlər. Bu məqsədlə uşağa müsbət təsir edən nağıllar danışılır. Nağıl terapiyası keçmişdə baş verən hadisələri dəyişdirməyə və əvəzində, müsbət nəticə verə biləcək təsəvvürlərin özünə yer almasına imkan yaradır. Bu, hadisənin neqativ bir hal kimi gələcəkdə xatırlanması və ondan irəli gələn mənfi emosiyaların yaranmasının qarşısını alır.

Uşaqların mənəvi tərbiyəsində musiqi terapiyası da əsas yer tutur. Musiqi müsbət, sağlamlaşdırıcı və sakitləşdirici təsirə malikdir. Xüsusi olaraq seçilmiş musiqi parçaları müəyyən dərəcədə uşağı sakitləşdirir, ona rahatlıq gətirir və öz daxilindəki münaqişədən onu uzaqlaşdırır. Klassik musiqi uşağa müsbət təsir edir. Uşağın yatmağa hazırlandığı və yuxulaması vaxtı musiqinin təsir qüvvəsi xüsusilə effektlidir. Bu, uşağın əsəb sisteminin sakitləşməsinə kömək edir.

Uşaqlarda rəqs hərəkətlərinin təbliği bədən hərəkətlərini və musiqini birləşdirir. Uşaq öz qorxularından uzaqlaşır, öz

bədəninin hərəkətlərini anlayır, dərk edir, öz hissləri və emosiyalarına düzəlişlər edir.

Oyuncaqlar uşaqların yuxu rejimində müəyyən yer tutur. Qızlar yuxudan yarım saat qabaq öz oyuncaqlarını yatmağa qoyur, oyuncaqların əllərini və ayaqlarını yuyur. Sonra oyuncaqlarla birgə yataq otağına gedir və öz çarpayılarına uzanırlar. İşıq sönən kimi danışmaq qadağandır. Belə hərəkət uşağın yuxuya getməsinə təsir edir.

Uşaqların təhlükəsizliyini təmin etmək valideynlərin, müəllimlərin həmişə diqqət mərkəzində olmuşdur. Uşaqlara qarşı zorakılıq, etinasızlıq hallarının olmaması, uşaqları düzgün yönümdə təhsilli, əməksevər, intizamlı böyütmək, cəmiyyət üçün yararlı övlad tərbiyə etmək zəruridir.

Tarixi inkişafda xalq özünütərbiyə, tərbiyə və qarşılıqlı tərbiyə sahəsində böyük təcrübə əldə etməklə tərbiyənin müxtəlif prinsiplərini hazırlamışdır. Xalq tərbiyə məsələlərinin özəyi – aparıcı adətlər, yasaqlar, inamlar və s. cəhətlər olmuşdur.. Ənənəvi tərbiyə üsulunun əsas cəhəti onun ümumxalq xarakteri, milli tərbiyə məsələlərində isə uşaqların cinsə görə fərqlənməsi mövcud olmuşdur.

Qızların hərtərəfli formalaşmasını "qızlar bulağından su içmək"lə əlaqələndirirdilər. (26, s. 91)

Uşaqların əmək tərbiyəsinə erkən yaşlardan başlayırdılar. Hələ 3-5 yaşlarında onlara kiçik işlər görməyi, müəyyən şeyləri aparıb-gətirməyi öyrədirdilər. Həmin dövrdən başlayaraq uşaqlara çox ciddi yanaşır, onlara müxtəlif vərdişlər aşılayırdılar. Ümumi davranış qaydaları: süfrə başında oturmaq, oyunlarda iştirak etmək, yaxşını pisdən seçmək, qohum-

ları tanımaq, sərbəst soyunub-geyinmək, yuyunmaq, düzgün danışmaq və s. öyrədilirdi. Bu mərhələdə uşaqların tərbiyəsində əsas rolu ailə oynasa da,  uşağın digər uşaqlarla ilkin şüurlu münasibəti onlarda yoldaşlıq, dostluq, kollektivçilik (xüsusən oyunlarda) ruhu aşılayırdı.

Oğlan uşaqlarının əmək tərbiyəsinə 7-8 yaşından başlayırdılar. Onlar mal-heyvanın suvarılması, naxıra aparılması, tövlənin təmizlənməsi, torpağın əkin üçün hazırlanması, suvarılması, qış odunununun hazırlanması və s. işlərdə yaşlılara kömək edirdilər. (27, s. 92)

Uşaqla əməkdaşlıq münasibətlərini qurmaq üçün onunla valideyn söhbət edir və hər iki tərəf üçün mümkün olan yolu seçir.

Düzgün tərbiyənin digər xüsusiyyətlərindən biri də uşağa iş tapşırarkən onun bu işi tamamlaması izlənilməlidir. Bunun üçün diqqətli olmaq, eyni zamanda onu müşahidə etmək lazımdır.

Ailədaxili münasibətlərin keyfiyyəti uşağın özünə inamlı və xoşbəxt böyüməsində böyük rol oynayır. (28, s. 36)

Uşağın tərbiyəsinin düzgün qurulmasında uşaqları dinləməyi və onunla ünsiyyət qurmağı bacarmaq çox əhəmiyyətlidir. Yaxşı ünsiyyət ailə üzvləri arasında hörməti artırır, bir-birinə inamı gücləndirir, ailədaxili münaqişələri aradan qaldırır. Bütün uşaqlar onlara valideynləri tərəfindən göstərilən sevgidən bəhrələnirlər. Əgər uşaqların hisslərinə, düşüncələrinə, təkliflərinə həssas münasibət göstərilərsə, onda onlar da valideynlərinin sözlərinə qulaq asar, təkliflərini qəbul edərlər. Bunun üçün uşaq ilə valideyn arasında səmimi, açıq və müs-

bət təmasın yaranması nəticəsində onlar bir-birlərinə hər şeyi danışırlar. Uşaqlar valideynləri ilə danışmağa başladıqda və ya dostluq etdikdə isə tərbiyə səmərəli olur.

Uşaqların tərbiyəsində valideynlərin məsuliyyəti xüsusidir. Övlad tərbiyəsi məsələsindən bəhs edən dahi Sədi Şirazi yazır:

Oğlunu bolluğa öyrətsə ata,
Dözməz bir an belə çətin həyata.
... Oğlunu alışdır əməyə hər an
Ki səndən sonra da olsun kamran.
... Övlada yaxşıca tərbiyə versən
Asılı qalmaz o bir ayrı kəsdən.
Övladın yolunda çəkməsən zəhmət. (29, s. 11)

Atalar demişlər: Böyük nə eyləsə kiçik onu götürər.

Oğlan uşağına sənət öyrədərlər və s. (30, s. 107)

Unutmayın ki, uşaq ata-anasından çox zəmanəsinin övladıdır; Heç bir ata övladına gözəl tərbiyədən qiymətli hədiyyə verə bilməz.

Əvhədi Marağayi "Cami-cəm" əsərində yazırdı:

Əvvəl əyri bitən bir cavan budaq,
Zənn etmə qocalsa düzgün olacaq.
Anadan ayrılsa bir quzu əgər
Onun arxasınca canavar gəzər. (31, s. 9)

Əlbəttə 18 yaşınadək uşaqlar valideynlərinin nəzarəti altında olmalıdır.

XII əsrdə Xəqani Şirvani "Divan"ında ailədə anaların zəhmətini, övladlarına müdrik məsləhətlərini qiymətləndirərək yazırdı:

Əgər olmasaydı ana zəhməti,
Qazana bilməzdim heç bu şöhrəti,
... Onun hər sözündən alaram qüvvət,
Ananın hər sözü olur nəsihət.

Şair ata, ana ilə yanaşı, uşaqların tərbiyəsində qohumların da rolunu qeyd edirdi:

Mənə dil qanunu öyrətdi əmim,
Qoymadı səhv edəm, oldu həmdəmim,
O, mənim dayımdı, müəllimimdi,
Həm böyük ustadım, həm də əmimdi.

Ustadların yazdıqları da fikrimizi əsaslandırır ki, uşaqların tərbiyəsində ananın, atanın, yaxın qohumların rolu böyükdür. (32, s. 16)

Ailədə uşaqların sayı onların milli ruhda tərbiyəsi fərdilikdən çox sosial məsələdir. Uşaqlar dövlətin himayəsində olduğu üçün rəsmi dövlət problemidir. Çünki, uşaqlar ölkənin gələcəyinin milli kimliyinin qarantıdır. Bəzən qloballaşma "mədəniləşmə, müasirləşmə" və s. bu kimi adlarla ailə-məişət münasibətlərində transformasiyalar, daha dəqiq desək yadların düşüncə tərzinə meyillilik artır. Xalq tərbiyəsinin özəyi aparıcı adətlər, yasaqlar, inamlar və digər sahələr olmuşdur. Ənənəvi tərbiyə üsulunun əsas cəhəti onun ümumxalq xarakteri daşımasıdır.

Əsrlər boyu Azərbaycanda uşaqların mənəvi tərbiyəsi məsələsinə xüsusi diqqət verilmişdir. Uşaqların fiziki inkişafında yaş xüsusiyyətlərinə uyğun olaraq bir sıra amillərlə yanaşı, milli uşaq oyunları, müxtəlif yarışlar (güləş, at çapma), təsərrüfat fəaliyyəti, qızlar üçün evdarlıq başlıca rol oynamış-

dır. Milli tərbiyə məsələlərində uşaqların cinsə görə fərqlənməsi mövcud olmuşdur.

Uşaqlar da böyüklərin sahib olduqları ləyaqət və fiziki toxunulmazlığa hörmət göstərilməsi kimi eyni hüquqlara malikdirlər. Onların da hüquqları qanun tərəfindən bərabər səviyyədə qorunur və qorunmalıdır. Birləşmiş Millətlər Təşkilatı Baş Katibinin uşaqlara qarşı zorakılıqla bağlı tədqiqatı BMT Baş Assambleyasına təqdim edilən hesabatda 2009-cu ili bütün dünyada fiziki cəzalandırmanın ləğv edilməsi üçün hədəf tarix kimi götürülmüşdür. (33, s. 9) Zorakılıq adətən evdə, məktəbdə, yaxud digər təhsil müəssisələrində uşaq evləri, kimsəsiz uşaq evləri, həbsxanalar və yaxud islahedici müəssisələrində, icmada və s. gözlənilir.

Uşaqların cəzalandırılması vaxtı "adət, ənənə", "intizam" pərdəsi fakt kimi əsas götürülür.

Ailədə uşaqlara qarşı zorakılıq, tez-tez intizam çərçivəsində fiziki, qəddar və ya alçaldıcı cəzalar formasında baş verə bilər. Uşaqlar bu rəftarın nəticəsi olaraq çəkdikləri fiziki və psixoloji ağrıları dilə gətirirlər.

Buna görə də intizamın müsbət və daha effektiv olan alternativ formaları tövsiyə olunur. (34, s. 16)

Əlbəttə fiziki cəzalandırmanın qarşısını almaq sahəsində qanunvericilik, qoruma və önləyici tədbirlər maarifləndirmə və digər tədbirlər cəzalandırmanın qarşısının alınmasını zəruri edir. (35, s. 19)

Ailədə valideynlər uşaqları üçün yaxşı ana və ya yaxşı ata olmaq istəyirlər. Onlar bəzən işlərinin, uşaqlarının və ailənin daha yaşlı üzvlərinin qayğısına qalırlar. Valideynlik zövq

və həzzverici təcrübə olmaqla yanaşı, həm də əsəbiləşdirici də ola bilər. Buna görə də valideynlərin bir qismi stressin öhdəsindən gələ bilmir, münaqişəni həll edə bilmir və əsəblərinə hakim olmayaraq uşaqlara güc tətbiq edirlər. Əlbəttə, zəif ailələrdə baş verən bu kimi hadisələr baş verməsin deyə həm beynəlxalq səviyyədə, həm də ölkə daxilində müəyyən tədbirlər görülür. Azərbaycanda uşaqlar dövlətin qayğısı altındadır. Aztəminatlı ailələrə dövlət yardımı davam edir.

Ailədə uşaqların istirahət etmələri, asudə vaxtlarını səmərəli keçirmələri də valideynlərin nəzarəti altındadır. Bu isə uşaqların tərbiyəsinin tərkib hissələrindəndir.

Uşaqların istirahətinin təmin edilməsini mütəxəssislər pilləkənə bənzədirlər. Bu prosesdə iki əsas məsələ iştirakın dərəcələri və iştirakın natamam təmin edilməsi qeyd olunur. Məsələn iştirakın dərəcələri: uşaq tərəfindən təşəbbüs, yaşlılarla fikir bölüşməsi, uşaq tərəfindən təşəbbüs və idarə olunma, yaşlılar tərəfindən təşəbbüs, uşaqlarla fikir mübadiləsi, uşaqlarla məsləhətləşmə və onları dinləmək, həmçinin iştirakın natamam təmin edilməsi: simvolik, tokenizm, dekorasiya, manipulyasiya nəzərdə tutulur. (36, s. 73)

Ümumiyyətlə, valideynlər istər normal davranışlı, istərsə də inkişafdan geri qalma əlamətləri olan uşaqların inkişafı üzrə fiziki, emosional, sosial, idraki yanaşma üsullarına diqqət yetirirlər. Onlarla uşaqlar arasındakı münasibətlər nə qədər münasib olsa, valideynlərin uşaq və yeniyetmələrin şəxsiyyətinin formalaşmasına təsiri bir o qədər möhkəm və səmərəli olar.

Xacə Nəsrəddin Tusiyə əsaslanaraq qeyd etmək olar ki, uşaq süddən ayrıldıqdan sonra hələ əxlaqı korlanmağa vaxt tapmamış onu tərbiyə etməyə, nizam-intizam öyrətməyə başlamaq lazımdır; uşağı onun təbiətini korlaya biləcək uşaqlarla oturub-durmağa və oynamağa qoymamalı, çünki uşaq ətrafdakıların xasiyyətini tez götürür; uşaqda təmiz idraki qüvvələrdən ən əvvəl utanma, həya əlamətləri özünü göstərir. Deməli, diqqət edilməli, fikir verilməlidir: əgər uşaq həyalıdırsa, əksər halda başını aşağı salıb sırtıqlıq etmirsə bu onun nəcibliyinə sübutdur; bu o deməkdir ki, onun nəfsi çirkin əməllərdən ikrah edib, gözəl şeylərə meyl göstərir. Bu əlamət həmin istedadın uşaqda olduğuna dəlalət edir. Belə isə həmin uşağın tərbiyəsinə fikir verməli, heç bir şey əsirgəməməli, istedadın sönüb getməsinə yol verilməməlidir.

Əlbəttə, uşaqların mənəvi və fiziki sağlamlığını qorumaqla yanaşı onların gələcəkdə geniş erudisiyaya, intellektual gücə, yüksək mədəniyyətə malik, vətənimizə, torpağımıza, xalqımıza sədaqətli, xeyir verən layiqli şəxsiyyətlər kimi böyüdülməsində ailənin, məktəbin, cəmiyyətin böyük rolu vardır.

# III FƏSİL

# AZƏRBAYCANDA UŞAQLARIN TƏHSİLİNƏ VƏ UŞAQ ƏDƏBİYYATINA DAİR

## 3.1. Uşaqların təhsili

Azərbaycanda təhsil insanın, cəmiyyətin, dövlətin inkişafına xidmət edən üstün fəaliyyət sahəsinə, milli zəminə, bəşəri dəyərlərə əsaslanır, dünyəvi xarakter daşıyır. Hər bir xalqın gələcəyi onun təhsili ilə bağlıdır.

Ulu öndər Heydər Əliyevin təbirincə desək, təhsil millətin gələcəyidir. Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir.

Elm idrakın bir forması olmaqla, təbiətin öyrənilməsi, cəmiyyətin və təfəkkürün inkişafı üçün yaradılan biliklər sistemidir. Elmin ictimai vəzifəsi insanlara təbiət, cəmiyyət haqqında dəqiq, dürüst biliklər aşılamaq, onlarda elmi dünyagörüşü formalaşdırmaq və hərtərəfli, kamil şəxsiyyət yetişdirməkdir. Təhsillə elm bir-birinə sıx bağlı olub, vəhdət təşkil edir, ayrılmazlıq yaradır. Biri digərinin inkişafına əsaslı zəmin yaradır və güclü təsir göstərir. Məsələyə etnoqrafik baxımdan yanaşdıqda hər iki sahəni xronoloji ardıcıllıq prinsipinə uyğun olanlarla bir yerdə, eyni başlıq altında vermək məqsədəuyğundur. (1, s. 263)

Azərbaycanda gənc nəslin milli mənlik şüurunu, vətənpərvərlik ruhunu yüksəltmək işində onların təhsil alması xüsusi rol oynayır. Xalq arasında yaşayan deyimlər də fikrimizi

əsaslandırır. “Atası ölən yetim olmaz, savadsızlar yetimdir”. “Övladının uğuru üzünə gülsün” və s. (2, s. 136) Dahi Nizami Gəncəvi oğluna xitabən deyirdi: “Sən ey on dörd yaşlım, hər elmə yetkin!” Bu müraciəti ilə şair on dörd yaşına kimi uşaqlara hər bir elmi ilkin olaraq anlatmağı, elmə yiyələnməyin yollarını dərk etdirməyi tövsiyə edirdi.

Elm gənclərin həyatının açarıdır desək yanılmarıq. Gənc yaşlarından həyat yollarını müəyyənləşdirən gənc nəslin hər bir nümayəndəsi uğurla inamlı, məqsədli addımını müəyyən edir. Xalqımız həmişə gənclərə uğurlar arzulamışlar:

Cavan canından yarıyasan; Cavanların toyunu görək.

Cavanların yaxşı – sorağını eşidək; Cavan canına allah qıymasın  və s. (3, s. 161)

Bu kimi ifadələr günümüzün gündəlik işlənən ifadələrindəndir. Böyük Nizami gənclərə müraciət edərək yazırdı:

Qüvvət elmdədir, başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz
Hər uca rütbədən biliniz, fəqət
Alimin rütbəsi ucadır, əlbət. (4, s. 8)

Ailədə ata ilə bərabər, ananın da özünəməxsus yeri, işgücü, rolu olduğundan ailənin həmin sakininə həmişə ehtiyac duyulur. Müasir ailələrin əksəriyyətində əsasən ailədaxili münasibətlər dədə-baba qaydası ilə nizamlanır.

Ailədə ana uşaqlarını tərbiyə edir, ailədaxili münasibətləri bilavasitə tənzimləyir, bütün davranış, ədəb qaydalarını övladlarına öyrədir. Bütün bu incəlikləri adət şəklinə salır və övladlarına dərk etdirirlər ki, adət insanın ikinci təbiəti, elm, təhsil isə zəngin mənəvi sərvətidir. Bu sərvətin gələcək nəsil-

lərə ötürülməsində, uşaqları ailə və cəmiyyət həyatına hazırlamaq sahəsində isə qadınların gərgin əməyi, xüsusi rolu vardır.

Uşaqların təhsil almaq hüququ barədə Uşaq Haqları Konvensiyasının 28-ci Maddəsində deyilir ki, iştirakçı dövlətlər uşağın təhsil almaq hüququnu tanıyır. 29-cu maddəsində isə qeyd edilir ki, uşağın şəxsiyyətinin, istedadının, əqli və fiziki bacarığının ən tam həcmində inkişaf etdirilməsi vacibdir.

Dünyada təxminən 130 milyon məktəb yaşlı uşaq məktəbə getmir. Onların üçdə ikisi qız uşağıdır. Bu uşaqların təhsil almaq hüququ pozulmuşdur.

Təhsil sosial və inkişafın mərkəzi prinsipidir və aparıcı faktorudur. Uşağın təhsilə olan hüququ bütün uşaqlara aiddir və bu öz növbəsində ayrıseçkilik olmayan və təhlükəsiz mühitdə təhsil almaq kimi nəzərdə tutulur. Öz növbəsində şagirdlərdə də təkmil tərbiyə öndə olmalıdır.

Nəsirəddin Tusi yazır ki, “Ata-anaya, müəllimə həmişə böyük hörmət gözü ilə baxmaq gözəldir”.

XVII əsrdə yaşamış türk səyyahı Evliyə Çələbi yazırdı ki, Təbriz şəhərində 47-yə yaxın mədrəsə var idi. Həmin mədrəsələrdə müxtəlif elmlər tədris olunurdu. Dərsləri çox da məşhur olmayan müəllimlər tədris edirdilər. Həmin mədrəsələr içərisində Şah Cahan mədrəsəsi ən böyüyü idi. Təbrizdə Quran oxunan 20-dək ev mövcud idi. Şəhərdə 7 darülhədis evləri mövcud idi. Alimlər hədisləri öyrədirdilər. Onlar Əlinin sözlərini və 12 imam haqqında Allah onlardan razı qalsın deyə məlumat verirdilər. (5, s. 125)

Təbrizdə uşaqlar üçün 600 evdə məktəb mövcud idi. Həmin məktəblərdən Şeyx Hakkı, Həsən Meymandi, Nağı-xan, Sultan-Həsən, Sultan-Yaqub daha məşhur idi.

Şəhərdə 160 dərviş təkkəsi mövcud idi. Şəms Təbrizi, Bulduk-xan, Zeynəb, Əkkil, Mir Heydər və digərləri tanınmış təkkələr idi.

XIX əsrin ortalarında Şimali Azərbaycanda 713 məktəb və mədrəsə fəaliyyət göstərirdi.

Cənubi Qafqaz məktəblərinin 1829-cu il nizamnaməsi ilə Azərbaycanda qəza məktəblərinin əsası qoyulmuşdu. Nizamnaməyə görə, bu məktəblərin Gəncə, Şuşa, Nuxa, Şamaxı, Quba, Bakı, Naxçıvan və Ordubad şəhərlərində, Qazax distansiyasında açılması təsdiq edildi.

1830-cu ildən başlayaraq müxtəlif illərdə Şuşada, Nuxada, Gəncədə (Yelizavetpolda), Bakıda, Şamaxıda, Naxçıvanda, ikisinifli, həmçinin üçsinifli məktəblər, XIX əsrin birinci yarısının sonunda Şuşa və Şamaxıda 130 nəfərin təhsil aldığı, şəxsi məktəblər açılmışdı. (6, s. 143)

Bütün Cənubi Qafqaz üçün ibtidai məktəb müəllimləri hazırlamalı olan Qori seminariyasında 1879-cu ildə Azərbaycan şöbəsinin yaradılması azərbaycanlı gənclərdən müəllim kadrları yetişdirilməsində tarixi rol oynadı. (7, s. 280)

1878-1881-ci illərdə Göyçay, Altıağac, Salyan və Əliabad kənd məktəbləri açılmışdır. Mərdəkan kənd təsərrüfatı məktəbinin əsası 1896-cı il oktyabrın 27-də qoyulmuşdur.

Azərbaycanın Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Rəşid bəy Əfəndiyev, Firudin bəy Köçərli, Cəlil Məmmədquluzadə, Seyid Əzim Şirvani kimi görkəmli yazıçıları çoxcə-

hətli fəaliyyəti, xalqımızın mədəni inkişafı üçün gözəl nümunə olmuşdur.

XIX əsrin 80-90-cı illərində neft sənayeçiləri savadlı fəhlə və texniklər hazırlanması üçün öz vəsaitləri hesabına Bakıda və Abşeron kəndlərində ibtidai məktəblər açmağa başladılar.

1901-ci ildə H.Z.Tağıyevin təşəbbüsü ilə Bakıda ilk qız məktəbi açıldı. Bu məktəbə 58 nəfər qız qəbul olunmuşdu. Bu qız məktəbinin ilk müdiri Həsən bəy Zərdabinin həyat yoldaşı Hənifə xanım Məlikova idi. 1914-cü ildə Azərbaycanın ibtidai məktəblərində 2 min nəfər, orta məktəblərində isə 100 nəfərə yaxın qadın təhsil alırdı. Ümumiyyətlə, 1914-1915-ci tədris ilində 943 ibtidai məktəbdə 61200 şagird təhsil alırdı. 1915-ci ildə Bakı, Gəncə, Şuşa, Şamaxı, Şəki, Quba, Lənkəran və Naxçıvan şəhərlərində 12 məktəb fəaliyyət göstərmişdi. Bu məktəblərdə 1669 şagird təhsil alırdı.

Lakin qeyd edilməlidir ki, Azərbaycan xalqının maarifləndirilməsi yolunda əsil inqilab Sovetlər quruluşu dövründə baş vermişdir.

1920-ci il aprel-iyun aylarında Lənkəranda olan bütün məktəblər açıldı, əlavə olaraq Şilavar yolunda Abdulla xanın evində oğlanlar, ikimərtəbəli digər evdə qızlar üçün məktəb açdılar (8, s. 30).

1921-1922-ci illərdə Azərbaycanda şəhər əhalisinin 22,1%-i kənd əhalisinin isə 4,5-i təhsilli idi. Şəhərlərdə təhsilli kişilər 29,7%, kənddə 7,2%, qadınlar isə şəhərlərdə 14,5%, kəndlərdə 1,6% təşkil edirdi. Ümumilikdə isə əhalinin 11,2%-i təhsilli olub, kişilər 7,1%, qadınlar 14,1% idilər. 1922-1923-

cü illərdə 1-ci dərəcəli mədəni maarif müəssisələrinin sayı 997, orada təhsil alanlar 82978 nəfər olub, onların 776 nəfəri kənddə təhsil alırdılar. (9, s. 54)

1925-1926-cı illərdə isə mədəni maarif müəssisələrinin sayı 1437, orada təhsil alanlar 148602 nəfər idilər. Yeddiillik məktəblərin sayı 4 olub, cəmi biri kənddə açılmışdı. Ümumi şagirdlərin sayı 1485, o cümlədən kənddə 326 nəfər idi. İkinci dərəcəli məktəblərin sayı 35 olub, onların 12-si kəndlərdə yerləşirdi. Orada oxuyanlar isə 5248 nəfərdən ibarət idi. 942 nəfər isə kəndlərdə təhsil alırdılar. Orta məktəblər isə 52 idi. Onların 5-i kəndlərdə yerləşirdi. Orada oxuyanlar 9839 nəfər olub, 435 nəfəri kəndlərdən idi.

Ali məktəblərin sayı iki idi və Bakı şəhərində yerləşirdi. Orada oxuyanlar 3231 nəfər olub, onların 2207-si kişi, 1024-ü qadınlar idi.

1922-1923-cü illərdə Pedaqoji məktəblərin sayı cəmi 10 olub, orada təhsil alanlar 952 nəfər idi. 1925-1926-cı illərdə pedaqoji məktəblərin sayı 18, təhsil alanlar isə 2300 nəfər idi. (10, s. 275)

1925-ci il mayın 25-də Bakıda Azərbaycan müəllimlərinin birinci qurultayı keçirildi. Qurultayda respublikada yeni məktəb quruculuğu sahəsində qazanılmış ilk nailiyyətlərə yekun vuruldu. (11, s. 1) Yeni məktəb quruculuğunda Azərbaycan pedaqoqları F.Ağayev, A.Əmirov, O.Cəlilbəyova, Ə.Hüseynov, F.Rzabəyli, İ.İsayev, C.Cuvarlinski fəal iştirak edirdilər. Yerlərdə xalq təhsilinin genişləndirilməsi sahəsində S.Axundov (Ağdam), Q.Musayev (Quba), A.Eyvazov (Füzuli) və başqaları böyük iş aparırdılar.

Pedaqoji kadrların hazırlanması və onların maddi vəziyyətinin yaxşılaşdırılması sahəsində görülən böyük iş sayəsində respublikada müəllimlərin sayı 1920/21-ci tədris ilindəki 2611 nəfərdən 1925/26-cı tədris ilində 5232 nəfərə çatmışdı. (12, s. 25)

Məktəblərin və orada oxuyan uşaqların sayı getdikcə artırdı. 1920/21-ci tədris ilində 1 pillə məktəblərin sayı 937, 1926/27-ci tədris ilində 1420-yə, onlardakı şagirdlərin sayı isə 74922-dən 150625 nəfərədək artdı. (13, s.31) Respublikanın bütün məktəblərində 1926/27-ci tədris ilində 1918/19-cu tədris ilindəki 48076 nəfərə qarşı 166528 şagird təhsil alırdı. (14, s. 205)

Bədii sahədə müəssisələrin sayı 1922-1923-cü illərdə 5, iştirakçılar isə 989 nəfər idi. 1925-26-cı illərdə isə onların sayı 6, orada oxuyanların sayı 1642 nəfər idi.

1922-23-cü illərdə hazırlıq kursları müəssisələrinin sayı 1, oxuyanların sayı 982 nəfər olmuşdu. 1925-26-cı illərdə isə onların sayı 3, təhsil alanlar 3046 nəfər idilər. Texnikomlar 1922-1923-cü illərdə 7, orada təhsil alanlar 1405 nəfər idi. Texniki-peşə məktəblərinin sayı 1922-23-cü illərdə 11, təhsil alanlar 1192 nəfər idi. 1925-26-cı illərdə isə onların sayı 14, təhsil alanlar 2063 nəfər olmuşdu.

Profilaktik texniki məktəblər isə 4 olub, ancaq biri kənddə yerləşirdi. Həmin məktəblərdə təhsil alanlar 438 nəfər idilər.

Kursların sayı isə 1922-23-cü illərdə 14, təhsil alanlar 635, 1925-1926-cı illərdə 32 olub, təhsil alanlar 2295 nəfər olmuşdu.

1922-23-cü illərdə heç bir savadı olmayanlar üçün açılmış müəssisələrin sayı 348, o cümlədən kəndlərdə 79, 1925-26-cı illərdə 1044, o cümlədən kəndlərdə 602 idi.

1927-1928-ci illərdə bütün məktəblərin sayı 1475, 1928-1929-cu illərdə 1580, 1929-30-cu illərdə 1677, 1931-32-ci illərdə 2455, 1932-1933-cü illərdə 2898 idi. 1927-1928-ci illərdə məktəblərin sayı 170697 nəfər, o cümlədən kəndlərdə 93838 nəfər; 1928-1929-cu illərdə 189681 nəfər, kəndlərdə 109081 nəfər, 1929-1930-cu illərdə 211139 nəfər; kəndlərdə 128298; 1930-31-ci illərdə 276686, kəndlərdə 184719; 1931-32-ci illərdə 36866 – kəndlərdə 270752; 1932-33-cü illərdə 430909, kəndlərdə 316670 nəfərdən ibarət olmuşdur.

1933-34-cü illərdə ümumi icbari ibtidai təhsilin həyata keçirilməsi işində həlledici müvəffəqiyyətlər əldə edildi. Belə ki, ibtidai məktəblərin sayı 1930-cu ildəki 1779-dan 2383-ə çatdı. Bu məktəblərdə 383470 nəfər təhsil alırdı.

1939-cu ildə əhalinin 234481 nəfərinin orta, 21592 nəfərinin ali təhsili var idi. 1939-cu il əhalinin hər 1000 nəfərindən 73,2-si orta, 6,7-i ali təhsilli idi. (15, s. 276)

1946-cı ilin avqustunda Azərbaycan müəllimlərinin III qurultayı yeni dövrün tələblərinə uyğun xalq maarifinin vəzifələrini müəyyənləşdirdi. (16, s. 450)

1950-51-ci dərs ilində respublikada 4233, 1970-71-ci dərs ilində isə artıq 5115 ümumtəhsil məktəbi vardı. Bu məktəblərdə 1940-cı ilin sonlarında 660 min, 1960-cı ilin sonlarında isə 1444 minə qədər şagird təhsil alırdı. (17, s. 46) 1970-71-ci dərs ilində respublikada 71 minə qədər tələbənin təhsil aldığı 79 orta ixtisas məktəbi fəaliyyət göstərirdi.

Təhsilin inkişafı əhalinin mədəni səviyyəsinin yüksəlməsinə səbəb olmuşdu. 1959-cu ildə yaşı 10-dan yuxarı olan hər 1000 nəfərdən 400-nün, 1970-ci ildə isə 471-nin ali və orta təhsili vardı. Xalq təsərrüfatında ali və orta ixtisas təhsilli mütəxəssislərin sayı 274 minə çatmışdı. (18, s. 165-166)

1970-ci ildə hər 1000 nəfərin 584-nün ali və orta təhsili var idi. Onların 55 nəfəri ali, 529 nəfəri isə orta təhsilli idilər. 1979-cu ildə 770 nəfərin 77-si ali, 693-ü orta təhsilli idilər. 1989-cu ildə 878 təhsillinin 105-i ali, 673-ü orta təhsilli idi.

Məlumdur ki, xalq maarifi sistemi cəmiyyətin həyatında mühüm əhəmiyyət kəsb edir. 1960-cı ildən 1985-ci ilədək ali məktəblərin sayı 18-ə, tələbələrin sayı isə 36 mindən 1059 min nəfərə çatmışdır. Orta ixtisas tədris müəssisələrinin sayı 91-dən 158-ə, orada təhsil alanların sayı 27 mindən 76,2 min nəfərədək artmışdır. Bütün bunlar respublika əhalisinin təhsil səviyyəsinin yüksəlişinə səbəb olmuşdur. Əgər 1959-cu ildə əhalinin hər 1000 nəfərdən yalnız 169-u ali, natamam ali və orta təhsilli idisə, 1979-cu ildə bu rəqəm artıb 770 nəfərə çatmışdı.

Respublikanın dövlət büdcəsi daxilində maarif və elm sahəsinə əsaslı vəsait qoyuluşu 1970-ci ildə bütün xərclərin cəmi 1,7%-ni, 1980-ci ildə 1,9%-ni, 1985-ci ildə isə 2,0%-ni təşkil edirdi. Belə ki, 1980-ci ildə Azərbaycanda dövlət büdcəsi hesabına xalq maarifinə 666,6 milyon manat, 1985-ci ildə 841 milyon manat, 1990-cu ildə 892 milyon manat xərclənmişdi.

1970-ci ildə 5096 məktəbdə, 1438 min məktəbli, 1990-cu ildə 4420 məktəbdə 1406 min məktəbli təhsil alırdı.

Məktəbəqədər tərbiyə müəssisələrinin sayı 1970-ci ildə 1600, 1990-cı ildə 2185 idi. Onlarda 1970-ci ildə 111 min, 1990-cı ildə 181 min uşaq təlim alırdı.

Professional-texniki məktəblər 1970-ci ildə 84, orada təhsil alanlar 44 min nəfər, 1990-cı ildə 142, təhsil alanlar 51 min nəfər idilər.

Texnikumların sayı isə 1970-ci ildə 79, təhsil alanlar 71 min; 1990-cı ildə 77, təhsil alanlar 60 min nəfəri əhatə edirdi. (19, s. 277-278)

Azərbaycanda elm böyük uğurla inkişaf edirdi. Elmi idarələrin sayı 1945-1970-ci illərdə 66-dan 142-yə çatmışdı.

Azərbaycanda XX əsrin 70-ci illərində gündüz, axşam, həmçinin dəmir yolu sistemində olan orta məktəblərin şəbəkəsi xüsusən kənddə kəskin sürətlə genişləndi və 1979-cu ildə onların sayı 2117-yə, o cümlədən kənd yerlərində 1400-ə çatdırıldı. Bununla əlaqədar ibtidai məktəblərin şəbəkəsi xeyli azalmış, onların bir hissəsi qonşu səkkizillik və ya orta məktəblərə birləşdirilmiş, yaxud səkkizillik məktəbə çevrilmişdir.

Azərbaycanda 1914-cü ildə ümumi gündüz məktəblərin (ibtidai, natamam orta, səkkizillik, orta) sayı 976, 1965-ci ildə 4195, 1970-ci ildə 4347, 1975-ci ildə 4133, 1979-cu ildə 4000, gündüz məktəblərində oxuyan şagirdlərin sayı isə 1914-cü ildə 73,1 min nəfər, 1965-ci ildə 1035,0 min nəfər, 1970-ci ildə 1356,0 min nəfər, 1975-ci ildə 1476,0 min nəfər, 1979-cu ildə 1435,3 min nəfər olmuşdur. (20, s. 12-13)

Bir məsələni də diqqətdən qaçırmaq olmaz ki, 1959-cu ildə tam orta təhsil alanlar 46,8 min nəfər (46,7%); axşam (qiyabi) məktəblərində 21,9 min nəfər, (19%); orta ixtisas

təhsili məktəblərində 7,2 min nəfər (7,6%) olmaqla cəmi orta təhsil alanlar 73,0 min nəfər (73,3%) idilər.

1979-cu ildə isə tam orta təhsil alanların sayı 149,1 min nəfər (89,6%) idi. Onlardan 99,6 min nəfər (59,6%) gündüz orta məktəblərində; 30,7 min nəfər (18,6%) axşam (qiyabi) məktəblərində, 13,7 min nəfər (8,3%)), orta ixtisas təhsili məktəblərində 5,1 min nəfər (3,1%) olmuşdur. (21, s. 19)

Azərbaycanda 1979-cu ildə ali və orta (tam və ümumi orta) təhsili olan 15 və yuxarı yaşlı əhalinin sayı 2998 min nəfər, 2009-cu ildə 6576 min nəfər, 2014-cü ildə 7145 min nəfər idi. (22, s. 52)

Azərbaycanda əhalinin təhsil səviyyəsi 1979-2015-ci illərdə ali və orta (tam və ümumi orta) təhsili olan 15 və yuxarı yaşda  bütün əhali 1979-cu ildə 2998 min nəfər, 1989-cu ildə 4144 min nəfər, 1999-cu ildə 5122 min nəfər, 2009-cu ildə 6576 min nəfər, 2015-ci ildə 7255 min nəfər idi. (23, s. 22)

14-29 yaşlı gənclərin təhsil səviyyəsinə nəzər yetirsək ali və tam orta təhsili olan gənclər 1979-cu ildə 1130, 1989-cu ildə 1593, 1999-cu ildə 1534, 2009-cu ildə 1998 nəfər idi. (24, s. 122)

1990-2018-ci illərdə ümumi təhsil müəssisələrini bitirən şagirdlərin sayı 5-ci cədvəldə göstərilən kimi olmuşdur.

**Cədvəl 5.**

**Ümumi təhsil müəssisələrini bitirən şagirdlərin sayı**

| İllər | Ümumi orta məktəbi (9-cu sinifi bitirənlərin sayı - cəmi) | o cümlədən əyani məktəbləri bitirənlər | onlardan kənd yerlərində | Tam orta məktəbi bitirənlərin sayı – cəmi | o cümlədən əyani məktəbləri bitirənlər | onlardan kənd yerlərində |
|---|---|---|---|---|---|---|
| Dövlət və qeyri dövlət ümumi təhsil müəssisələrini bitirən şagirdlərin sayı – cəmi | | | | | | |
| (min nəfər) | | | | | | |
| 1990 | 122,6 | 122,0 | 62,2 | 96,4 | 90,0 | 50,2 |
| 1995 | 122,5 | 121,5 | 58,1 | 78,2 | 71,1 | 34,1 |
| 2000 | 68,8 | 67,5 | 41,4 | 105,0 | 94,2 | 43,8 |
| 2005 | 152,7 | 152,5 | 71,8 | 124,2 | 123,5 | 56,1 |
| 2009 | 150,4 | 150,2 | 68,5 | 108,6 | 108,4 | 49,1 |
| 2010 | 127,4 | 127,3 | 54,5 | 98,6 | 98,3 | 45,0 |
| 2011 | 130,3 | 130,1 | 59,3 | 97,5 | 97,2 | 43,3 |
| 2012 | 120,2 | 120,0 | 52,9 | 88,9 | 88,6 | 38,4 |
| 2013 | 121,5 | 121,3 | 55,4 | 89,1 | 88,5 | 40,0 |
| 2014 | 114,0 | 114,0 | 50,3 | 84,4 | 83,9 | 36,5 |
| 2015 | 108,5 | 108,4 | 46,3 | 88,6 | 87,8 | 39,1 |
| 2016 | 108,1 | 107,9 | 46,6 | 87,6 | 86,8 | 37,9 |
| 2017 | 107,9 | 107,8 | 44,9 | 83,9 | 83,3 | 35,5 |
| 2018 | 107,6 | 107,5 | 44,5 | 83,2 | 82,8 | 35,1 |

**(25. gov.az)**

1984-cü ildə Azərbaycanda “Məktəb islahatı haqqında qəbul olunmuş qanunda uşaqların altı yaşından məktəbə getməsi tamamilə məqbul hesab edilmişdi”. (26, s. 121)

2000-ci ildə respublikada 111 min uşağı əhatə edən 1790 məktəbəqədər müəssisə vardı. Onlarda 310 mindən çox şagird müxtəlif maraq sahələri üzrə qruplara cəlb olunmuşdu. (27, s. 427)

Müstəqil Azərbaycanda XXI əsrin əvvəllərində bütün məktəblərdə 1 milyon 662 min şagird dərsə başlayırdı. 400 mindən çox təhsil işçiləri isə dövlətin qayğısı altında idi. (28, s. 215)

2000-2001-ci dərs ilində respublikada 4548 dövlət gündüz ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Bu məktəblərdə 1 milyon 654 min şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 165 min müəllim məşğul olurdu. Ümumtəhsil məktəbləri sistemində də dəyişikliklər baş vermişdi. Litseylər, gimnaziyalar yaradılmışdı. (29, s. 444)

Respublikada 18 minə qədər uşağın təhsil aldığı 38 ümumtipli internat fəaliyyət göstərirdi. 1998-ci ildə C.Naxçıvanski adına Respublika Orta hərbi İnternat məktəbinin Naxçıvan filialı təsis edildi. (30, s. 173)

2001-ci ildə Azərbaycan Respublikasında əhalinin 2 milyon 901 min nəfəri ümumi orta; 694 min nəfəri orta ixtisas; 612 min nəfəri tam ali təhsilli idi. Yaşı 15-dən yuxarı olan hər min nəfərə 908 təhsilli, o cümlədən 108 ali, 122 orta ixtisas, 511 ümumi orta və 158 natamam orta təhsilli şəxs düşürdü. (31, s. 448-449)

Azərbaycanda ali və tam orta təhsili olan gənclər 1979-cu ildə 1130 min, 1989-cu ildə 1593 min, 1999-cu ildə 1534 min, 2009-cu ildə 1998 min nəfər idi. Onlardan ali təhsillilər 1979-cu ildə 92 min nəfər, 1989-cu ildə 119 min nəfər, 1999-cu ildə 112 min nəfər, 2009-cu ildə 231 min nəfər, orta ixtisas təhsillilər 1979-cu ildə 162 min nəfər, 1989-cu ildə 256 min nəfər, 1999-cu ildə 159 min nəfər, 2009-cu ildə 141 min nəfər, tam orta təhsillilər 1979-cu ildə 876 min nəfər, 1989-cu ildə 1218 min nəfər, 1999-cu ildə 1263 min nəfər, 2009-cu ildə 1626 min nəfər olmuşdu.

2000-2001-ci tədris ilində 71 orta ixtisas müəssisəsində 42612 nəfər tələbə, 47 ali təhsil müəssisələrində isə 119683 nəfər tələbə təhsil alırdı. 2013-2014-cü illərdə Azərbaycanda 58 orta ixtisas müəssisəsi və həmin müəssisələrdə təhsil alan 63273 tələbə, həmçinin 52 ali təhsil müəssisələrində 151274 nəfər tələbə təhsil alırdı. (32, s. 124)

Müstəqil Azərbaycanda 2003-cü ildə təhsilə demək olar ki, bütün uşaqlar cəlb olunmuşdu. Belə ki, 1 milyon 662 min şagird dərsə başlamışdılar. (33, s. 174)

Müstəqil Azərbaycan Respublikasında 1998-ci il martın 30-da Prezident Heydər Əliyevin sərəncamı ilə Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası təşkil olundu. Dünya Bankı, milli və xarici ekspertlərin köməyi ilə Azərbaycan Respublikasının Təhsil İslahatı Proqramı hazırlandı və Prezident tərəfindən 1999-cu il iyunun 15-də təsdiq edildi.

Prezident Heydər Əliyev 2000-ci il iyunun 13-də “Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında” Fərman verdi. Təlim-tərbiyə proseslərinin keyfiy-

yətcə yeniləşdirilməsini gücləndirmək üçün mülkiyyət formasından və tabeçiliyindən asılı olmayaraq, bütün təhsil müəssisələrinə tədris-metodik rəhbərlik, ayrı-ayrı dövlət qurumlarına məxsus təhsil müəssisələrinin (Müdafiə və Milli Təhlükəsizlik nazirlikləri müəssisələrindən başqa) tabeçiliyi Təhsil Nazirliyinə verildi. Təhsil Problemləri üzrə Respublika Elmi-Metodik Mərkəzi ilə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji İnstitutu bazasında Təhsil Problemləri İnstitutu, təsərrüfat hesablı Təhsil Texnologiyaları Mərkəzi təşkil olundu.

2000-ci ildə respublikada 111 min uşağı əhatə edən 1790 məktəbəqədər müəssisə fəaliyyət göstərirdi. 2000-ci ilin noyabr ayında Bakının Əhmədli qəsəbəsində Beynəlxalq "Sos Kinderdof İnternational" təşkilatı tərəfindən yaradılmış 12 evdən ibarət uşaq kəndi istifadəyə verildi. Bu, 1999-cu ildə təşkil olunmuş "Sos Uşaq Kəndləri Azərbaycan Assosiasiyası"nın (prezidenti Sevil Əliyeva) səmərəli fəaliyyətinin nəticəsi idi. Respublikada 367 məktəbdənkənar müəssisə vardı. Onlarda 310 mindən çox şagird müxtəlif maraq sahələri üzrə qruplara cəlb olunmuşdu. (34)

2009-cu ilin əvvəlində Azərbaycanda 1612 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərirdi. Onlarda 103,6 min uşaq və ya müvafiq yaşda olan uşaqların 16%-i tərbiyə almışdır.

Məktəbəqədər təhsil müəssisələrinin 1094-ü körpələr evi – uşaq bağçası, 484-ü uşaq bağçası, 32-si körpələr evi və 2-si xüsusi uşaq bağçası kimi fəaliyyət göstərirdi. Müəssisələrin ümumi sayından 1602-si və 99,4:-i ümumi təyinatlı, 10-u

sanatoriya və xüsusi təyinatlılar idi. Onların hamısı şəhər yerlərində fəaliyyət göstərirdi.

4557 ümumi təhsil müəssisələrində 1 milyon 432 min şagird təhsil alırdı ki, onların da 1 milyon 429 min nəfəri əyani şöbələrin payına düşürdü.

Ölkədə orta ixtisas təhsilinə yiyələnmək üçün gənclərə kifayət qədər imkan yaradan çoxşaxəli təhsil müəssisələri şəbəkəsi fəaliyyət göstərirdi. 2008-2009-cu tədris ilinin əvvəlinə Azərbaycan Respublikasında 60 dövlət və qeyri-dövlət orta ixtisas müəssisəsində 53 min tələbə orta ixtisas təhsili alırdı.

2008-2009-cu tədris ilinin əvvəlində 137 min tələbənin təhsil aldığı 48 dövlət ali təhsil müəssisəsi fəaliyyət göstərmişdir.

2008-ci ildə ölkənin dövlət və qeyri-dövlət ali təhsil müəssisəsinə 28,8 min nəfər tələbə qəbulu olmuşdur. (35, s. 335)

2014-cü ildə Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin sayı 1680 idi. Onlardan 1639-u dövlət, 41-i qeyri-dövlət məktəbləri idi. Bu təhsil müəssisələrində 1077 min nəfər uşaq oxuyurdu. Onların 1061-i dövlət, 1,6 min nəfəri isə qeyri-dövlət məktəblərində oxuyurdular.

Təhsil müəssisələrinin 947-si şəhərlərdə yerləşirdi. Təhsil alan şagirdlərin sayı isə 76,8 min nəfər idi.

Kənd yerləri üzrə isə məktəblər 733, orada oxuyanlar 30,9 min nəfər idilər.

2013-2014-cü illərdə ümumtəhsil müəssisələrinin sayı 4505 idi. Onlardan 346 ibtidai, 830 ümumi orta, 3312 tam orta, 85 litsey, 15 gimnaziyalar, 17 sağlamlıq imkanları məhdud

uşaqlar üçün xüsusi məktəblər və internat məktəbləri idi. Bu məktəblərdə oxuyan şagirdlərin sayı 1289 min nəfər, müəllimlərin sayı isə əsas heyət 163 min nəfər idi. (36, s. 34)

Ümumi təhsil müəssisələrini, yəni 9-cu sinfi bitirən şagirdlərin sayı 122,6 min nəfər idi.

Dövlət və qeyri-dövlət ümumi təhsil müəssisələrini bitirən və təhsil haqqında sənəd alan şagirdlərin sayı 2013-cü ildə 119,4 min nəfər idi. (37, s. 43-44)

Göründüyü kimi elm bütün dövrlərdə xalqın, dövlətin həyatında önəmli olmuşdur. 1999-cu ildə xalqımızın Ümummilli lideri Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı" təsdiq olunduqdan sonra müstəqillik illərində təhsil sahəsində islahatlara başlanılmışdır. (38, s. 26)

2014-cü ilin əvvəlində Azərbaycan Respublikası əhalisinin sayı 9 milyon 477 min nəfər olmuşdur. Əhalinin ümumi sayından 22,4 faizi 0-14 yaşda, 71,8 faizi 15-64 yaşda, 5,8 faizi isə 65 və yuxarı yaşda olanlar idi. 14-29 yaşda olan gənclər ümumi əhalinin 29 faizini təşkil edirdi. (39, s. 121)

2014-cü ilin əvvəlində ilk peşə-ixtisas təhsili müəssisələrində müəllimlərin sayı 1804, təhsil alanlar 292234 nəfər və təhsilini başa vurmuş ixtisaslı kadrların sayı 16708 nəfər idi. 1914-cü ilin əvvəlində ilk peşə-ixtisas təhsilli müəssisələrinin sayı 112 idi. (40, s. 57)

Azərbaycan əhalisinin 2,7 milyon nəfərini və ya 28,9 faizini gənclər təşkil edir. Gənclərin 52 faizi şəhər yerlərində, 48 faizi isə kənd yerlərində yaşayır. Gənclərin 49,2 faizini qadınlar təşkil edir. (41, s. 7)

2019-cu ilin əvvəlində Azərbaycan Respublikasının şəhər və rayonları üzrə dövlət məktəbəqədər təhsil müəssisələrinin sayı 1679, onlarda təhsil alan uşaqların sayı 121939 nəfər idi. Onlardan Bakı şəhərində məktəbəqədər təhsil müəssisələrinin sayı 345, onlarda uşaqların sayı 41135 nəfər, Abşeron iqtisadi rayonu üzrə 96 təhsil müəssisəsi, 11473 uşaq; Gəncə-Qazax iqtisadi rayonu üzrə 284 məktəbəqədər təhsil müəssisəsi, 16150 nəfər uşaq; Şəki-Zaqatala iqtisadi rayonu üzrə 205 təhsil müəssisəsi, 10356 uşaq; Lənkəran iqtisadi rayonu üzrə 121 müəssisə, 6669 nəfər uşaq; Quba-Xaçmaz iqtisadi rayonu üzrə 60 məktəb, 2779 nəfər uşaq; Aran iqtisadi rayonu üzrə 371 müəssisədə 20396 nəfər uşaq; Yuxarı Qarabağ iqtisadi rayonu üzrə 119 müəssisə, 6344 nəfər uşaq; Kəlbəcər-Laçın iqtisadi rayonu üzrə 12 müəssisə, 860 nəfər uşaq; Dağlıq Şirvan iqtisadi rayonu üzrə 45 müəssisə, 2090 uşaq; Naxçıvan Muxtar Respublikası üzrə məktəbəqədər təhsil müəssisələrinin sayı 21, müəssisələrdə təhsil alan uşaqların sayı 3687 nəfər idi. (42)

2018-2019-cu illərdə Azərbaycan Respublikasında əyani ümumi təhsil müəssisələrinin sayı 4411, onlarda şagirdlərin sayı 154367 nəfər; Bakı şəhəri üzrə 351 müəssisə, 454606 şagird, Abşeron iqtisadi rayonu üzrə 107 müəssisə, 117801 nəfər şagird; Gəncə-Qazax iqtisadi rayonu üzrə 588 müəssisə, 182062 nəfər şagird; Şəki-Zaqatala rayonu üzrə 368 müəssisə 87683 nəfər şagird; Lənkəran iqtisadi rayonu üzrə 557 müəssisə 124887 şagird; Quba-Xaçmaz iqtisadi rayonu üzrə 418 müəssisə 87006 şagird; Aran iqtisadi rayonu üzrə 929 müəssisə, 296309 nəfər şagird, Yuxarı Qarabağ iqtisadi rayonu üz-

rə 353 müəssisə, 65753 nəfər şagird; Kəlbəcər-Laçın iqtisadi rayonu üzrə 278 müəssisə, 42813 nəfər şagird; Dağlıq Şirvan iqtisadi rayonu üzrə 246 məktəb, 40841 nəfər şagird, Naxçıvan Muxtar Respublikası üzrə 216 məktəb müəssisəsi, 49606 nəfər şagird olmuşdu. (43)

1979-2020-ci illərdə ali və orta (tam və ümumi orta) təhsilli olan 15 və yuxarı yaşda olan bütün əhalinin təhsil səviyyəsi 6-cı cədvəldə göstərilən kimidir.

**Cədvəl 6.**

**Əhalinin təhsil səviyyəsi**
**(Əhalinin siyahıyaalınmalarının məlumatlarına əsasən)**

| İllər | Ali və orta (tam və ümumi orta) təhsili olan 15 və yuxarı yaşda bütün əhali | o cümlədən | | | |
|---|---|---|---|---|---|
| | | Ali | Orta ixtisas | Tam orta | Ümumi orta |
| Min nəfər | | | | | |
| 1979 | 2998 | 301 | 374 | 1277 | 1046 |
| 1989 | 4144 | 495 | 683 | 2061 | 905 |
| 1999 | 5122 | 574 | 681 | 3048 | 819 |
| 2009 | 6576 | 831 | 577 | 4262 | 906 |
| 2010 | 6730 | 857 | 592 | 4361 | 920 |
| 2011 | 6852 | 878 | 602 | 4445 | 927 |
| 2012 | 6953 | 897 | 609 | 4514 | 933 |
| 2013 | 7054 | 910 | 618 | 4579 | 947 |
| 2014 | 7145 | 922 | 626 | 4638 | 959 |
| 2015 | 7225 | 932 | 633 | 4690 | 970 |
| 2016 | 7308 | 957 | 636 | 4736 | 979 |
| 2017 | 7378 | 966 | 642 | 4781 | 989 |
| 2018 | 7449 | 989 | 651 | 4828 | 981 |
| 2019 | 7525 | 1014 | 658 | 4870 | 983 |
| 2020 | 7600 | 1047 | 664 | 4905 | 984 |

(44; s. 26, 28)

2013-2014-cü illərdə sağlamlıq imkanları məhdud uşaqlar üçün internat evlərinin sayı 2, onlarda olan uşaqların sayı 297 nəfər idi.

Ümumtəhsil internat məktəblərinin sayı 21, onlarda olan uşaqların sayı 5734 nəfər, onlardan valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olan uşaqlar üçün internat məktəblərinin sayı 3, onlarda olan uşaqların sayı 389 nəfər idi. (45, s. 77)

Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi məktəblər və internat məktəblərin sayı 2013-2014-cü illərdə 17, orada thsil alan şagirdlərin sayı isə 5638 nəfər idi (46, s. 47)

2013-cü ildə dövlət və qeyri-dövlət əyani ümumi təhsil müəssisələrində müəllimlərin sayı 161484 nəfər idi. Onlardan 80,9%-i ali təhsillilər idilər. (47, s. 51)

İnternat müəssisələrində valideynini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqların sayı 2014-cü ildə 685 nəfər idi. Onlardan 30 nəfəri uşaq evlərində, 163 nəfəri sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəblərində, 40 nəfəri sağlamlıq imkanları məhdud uşaqlar üçün internat evlərində, 452 nəfəri ümumi təhsil internat məktəblərində, onların da 389 nəfəri valideynini itirmiş və valideynin himayəsindən məhrum olan uşaqlar üçün internat məktəblərində yaşayırlar. (48, s. 78)

**Cədvəl 7.**

**Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi məktəblər və internat məktəbləri, onlarda şagirdlərin sayı (tədris ilinin əvvəlində)**

| | 1990-1991 | 1990-1991 | 2018-2019 | 2018-2019 |
|---|---|---|---|---|
| Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi məktəblər və internat məktəblərin sayı – cəmi | 22 | 4123 | 16 | 5422 |
| o cümlədən: | | | | |
| xüsusi məktəblər | ... | ... | 6 | 2921 |
| xüsusi internat məktəbləri | ... | ... | 10 | 2501 |
| Sağlamlıq imkanları məhdud uşaqlar üçün xəstəliyin növləri üzrə xüsusi məktəblər və internat məktəbləri: | | | | |
| əqli zəiflər üçün | 13 | 2171 | 8 | 3445 |
| gözdən əlillər üçün | 1 | 202 | | 305 |
| karlar üçün (karlar və lallar) | 2 | 587 | 2 | 655 |
| zəif eşidən və sonradan kar olanlar üçün | 1 | 281 | 1 | 203 |
| poliomielit və serebral iflic uşaqlar üçün | 1 | 117 | 1 | 132 |
| nitq qüsuru olan uşaqlar üçün | 2 | 307 | 1 | 483 |
| sair | 2 | 458 | 2 | 199 |
| Bundan əlavə ümumi təhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqlar üçün təşkil edilmiş siniflərdə şagirdlər | - | 1127 | 1 | 856 |

(49)

7-ci cədvəldə 1990-1991 və 2018-2019-cu illərdə internat məktəblərinin və orada yerləşən uşaqların sayı göstərilmişdir.

2014-cü ildə Azərbaycanda körpələr evlərinin sayı 4, orada yerlərin sayı 215, uşaqların sayı 163 nəfər olmuşdur.

2014-cü ildə 6 uşaq evi, sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəblərinin sayı 12, onlarda olan uşaqların sayı 2653 nəfər idi.

Azərbaycan dövləti valideynləri tərəfindən imtina olunmuş uşaqları tam qayğı ilə əhatə edir.

Azərbaycanın Bakı şəhərində Nizami rayonunda 1 saylı, Suraxanıda 2 saylı, Xətai rayonunda 3 saylı, Saray qəsəbəsində 7 saylı uşaq evləri, Sabunçuda 1 saylı internat, Əzizbəyov rayonunda kar uşaqlar üçün 1 saylı internat, Əzizbəyov rayonunda 2 saylı internat, Nizami rayonunda 3 saylı internat, Suraxanı rayonunda Əqli cəhətdən geridə qalmış uşaqlar üçün 7 saylı internat, Pirşağı qəsəbəsində 10 saylı internat, Bilgəh qəsəbəsində 11 saylı internat, Buzovna qəsəbəsində 13 saylı internat, Qaradağ rayonunda 14 saylı internat, Əzizbəyov rayonunda 16 saylı internat, kor uşaqlar üçün Nizami rayonunda internat, Nərimanov rayonunda kor uşaqlar üçün internat, Əzizbəyov rayonunda kar uşaqlar üçün internat, həmçinin nitqində qüsurları olan kar uşaqlar üçün internatlar, Gəncə, Lənkəran, Şəki, Sumqayıt şəhərlərindəki uşaq evləri və internatlar dövlətin himayəsindədir.

Övladlığa götürülən uşaqların sayı 2005-ci ildə 803, 2013-cü ildə 961 nəfər olmuşdur. Bu uşaqlar arasında 1 yaşadək olanlar və 17 yaşlı uşaqlar da olmuşdur. Bir məsələyə

diqqət yetirək. 2013-cü ildə övladlığa götürülənlərin 204 nəfəri 1 yaşadək olan uşaqlar, 1-5 yaşlılar 429 nəfər, 6-10 yaşlılar 183 nəfər, 11-17 yaşlılar 145 nəfər olmuşdur. (50, s. 79)

2018-ci ildə övladlığa götürülən uşaqların sayı 751 nəfər idi. Onlardan 349 nəfəri qızlar idi. Bir yaşadək olan uşaqlar 200 nəfər, 1-5 yaşlılar 315 nəfər, 6-10 yaşlılar 132 nəfər, 11-17 yaşlılar 104 nəfər idi. (51)

2011-ci ildə Azərbaycanda 4 körpələr evi, 513 nəfər üzvü olan 6 uşaq evi, 398 nəfər yetim və valideyn himayəsindən məhrum olan uşaqlar üçün iki internat məktəbi, sağlamlıq imkanları məhdud uşaqlar üçün 2537 nəfər üzvü olan 11 xüsusi internat məktəbləri, əqli cəhətdən geri qalan və 267 nəfər üzvü olan 2 internat evi, 6395 nəfər üzvü olan 22 ümumi tipli internat evləri var idi. (52, s. 93-94) Bu uşaqlar hərtərəfli təchiz olunmuşdular. Onların həmçinin tibbi yardımı, sağlamlığı hər növ tibbi xidməti Azərbaycan dövləti tərəfindən tənzim olunurdu. (53, s. 68)

2010-cu ildə uşaqlara dövlət tərəfindən verilən müavinətlər əsasən uşağın anadan olmasına görə birdəfəlik müavinət 83,6 min nəfərə təyin edilən 2673,9 manat idi. Üç yaşına çatanadək uşaqlara qulluqla əlaqədar müavinət isə 35,6 min nəfərə 5026,9 min manat təşkil etmişdi.

Ünvanlı dövlət sosial yardımı alan ailələrin sayı 2011-ci ildə 122781, üzvlərin sayı isə 552514 nəfər, onlardan 274265 nəfəri uşaqlar idi. (54, s. 98)

Deyilənləri əsaslandırmaq üçün statistik rəqəmlərə müraciət edək, 2006-2018-ci illərdə işləyən əhaliyə uşaqlar üçün

dövlət tərəfindən verilən ayrı-ayrı müavinətlər cədvəl 8-də göstərilən kimi olmuşdur.

**Cədvəl 8.**

**İşləyən əhaliyə uşaqlar üçün dövlət tərəfindən verilən ayrı-ayrı müavinətlər (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatlarına əsasən)**

| | 2006 | 2015 | 2018 |
|---|---|---|---|
| Uşağın anadan olmasına görə birdəfəlik müavinət: | | | |
| şəxslərin sayı, min nəfər | 18,5 | 53,9 | 51,0 |
| məbləğ, min manat | 555,5 | 4818,5 | 5323,2 |
| 3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar müavinət: | | | |
| şəxslərin sayı, min nəfər | 21,4 | 37,0 | 33,4 |
| məbləğ, min manat | 553,7 | 8174,6 | 11041,5 |

(55)

Dövlət həmçinin xəstə uşaqlara sosial müavinət ayırır. 9-cu cədvəldə 2007-2019-cu illərdə bu müavinətlər əksini tapmışdır.

**Cədvəl 9.**

| | 2007 | | 2019 | |
|---|---|---|---|---|
| | Sosial müavinət alan uşaqların sayı, nəfər | Bir nəfərə düşən orta aylıq məbləğ, manat | Sosial müavinət alan uşaqların sayı, nəfər | Bir nəfərə düşən orta aylıq məbləğ, manat |
| Sosial müavinətlər – cəmi | 259712 | 17,44 | 420799 | 63,68 |
| onlardan: | | | | |
| 16 yaşadək əlil uşaqlara | 48479 | 25 | | |
| sağlamlıq imkanları məhdud olan 18 yaşadək uşaqlara | | | 72979 | 82,00 |
| ailə başçısını itirməyə görə ailə üzvlərinə | 25793 | 20 | 46002 | 68,00 |
| əhalinin bəzi kateqoriyalarından olan uşaqlı ailələrə (uşaqların sayı) | 24364 | 6,09 | 16124 | 15,4 |
| 1 yaşadək uşağa görə (uşaqların sayı) | 3161 | 10 | 796 | 55,00 |
| valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına | 1260 | 5 | 292 | 61,00 |
| beşdən çox uşağa görə (uşaqların sayı) | ... | ... | 8987 | 33,00 |
| Birdəfəlik müavinətlər – cəmi | 101677 | x | 93043 | x |
| onlardan: | | | | |
| uşağın doğulmasına görə: | | | | |
| ailələrə | 90968 | x | 72695 | x |
| uşaqlara | 94909 | 28,82 | 78224 | 103,48 |

(56)

Azərbaycan dövləti digər sahələrdə olduğu kimi, mədəniyyətin inkişafı sahəsində də uğurlu addımlar atır və milli mədəniyyətin inkişafını dövlət siyasətinin prioritet məsələlərindən biri hesab edir.

Bu istiqamətdə bir çox dövlət proqramları, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2008-ci il tarixli, 3072 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında kitabxana – informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" qəbul edilmişdir.

Azərbaycanda bu illərdə 3320 kitabxana, 2731 klub müəssisəsi, 228 muzey, 28 peşəkar teatr, 4 filarmoniya, 6 musiqi kollektivi və 5 konsert zalı əhaliyə xidmət göstərirdi. Azərbaycanda uşaq kitabxanalarının sayı 1996-cı ildə 116, orada yerləşən kitab və jurnalların sayı 2,9 milyon nüsxə, oxucuların sayı 329 min nəfər; 2010-cu ildə 105 kitabxana, 2,2 milyon nüsxə kitab və jurnal, 274 min nəfər oxucu; 2016-cı ildə 97 kitabxana, 1,7 milyon nüsxə kitab, 347 min nəfər oxucu; 2019-cu ildə 89 kitabxana, 1,4 milyon nüsxə kitab və jurnal, 256 min oxucu olmuşdur. (57)

2014-cü ilin əvvəlində muzeylərə gələnlərin sayı 2,2 milyon nəfər, teatrlara gələnlərin sayı 0,7 milyon nəfər olmuşdur. Teatrlarda repertuar müntəzəm olaraq təzələnir və tamaşalar azərbaycan dili ilə yanaşı, rus və ləzgi dillərində də göstərilir.

2013-cü ildə uşaq teatrlarının sayı 8, tamaşalar 1724, tamaşalara gələnlərin sayı isə 177 min nəfər idi. (58, s. 71)

Uşaq dərnəkləri və kollektivlərinin sayı 2014-cü ildə 2493, orada iştirakçılar isə 31,9 min nəfər idi. (59, s. 72)

Əlbəttə, Azərbaycanın sabahı, gənc nəsli milli adət-ənənələrimizə, mənəviyyatımıza, əxlaqımıza zidd olan əməllərdən çəkindirmək, bütün bəşəriyyəti narahat edən zərərli vərdişlərdən qorumaq, cinayətkarlıq hallarının qarşısını almaq məqsədilə görülmüş tədbirlər, asudə vaxtlarını səmərəli keçirmək üçün istifadəyə verilmiş olimpiya idman kompleksləri, yeni açılmış iş yerləri və s. mühüm rol oynayır.

Gənclərin həyat səviyyəsində baş verən dəyişikliklər, onların müdafiəsi həmişə xalqın və Azərbaycan dövlətinin diqqətindədir.

## 3.2. Uşaq ədəbiyyatı

Kamil, yetkin insanların yetişdirilməsində uşaq ədəbiyyatı əhəmiyyətli yer tutur. Uşaqları vətənpərvərlik, humanizm, düşmənə nifrət, beynəlmiləlçilik, insanpərvərlik ruhunda tərbiyə etməklə yüksək səviyyəli uşaq ədəbiyyatlarından istifadə etmək məqsədəmüvafiqdir.

Oxşamalar, arzulamalar, əzizləmələr, dilaçmalar, öyrətmələr, laylalar, sanamalar, düzgülər, acıltmalar, uşaq nəğmələri, öcəşmələr, dolaşmalar, çağırış və müraciətlər, yanıltmaclar, tapmacalar, nağıllar uşaq folklorunun janrlarıdır.

"Azərbaycan ədəbiyyatı tarixi" kitabında qeyd olunur ki, laylaları məzmununa görə aşağıdakı kimi qruplaşdırmaq olar: yuxulatmalar, oyatmalar, əyləndirmələr, bəsləmələr, ar-

zulamalar, bənzətmələr, inam və etiqadlarla bağlı olanlar (qarğış-laylalar, alqış-laylalar, qurbanlıqlar), şikayətlər (anaların öz güzəranından narazılığı, anaların xəstə uşaqların sağalması üçün yalvarışları). (1, s. 312)

Uşaq folkloru haqqında yazılara Rusiyada XIX əsrin 30-40-cı illərində başlanmışdır. İlk uşaq folkloru nümunələrinə Sibir salnaməçisi Y.A.Avdeyevin "Xatirələr"ində təsadüf olunur.

1868-ci ildə folklorşünas P.A.Bessonov özünün "Uşaq nəğmələri" kitabını nəşr etdirir.

Azərbaycanda uşaq folklorunun toplanma və nəşr işinə XIX əsrdən başlanmışdır. Keçən əsrin sonuncu rübündə Azərbaycan uşaq folklorunun bir sıra nümunələri müxtəlif nəşrlərlə, o cümlədən SMOMPK məcmuələrində nəşr edilmişdir. (2, s. 34)

Məlumdur ki, 3 yaşa qədər olan körpələrin uşaq ədəbiyyatı ilə əlaqəsi yoxdur.

1. Bağçayaşlı uşaqlar (3-7 yaşlılar)
2. Kiçikyaşlı məktəblilər (7-11 yaşlılar)
3. Ortayaşlı uşaqlar (11-15 yaşlılar)
4. Böyükyaşlı məktəblilər (15-17 yaşlılar) (3, s. 4-5).

Uşaqlar müxtəlif yaşlarında mərhələlərlə böyüyürlər. Onlar böyüdükcə həyata baxışları da dəyişir, zaman-zaman formalaşırlar.

Uşaq ədəbiyyatı balalarımıza həyatı öyrədir, onlara bilik və məlumatlar verir, oxucularına həyatı daha dərindən dərk etməkdə kömək edir, dünyagörüşlərini genişləndirir, bədii zövqlərini inkişaf etdirir.

Uşaq ədəbiyyatını şərti olaraq 2 yerə bölmək olar:

1. Bilavasitə uşaq üçün yazılan əsərlər. Belə əsərlərdə mövzu, süjet, kompozisiya, məzmun uşaqların yaş xüsusiyyətlərinə, bilik səviyyələrinə uyğun olmalıdır. Məsələn, A.S.Puşkinin "Balıqçı və qızıl balıq", M.Qorkinin"Arxiv baba və Lyonka", A.Şaiqin "Xoruz", "Uşaq və dovşan", "Ovçu Məstan", M.Ə.Sabirin "Yalançı Çoban", "Uşaq və buz", M.Dilbazinin "Reyhan", Ə.Əmilin "Can nənə bir nağıl de" və s. kimi əsərlər bu qəbildəndir.

2. Uşaqların müstəqil mütaliəsi üçün yazılan əsərlər uşaqların məktəbdənkənar mütaliəsi üçün nəzərdə tutulur. Məsələn, S.S.Axundovun "Qorxulu nağıllar", M.Cəlalın "Bir gəncin manifesti", S.Rəhimovun "Mehman" "Ata və oğul", "Su ərizəsi", Y.Qajekin "Yazılı daş", Əli Vəliyevin "Madarın dastanı" M.Rzaquluzadənin "El gücü", M,Hüseynin "Odlu qılınc" əsərləri həvəslə oxunur. Bu qəbildən olan əsərlərdə ideyaların təbliği, vətənpərvərlik hissləri aşılanmaqla bərabər köhnə dünyanın xoşagəlməz, adət-ənənələrinə niftrətin təbliği də əsas yer tutur. (4, s. 6)

Xalqımızın folklorunun nağıl, dastan qəhrəmanları əsasən zəhmətkeş xalqın içərisindən çıxır, qüvvətli düşmənlə mübarizədə qalib gəlirlər. Koroğlu, Qaçaq Nəbi kimi xalq qəhrəmanları buna misal ola bilər. "Kitabi Dədə Qorqud" dastanı məktəblilərin sevə-sevə oxuduqları kitabdır.

Məlumdur ki, kiçik və orta yaş dövrünü yaşayan uşaqlarda nağıllardakı hadisələrin təsviri uşaqlarda zərif xüsusiyyət, mənəvi zənginlik, möhkəm iradə yaradır. "Uçan xalça", "Məlikməmməd" nağılları bu baxımdan səciyyəvidir. (5, s. 7-8)

Folklorun epik növü olan nağıllar: sehrli nağıllara ("Məlikməmməd", "Sehrli üzük", "Ax-vax"...), məişət nağıllarına ("Saleh və Valeh", "Daşdəmirin nağılı", "Tələtin nağılı", "Göygöz kosa..."), satirik nağıllara ("Nuşpəri xanım", "Usta Abdulla", "Dərzi şagirdi Əhməd", "Gülnar" və s.) bu kimi nağıllar müxtəlif yaşlı uşaqların ilkin oxuduqları nümunələrdir.

Tapmacalar uşaqların təfəkkürünü, şüurunu, yanıltmaclar nitqini səlistləşdirir, rəvanlaşdırır, bayatılar, xoş duyğular oyadır, laylalar beşik başında körpələri xumarlandırıb yatırmaq üçün deyilir. Ana öz körpə balasına bəslədiyi ən səmimi hissləri, duyğuları laylalar vasitəsilə beşik başında biruzə verir. Oxşamalar isə valideynlərin körpələrini əzizləyən, onun boynunu, yerişini sevən zaman dedikləri mahnılardır. Oxşamalar vasitəsilə valideyn balasına öz arzularını, istəklərini bildirir və bu mahnılar vasitəsilə uşağın sağlam böyüməsini, xoşbəxt yaşamasını, yaxşı sənət, peşə sahibi olmasını arzulayır. (6, s. 13)

Kollektiv oyun zamanı, bulaq başında və ya göy çəməndə əylənəndə uşaqlar nəğmələrdən istifadə edirlər. "Bənövşə bəndə düşə", "Hamam-hamam içində", "A teşti", "Əkil-bəkil", "Tülkü, tülkü, tünbəki" və s. belə nəğmələrdəndir.

Sayaçı sözlər folklorun lirik janrlarından olub, qoyunçuluq və maldarlıqla əlaqədar yaranan mahnılardır.

Aşıq şerinin qoşma, gəraylı, təsnif, dodaqdəyməz, divani və s. kimi janrlarında vətən məhəbbəti, insani hisslər və s. bu şeirlərin məğzini təşkil edir.

Qoşmalar əsasən ustad aşıqlar tərəfindən yazılır. XVI əsrdə Azərbaycan ədəbiyyatında Ş.İ.Xətaininin, XVIII əsrdə Molla Pənah Vaqifin, XIX əsrdə Q.B.Zakirin ədəbi irsində dolğun mənalı qoşmalar çoxdur. Çağdaş Azərbaycan ədəbiyyatında S.Vurğun, S.Rüstəm, Q.Qasımzadə, O.Sarıvəlli, H.Arif və başqaları da qoşma janrında gözəl şeirlər yazmışlar. Belə şeirləri uşaqlar həvəslə oxuyurlar.

XI-XII əsrlərdə Azərbaycan ədəbiyyatının dahisi Nizami Gəncəvinin təkcə lirikasında deyil, onun "Xəmsə"sinə daxil olan əsərlərində də uşaq və gənclərə ən yaxşı insani sifətlər, keyfiyyətlər aşılayan ədəbi parçalara rast gəlmək olur.

Nizami Gəncəvinin yaradıcılığında da uşaqlarla bağlı məsələlər çoxdur. "Az danışmağın gözəlliyi" əsərində şair yersiz danışıb, müsahibini təngə gətirən boş və mənasız sözlərdən çəkinməyi uşaq və gənclərə təbliğ edir. Əsərdə şair yerli-yerində, mənalı danımağı ən qiymətli daş-qaşa bənzədir. Mənasız və yersiz söz-söhbətlər isə kərpiclə müqayisə edilir..

"Oğlum Məhəmmədə nəsihət" şeiri ilə şair yeganə oğlu Məhəmmədə xitabla yazdığı şeiri bütün Azərbaycan xalqının balalarına xitabən etdiyi nəsihət kimi səslənir.

Bilik qazanmağa çağırış, həyatı dərk etmək, qəflətdən uzaqlaşmaq, ömrü əbəs keçirməyib, daima öyrənməyə, çalışmağa dəvət və s. nəsihətlərə Nizaminin ədəbi irsində tez-tez rast gəlmək olur. (7, s. 19)

Şair uşaqlara tövsiyə edir: "Bir elm öyrənmək istədikdə sən çalış ki, hər şeyi kamil biləsən". Həyata gələn insanların

geniş biliyə, yüksək mədəniyyətə malik olması Nizamini daima düşündürmüşdür.

"Sirlər xəzinəsi", "Nuşirəvan və bayquşların söhbəti", "Qarı və Sultan Səncər", "Kərpickəsən kişinin dastanı", "Ovçu və tülkü", "Oğru ilə tülkü" hekayəsi, "Zalım şah ilə düz danışan qocanın hekayəsi", "Ağıllı uşağın hekayəsi", "Bülbül ilə qızılquşun hekayəsi" və s. əsərlərin məcmuəsi bu qəbildəndir.

"Kərpickəsən kişinin dastanı" hekayəsində təsvir olunur ki, bir cavan oğlan kərpickəsən qocaya yaxınlaşıb deyir: "Bu ağır işi nə üçün özünə peşə seçmisən. Sən kimə əl açsan heç kəs səndən çörək pulu əsirgəməz". Bu söz qocanı hiddətləndirdi. Qoca cavab verdi ki, mən əlimi zəhmətə ona görə öyrətmişəm ki, sənin kimilərinə əl açıb xəcalətə düşməyim. Tədbirli qocanın fikri əsərin əsas ideyasını təşkil edir ki, bu da gənclərimizi əməyə, zəhmətə alışdıra bilir.

"Zalım padşahla Zahidin dastanı" hekayəsində Nizami insanları mərdliyə, düzgünlüyə çağırır. (8, s. 21)

"Sirlər xəzinəsi", "Yeddi gözəl", "Fitnə", "Xosrov və Şirin" əsərlərində də şair əməyi və əməkçi insanları, qadınların müdrikliyini, ədalətli şah surətini təbliğ edir.

XIX əsrdə yaşamış A.A.Bakıxanovun "Kitabi-nəsihət" əsərində qarşıya qoyduğu məqsəd gənc nəsli pis əməllərdən çəkindirmək, uşaqları əməyə, zəhmətə alışdırmaq, onlarda ən yaxşı insani keyfiyyətlər yaratmaqdan ibarət idi.

A.A.Bakıxanovun "Əməlin cəzası", "Ümidin boşa çıxması", "Hikmətin fəziləti", "Məşvərətin şərtləri", "Qarı və

Harun", "Uşaq və günəş", "Məlamət əlaməti" və s. əsərləri uşaqlara ən yaxşı insani sifətlər aşılayır.

"Əməyin cəzası" hekayəsində müəllif bir pedaqoq kimi uşaqlara "başqasına quyu qazan özü düşər" ideyasını təbliğ edir. Onları yalan danışmaqdan çəkindirir. "Xeyirxahlıq həmişə bədxahlıq üzərində qələbə çalır" kəlamı əsərin ümumi ideyasını təşkil edir.

Qasım bəy Zakirin "Tısbağa, Qarğa, Kəsəyən, Ahu" təmsili uşaq və gənclərin ehtiyac duyduqları dostluqda sədaqətli olmaq, dar gündə bir-birinə kömək etmək məsələləri üzərində dayanır. (9, s. 51)

Q.B.Zakirin lirikasında, satiralarında uşaqların tərbiyəsi ilə bağlı qiymətli fikirləri vardır.

XIX əsrin II yarısında rus-müsəlman məktəblərinin "üsuli-cədid" məktəbinin fəaliyyətə başlaması maarifpərvər şəxslərin məsuliyyətini artırdı.

XIX əsrin sonlarında uşaqların sinif-dərs şəraitində sinifdənxaric vaxtlarda mütaliəyə olan ehtiyaclarını ödəmək üçün S.Ə.Şirvani, N.B.Vəzirov, Ə.B.Haqverdiyev, Ə.A.Gorani, S.S.Axundov, S.M.Qənizadə və başqaları ciddi fəaliyyət göstərirdilər. (10, s. 55)

XIX əsrin II yarısında Seyid Əzim Şirvani öyüdlərinin bir qismində uşaq və gənclərə elmin, oxumağın, bilik öyrətməyin əhəmiyyətindən danışıb, eyni zamanda müəllimə hörmət etməyi, ona ehtiram göstərməyi məsləhət bilirdi.

XX əsrdə uşaq ədəbiyyatı əsasən iki yolla öyrədilirdi. Birincisi, məktəblərdə, sinif-dərs şəraitində, ikincisi isə sinifdənxaric, məktəbdənkənar iş şəraitində. (11, s. 67)

Uşaq üçün yazılan əsərlər isə iki yerə bölünürdü. Birincisi bilavasitə uşaqlar üçün yazılan əsərlərdir. Məsələn: "Uşaq və buz" (M.Ə.Sabir), "Keçi", "Xoruz", "Uşaq və dovşan" (A.Şaiq) və s. ikincisi isə uşaqların müstəqil mütaliəsi üçün yazılan əsərlərdir. Məsələn: "Qaranquş yuvası" "El gücü", "Dəniz nağılı" (M.Rzaquluzadə), "Bir gəncin manifesti" (M.Cəlal), "Həyat yollarında", "Tarix müəllimi", "Yazılı daş" (Y.Qajek), "Nərgiz", "Üç alma" (M.M.Seyidzadə) və s. (12, s. 67)

Azərbaycanda 1920-ci ilin sonunda uşaq ədəbiyyatının dərsliklərində yerini müəyyənləşdirmək dövrün tələbindən doğurdu. Elə buna görə də məktəblərdə Abdulla Şaiqin "Türk ədəbiyyatı", M.Mahmudbəyovun "Yeni məktəb", Hüseyn Cavid və Abdulla Şaiqin "Ədəbiyyat dərsləri", Hənifi Zeynallı, Abdulla Şaiq, İsmayıl Hikmət, Atababa Musaxanlı tərəfindən yaradılan "Ədəbiyyatdan iş kitabı" kimi dərsliklərdən istifadə edilirdi. Bədii əsərləri yalnız dərsliklər vasitəsi ilə deyil, sinifdən və məktəbdənxaric oxu materialı kimi uşaq və gənclərə çatdırmaq əsas vəzifə kimi qarşıda dururdu. (13, s. 127)

Azərbaycan sovet ədəbiyyatı platformasında dayanan C.Məmmədquluzadə, A.Şaiq, S.Hüseyn, Tağı Şahbazi, S.S.Axundov ədəbiyyat aləminə təzə-təzə yol açan Səməd Vurğun, Süleyman Rüstəm, Əbülhəsən, Mehdi Hüseyn, Əli Vəliyev və başqaları ümumi ədəbiyyatla yanaşı, uşaq ədəbiyyatı nümunələrini də yaratmağa başladılar. Uşaq və gənclərdən ibarət yeni obrazlar yarandı. Adamların şüurunda və psixologiyasında, mənəvi dəyərlərin saflaşması prosesi uşaq ədəbiyyatında da tədricən öz həllini tapmağa başladı. Əməyə

münasibət uşaq ədəbiyyatının başlıca mövzusu oldu. Əxlaqi-psixoloji mövzuların ön plana çəkilməsi uşaq əsərlərinin tərbiyəvi əhəmiyyətini xeyli artırdı.

"Azərbaycan pioneri", "Azərbaycan gəncləri", "Molodyoj Azerbaydjana" qəzetləri, "Ulduz", "Pioner", "Göyərçin" jurnalları nəşr edildi. Həmçinin "Vətən" kinoteatrı, "Gənc tamaşaçılar", "Kukla" teatrı yaradıldı.

Mikayıl Rzaquluzadə, Mir Mehdi Seyidzadə, Mirvarid Dilbazi, Qılman İlkin, Yusif Əzimzadə, Mir Cəlal, Hikmət Ziya, Tofiq Mahmud, İlyas Tapdıq, Teymur Elçin, Məstan Əliyev, Məmməd Aslan, Eynulla Ağayev və başqa peşəkar sənətkarlar uşaq əsərləri yazarları kimi yetişmişdir.

Azərbaycan uşaq ədəbiyyatının inkişaf edib artmasının əsas səbəbi xalqımızın həyat tərzinin, dövrün qabaqcıl ideya və meyllərinin konkret, real inkişafı ilə əlaqədardır. (14, s. 129)

Mir Mehdi Seyidzadənin "Sirli çeşmə", "Kiçik təyyarəçilər", "Kim güclüdür?" və s. əsərləri kiçik yaşlı uşaqlar üçün nəzərdə tutulmuşdu.

Mir Cəlal Paşayevin məktəbəqədər yaşlı uşaqlardan tutmuş gənclərə qədər olan oxucuların tərbiyəsinə müsbət təsir göstərən "Qorxu", "Ağıl", "Yuxu və külək", "Gülgəz", "Buz maşını", "Balalara hədiyyə", "İki rəssam", "Kimya tələsir", "Gözətçi", "İlk vəsiqə", "Nənəmin hünəri", "Bir gəncin manifesti" və başqa əsərlərinin mövzusu rəngarəng olmaqla uşaqların yaş xüsusiyyətlərinə və bilik səviyyəsinə uyğun olmaqla bu əsərlərin uşaq və gənclərin təlim və tərbiyəsində,

onların dünyagörüşünün formalaşmasında böyük əhəmiyyəti vardır. (15, s. 152)

Uşaq ədəbiyyatının nümayəndələrindən Mirvarid Dilbazinin "Mənim hədiyyəm", "Balaca nümayəndə", "Şerlər", "Balaca dostlarım" və s. kitabları uşaqlara vətənpərvərlik ruhu, iftixar hissi aşılayır.

Yazıçı Qılman Musayev (İlkin) yazdığı əsərlərində uşaqların müvəffəqiyyətlərinə inam yaratmağı əsas vəzifə kimi qarşısına qoymuşdur. "Bahar tüstüləri" hekayəsi, "Həyat yollarında" hekayəsi", "Üç təpə uşaqları", "Yazılı daş", "Tarix müəllimi" və digər hekayələrində ədib uşaqları əməyə alışdırmaq, kənd və şəhərlərin inkişafında onların fəaliyyətini təmin etmək, insanlığın ülvi, qiymətli varlıq olmasını uşaqlara aşılamağı qarşısına məqsəd qoymuşdur.

XX əsr yazıçılarından Yusif Əzimzadənin "Vətən oğlu" hekayəsi, "Çiçəklər səltənəti" nağıl pyesi, "Qardaşlar" əsəri, "Anacan" pyesi, "Nəsrəddin" əsərində həyatımızın müxtəlif sahələrində uşaqları maraqlandıran məsələlər, onların təlim-tərbiyəsində mühüm rol oynayır.

Əyyub Abbasovun "Könül dəftəri", "Vətən suları", "Pyeslər", "Qırmızı bayraqlı gəmi" "Ağ çadırlar" kitabları Azərbaycan uşaq ədəbiyyatının inkişafında xüsusi rol oynamışdır. Müəllif bu əsərlərində gənc nəslin vətənpərvər ruhda tərbiyə edilməsini, məktəbdə təlim və tərbiyə işlərinin nümunəvi qurulmasını, uşaq aləminin spesifik xüsusiyyətlərini əks etdirmişdir. (16, s. 192)

Məlumdur ki, təmsil janrının ilk nümunəsi b.e.ə. Assuriyada, sonra Yunanıstanda Ezopun bədii irsində müstəqil janr kimi yaranmışdır.

Azərbaycan ədəbiyyatında, Nizamidən, Füzulidən sonra A.A.Bakıxanov, Q.B.Zakir, S.Ə.Şirvani, M.Ə.Sabir, A.Səhhət kimi sənətkarların bədii irsində mənalı ideyası olan təmsillər vardır.

XX əsr Azərbaycan ədəbiyyatında Hikmət Ziya kimi peşəkar təmsilçi "İki keçi" adlı əsərində ağıllı və ağılsız hərəkətlərin acı və şirin nəticələrini uşaqlara müqayisə yolu ilə çatdırır.

Hikmət Ziyanın təmsillərində timsah qorxaq, qaz boşboğaz, pişik özgəsinin kölgəsində dolanan, çanaqlı bağa ikiüzlü, cücə səfeh, qarğa xəbis, qurd amansız, tülkü hiyləgər kimi təsvir olunur. Bu baxımdan "Tülkü və Qurd", "Qarı və Çəpiş", "Ayı və Zoğal", "Üç çanaq", "Ağılın gücü", "Uçan cücə" və digər təmsillər uşaqlarda maraq doğurur. (17, s. 193-194)

Azərbaycan uşaq ədəbiyyatının görkəmli xadimlərindən olan Zahid Xəlilin "Mən rəngləri sevirəm", "Göydən üç alma düşdü", "Torağaylar oxuyur", "Quşlar, quşlar", "Ballıca", "Çıraq nənəmin nağılları" adlı kitabları uşaqların yaş xüsusiyyətlərinə və bilik səviyyəsinə uyğun dildə yazılmışdır.

Z.Xəlilin poeziyasını uşaqlar həvəslə qəbul edirlər. Məsələn, "Çəmən" şeirində şair yazır:

Dimdiyi var
İynə kimi.
Gözləri var

Səhər otlar üstə,
Şehdən inci var.
Şehlər quzuların,

Düymə kimi.
Ağacları
Bapbalaca
Qonar hərdən
Bir ağaca

Gözü tək parlaq.
Düzü başdan-başa,
Tərifdir çəmən.

(18, s. 196)

Z.Xəlilin "Qızıl qaz", "Tovuz quşu", "Qartal", "Qırğılar", "Qağayılar" şeirlərində heyvanlar aləmi onların gözəllikləri şərh olunur.

Tofiq Mahmudun "Yola çıxıram" əsəri onun ilk yazısıdır. O, uşaqlara "Dibçək", "Utancaq oğlan", "Alpinist", "Süsən gəzir Abşeronu" əsərləri uşaqların həyatlarının müxtəlif anlarını vəsf edir. O, şeirlərində də Babək, Cavanşir, Koroğlu, Qaçaq Nəbi kimi qəhrəmanları xatırladır. Uşaq və gənclərimizə tövsiyə edilir ki, ulu babalarından qalan bütün müsbət keyfiyyətləri qorumaq, yaşatmaq lazımdır.

Azərbaycan təbiətinə vurğunluq onun meşələrini, çaylarını, dənizlərini qorumaq, təbii sərvətlərindən qayda ilə istifadə etməyə çağırış Tofiq Mahmudun yaradıcılığında mühüm yer tutur. Onun bu problemə həsr etdiyi "Sehrli meşəbəyi" adlı şeir kitabı çox maraqlıdır.

Tofiq Mahmudun "Dalğalar" adlı kitabında uşaqlar üçün yazdığı hekayələr, nağıllar və əfsanələr toplanmışdır. "Meşədə səs", "Qızımın sualları", "Kəpənək gözəlliyi" adlı kitablarında toplanan şeirlər, poemalar kiçik yaşlı oxucular arasında geniş yayılmışdır.

Rəsul Rzayevin "Nəvəmə məktub", "Qızıma və yoldaşlarına" adlı şeirləri məzmun və mündəricə baxımından gənclərə yol göstərib, onlarda mübarizlik hissi yaşadır.

Şair "Güllər, çiçəklər", "Ev quşları", "Bostan, tərəvəz bitkiləri", "Ev heyvanları", "Ağaclar" kimi əsərləri vasitəsilə təbiət, heyvanlar, quşlar haqqında balacalara məlumat verir. Şair yeri gəldikcə bitkilər haqqında da məlumat verir. (19, s. 203)

Yazıçı Mehdi Hüseynin ədəbi irsində folklor motivli uşaq əsərlərinə də təsadüf etmək olur. Bu baxımdan, onun "Odlu qılınc" hekayəsi diqqəti cəlb edir. Təsvir edilir ki, qədim Girdiman dövlətinin başçısı Varaz 30 ildən artıq bir dövrdə dövləti idarə edir. Xəzər tayfaları dövlətə hücuma keçərkən o, orduya sərkərdəliyi oğlu Cavanşirə həvalə edir. Anası Cavanşirə xeyir-dua verib, onu döyüş meydanına yola salır. Cavanşir döyüşdə qalib gəlir. Atanın sevinci yerə-göyə sığmır. Ona görə ki, Cavanşir atasını əvəz edir. Tarixi keçmişimizdən götürülən bu mövzu vətənə məhəbbət, düşmənə nifrət hissi ilə doludur. Babalarımızın əməlləri, ənənələri bu əsər vasitəsi ilə balalarımıza çox gözəl keyfiyyətlər aşılayır.

Cavahir xatunun xeyir-dua verərək Cavanşiri düşmənlə ölüm-dirim vuruşuna yola salması, Vətən torpağını göz bəbəyi kimi qorumağa hazır olan gənclərimizə bir örnək, bir nəsihətdir... Bu səhnənin təsviri Qarabağ döyüşünə yola salınan gənclərimizi xatırladır.

Mehdi Hüseynin uşaq hekayələri, onun qəhrəmanları xalqımızın uzaq və yaxın keçmişindən bu günədək, işıqlı sabahından xəbər verir. Onun kiçik və ortayaşlı uşaqlar üçün

“Odlu qılınc” əsərinin mövzusu da tarixi keçmişimizdən götürülmüşdür.

Yazıçı yalnız “Odlu qılınc”da deyil, “Kərəm əfsanəsi”, “Şeytanın barmağı” və s. əsərlərində də tariximizdən faydalanmışdır.

Xalq yazıçısı Səməd Vurğunun uşaqlara həsr etdiyi şeirlər içərisində “Azərbaycan” şeiri böyük əhəmiyyət daşıyır:

Mən bir uşaq, sən bir ana,
